Etibar Muradxanlı

# TƏLƏBƏ TAQIMI

Yazıçı Etibar Muradxanlının “Tələbə taqımı” kitabına könüllü olaraq Qarabağ cəbhəsinə yollanan tələbə gənclərin qəhrəmanlığından bəhs edən eyni adlı romanı, arxa cəbhə adamlarının mənəvi rəşadətindən danışan “Fəridə nənəgilin pəncərələri” povesti, hüquq-mühafizə orqanları işçiləri və sərhədçilərin şərəfli, çətin işindən söz açan hekayələri daxildir. Yüksək humanizm və dərin həyatsevərliklə aşılanmış bu əsərlər oxucunu vətəni sevməyə, qanunun aliliyinə hörmət etməyə, hallallığa səsləyir. “Siz mühasirədəsiniz, leytenant” kitabından sonra bu, yazıçının oxucularla ikinci görüşüdür.

**Kitabın nəşrində göstərdiyi dəstəyə görə Caspian Pipe Coatings MMC-nin Direktoru cənab Azər N. İsayevə və şirkətin kollektivinə dərin minnətdarlığımı bildirirəm.**

*Müəllif*

**Etibar Muradxanlı. TƏLƏBƏ TAQIMI**
Bakı, QANUN nəşriyyatı, 2018, 160 səh.

Redaktor və ön sözün müəllifi: Əsəd Cahangir
Korrektor: Cahidə Yaqubova

Mətn dizaynı: Rahilə Şamilqızı
Qapaq dizaynı: Rafael Qasım

QANUN nəşriyyatı
Bakı, Azərbaycan, AZ1102, Tbilisi pros., 76
Tel.: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN

© Etibar Muradxanlı, 2018
© QANUN nəşriyyatı, 2018

Ön söz

## SÖZÜN ÖN VƏ ARXA CƏBHƏSİ

Etibar Muradxanlını universitet illərindən tanıyıram – mən filologiya fakültəsinin dördüncü kursunda oxuyanda o birincidə oxuyurdu. Kənddən gələn, kreativ davranışından tutmuş sağlam görünüşünəcən universitet mühitinə dağ havası gətirən Etibar öz həmkursları arasında dərhal seçilir, diqqəti çəkirdi. Yuxarı kurslarda oxuyanlar yeni gələnləri adətən öz daxili tərəzilərində ölçübbiçir, saf-çürük edirlər və mən də ilk gördüyümdə onun barəsində qərarımı vermişdim: bu oğlan universitetə, yəqin ki, öz gücüylə daxil olub; oxuyan tələbədir; onda "nəsə" var. O vaxt mənə elə gəlirdi ki, bu potensial "nəsə" Etibarın gələcək ədəbiyyatşünas fəaliyyətində üzə çıxacaq. Sonralar məlum oldu ki, yanılmamışam. Sadəcə bir fərqlə – bu "nəsə" öz realizəsini elmi yox, bədii yaradıcılıq sahəsində tapdı, Etibar alim yox, yazıçı oldu.

Doxsanıncı illərin xaotik olayları çoxları kimi bizim də gələcək planlarımıza ağlagəlməz redaktələr etdi. Mətbuatda çalışmağa başladıq, hətta hər ikimiz bir müddət "Ekspress" qəzetində birlikdə işlədik. O günlərin birində Etibar "Siz mühasirədəsiniz, leytenant" roma-

nının əlyazmasını oxumaq üçün mənə verdi. Kifayət qədər iri həcmli romanı birnəfəsə oxudum və oxuduqca da bir məsələni özüm üçün dəqiqləşdirdim – bu romanın müəllifinin əsl nasir stixiyası var.

İndi o vaxtdan iyirmi ildən çox keçir. Bu iyirmi ildə Etibarın müxtəlif mətbu orqanlarda vaxtaşırı əsərləri dərc olunub, nəsr kitabı işıq üzü görüb. İkinci – "Tələbə taqımı" kitabına daxil etdiyi hekayələr və romanın əlyazmalarını oxuduqca isə görürəm ki, iyirmi il qabaqkı nasir stixiyası, yazıçı ilhamı onu nəinki tərk etməyib, əksinə, o vaxtkı gənclik temperamenti zəngin həyat materialı və çoxillik yaradcılıq təcrübəsindən doğan əlavə keyfiyyətlərlə daha da zənginləşib. Çünki yazmaq ehtirası Etibarın ötəri gənclik marağından, "hamı yazır, mən niyə yazmayım?" həvəsindən, bir sözlə, günün dəbindən yox, neyləsə də gizlədə bilmədiyi, zaman-zaman üzə çıxıb, öz gerçəkləşmək haqqını tələb edən yazıçı taleyindən doğur. Bu, Etibarı onlarla, yüzlərlə nəsr iddialısından fərqləndirən birinci amildir – onun nasir istedadı var.

Yazılarında bəzən açıq-aşkar üzə çıxan lirik ruha, hətta sentimental notlara baxmayaraq, Etibar ən sərt mövzuda – müharibə mövzusunda yazır: əksər əsərləri ya birbaşa, ya da dolayısı ilə Qarabağdan danışır; bu əsərlədən top gurultuları, avtomat səsləri eşidilir, barıt və qan qoxusu gəlir; əsas qəhrəmanı lazım gəlsə, öz həyatını doğma torpaqlar uğrunda döyüşlərdə qurban verən vətənpərvər, əsas ideyası torpaqlarımızın erməni işğalından azad edilməsidir. Yəni o, ədəbiyyata təkcə istedadı yox, həm də özünəməxsus problem, mövzu, ideyaları ilə gəlib. Bu, Etibarı yazmaq xatirinə yazan onlar-

la, yüzlərlə konyukturşikdən fərqləndirən ikinci amildir – onun deməyə sözü var.

Etibarın "Tələbə taqımı" kitabına daxil etdiyi nəsr əsərləri də problem, mövzu və ideya baxımından istisna deyil. Bu kitaba ötən əsrin 80-ci illərinin sonundan bu günə qədərki bütöv bir dövrün bədii salnaməsi də demək olar. Kitabdakı əsərlər üç qismə bölünür: əri dünyasını dəyişən, oğlu rus ordusunda xidmət edən bir qarının tənhalıq əzablarından bəhs edən "Fəridə nənəgilin pəncərələri" povesti bizi Sovetlər Birliyinin dağılması dövrünə aparır; "Tələbə taqımı" romanı birbaşa Qarabağ müharibəsi olaylarından bəhs edir; "Qaç, nə qədər gec deyil", "Ay çıxana qədər" hekayələri isə müharibədən sonrakı dövrdə hüquq-mühafizə orqanları işçilərinin mənəvi və fiziki rəşadətindən, sərhədlərimizin keşiyində ayıq-sayıq dayanan zabit və əsgərlərimizin qəhrəmanlıq və təhlükələrlə dolu fəaliyyətindən danışır.

İstər ön, istərsə də arxa cəbhə həyatına üz tutsun, hardan, kimdən, nədən yazırsa yazsın, Etibarın əsərlərini birləşdirən bir ümumi cəhət var – qaynağını həyatdan götürmək, təbii yaşantıya, real həyat faktlarına söykənmək və nəticə etibarilə oxucunu inandırmaq, ona təsir etməyi bacarmaq. Xüsusən də, müharibə mövzusunda yazdıqları Etibarın bir könüllü kimi iştirak etdiyi Qarabağ döyüşlərindəki birbaşa, canlı müşahidələrindən doğur. Yəqin bu üzdən yazıçının bədii ilham və sevgiylə yazılan əsərlərini oxuduqca, sadəcə oxucu kimi qalmaq istəmir, onun təsvir etdiyi hadisələrin birbaşa iştirakçısına çevrilmək, mənən zəngin qəhrəmanları ilə şəxsən tanış olmaq, əlinə silah götürüb, Qarabağın düşmən tap-

dağından azad edilməsi uğrunda döyüşlərə atılmaq arzusuna düşürsən.

Müharibə mövzusuna ardıcıl müraciətlərinə baxmayaraq, Etibarın əsərləri yüksək humanizm, dərin optimizm və həyatsevərliklə aşılanıb. O, realist yazıçıdır, amma bu realzim həyatın kor-koranə fotosurətini çıxarmaq kimi bayağı sənət təsəvvürləri və “gerçəklik” illüziyasından uzaqdır. Onun realzim anlayışının fokusuna təkcə olanlar yox, həm də olmalı olanlar düşür. Etibarın bədii dünyagörüşündə real və ideal elə təbii, üzvi surətdə birləşir ki, bunlardan birinin harda başlayıb, digərinin harda qurtardığını bilmirsən. Nəticədə Fəridə nənə, Rövşən, Xudaverən, Fərhad, Ümidvar, mayor Pənahlı, leytenant Qafarov kimi bir tərəfdən tamamilə canlı, təbii özəllikəri əks etdirən, digər tərəfdən isə ən ali, ən müqəddəs duyğularla yaşayan ideal insan surətləri yaranır. Etibar ləyaqətli, güclü, iradəli, qətiyyətli, xeyirxah insan surətləri, bir sözlə, müsbət qəhrəmanlar yaratmağa meyl edir. Məhz bu üzdən onun qəhrəmanları oxucunu öz ardınca aparmağa qadirdir. Bu, Etibarı başqalarından seçib ayıran üçüncü amildir.

Əsərləriylə ötəri tanışlıqdanca görürsən ki, Etibar bütün varlığıyla hərbi işə bağlıdır. Şübhə etmirəm ki, gəncliyində o özünü ordu zabiti kimi təsəvvür edirmiş. Tale süngünü qələm, döyüşçünü yazıçıyla əvəz edərək, onu bədii yaradıcılıq yoluna salsa da, eynən döyüşkən qəhrəmanları kimi Etibar da təslim olmayıb. Nəticədə tale və insan ortaq məxrəcə gəlib, ümumi dil tapıblar: o, taleyin hökmü ilə yazıçı olmağına olub; amma öz ürəyincə olan mövzularda yazmaq şərtilə. Və beləcə,

hərbi-vətənpərvərlik mövzularında yazmağı özünün tale təyinatı kimi dərk edən, başlıca yaradıcılıq amalına çevirən bir yazıçı formalaşıb.

Bu gün Qarabağ mövzusunda yüzlərlə əsərlər yazılır, amma, məncə, ədəbiyyatımız vətən qarşısındakı borcundan hələ çıxmayıb. Buna nə qədər səbəblər göstərsək də, bütün bunlar istənilən halda subyektiv yanaşmalardan o yana keçməyəcək. O səbəblərdən biri də budur ki, Qarabağ mövzusunu özünün tale təyinatı kimi dərk edən yazıçımız bəlkə də hələ üzə çıxmayıb. Qarabağ mövzusunda yazanlar arasında bu missiyanı ən kəskin dərk edənlərdən biri, bəlkə də birincisi Etibar Muradxanlıdır desəm, yəqin ki mübaliğəyə yol verməərəm. Məncə, Qarabağ haqqında həqiqətləri bədii şəkildə qələmə almaq, Qarabağ epopeyasını yaratmaq bir yazıçı kimi onun tale təyinatıdır. İnanıram ki, özünün gələcək yaradıcılığı ilə o, bu təyinata layiq olduğunu sübut edəcək.

Yeni işıq üzü görən kitabı münasibətiylə qələm dostumu ürəkdən təbrik edir, çətin və şərəfli işində ona uğurlar diləyirəm!

*Dərin sayqılarla:*
***Əsəd Cahangir***
*25.11.2018*

# TƏLƏBƏ TAQIMI

roman

## "Bir güllə, bir hədəf"

Gəlir! – Arif qulağını yağışdan islanmış torpaqdan aralayıb, pıcıltı ilə dilləndi: – beempedir. – Palcığa bulaşmış dizlərini çırpıb ayağa qalxdı. O, universitetin jurnalistika fakültəsinin tələbəsiydi, Ermənistandan qaçqın düşmüşdü. Vaxtilə rus ordusunda xidmət etmiş, əsgərlikdə hərbi zirehli maşın – BMP sürmüşdü...

Arifin bu sözüylə tələbə əsgərlər bir-birlərinə baxıb, dərindən köks ötürdülər, hülqumları elə qalxıb endi ki, elə bil bu dəqiqə qarınlarına düşəcəkdi. Bu tələbələrin çoxu hərbi xidmət keçsə də, bir-ikisindən başqa heç biri müharibə-zad görməmişdi. İndi onlara doğru BMP ilə irəliləyən düşmən ordusu isə artıq Azərbaycanın bir-neçə şəhərini almış, kəndləri viran qoymuş, dinc sakinləri işgəncə ilə qətlə yetirmişdi. Onlar öldürməkdən qorxmur, qan tökməkdən çəkinmirdilər...

Üç gün qabaq başlayan yağış dayanmaq bilmirdi. Narın yağışdan tələbə əsgərlərin paltarları tamam islan-

mış, soyuq iliklərinə qədər işləmişdi, amma onlar soyuqdan yox, həyəcandan titrəyirdilər. Bakı Ümumqoşun Hərbi Məktəbində vur-tut bir neçə ay təlim keçib, tələm-tələsik döyüşə, vətəni müdafiəyə göndərilən bu gənclər qarşıdakı doyüşə hazır deyildilər!

Tələbə Taqımının komandiri Rövşən* əlini gözünə yaxınlaşdırdı, hərbi formasının qolunu azacıq geri itələyib, saatına baxdı. Qaranlıqda saatın əqrəblərini güclə sezdi – 5-ə 20 dəqiqə işləyirdi: – Qaldırın uşaqları!.. – Barmağıyla səngərlərin arxa tərəfindəki sökülüb-dağılmış kiçik tikintiyə işarə elədi. Tələbə döyüşcülərin bir qismi növbədən sonra orada istirahət edirdilər: – Hamı səngərə!.. Gəlir xainlər!..

Mövqelərimiz zirvədəydi. Səkkiz səngərdən ibarət müdafiə mövqeyi qurulmuşdu. Birinci və beşinci səngərlərdə Yerli Özünümüdafiə Dəstəsinin əsgərləri, altıncı səngərdə Tələbə Taqımından doqquz nəfər, yeddinci səngərdə yenə də Yerli Özünümüdafiə Dəstəsinin əsgərləri və nəhayət səkkizinci – sonuncu səngərdə Tələbə Taqımının digər doqquz döyüşçüsü mövqe tutmuşdu. Əsgərlər dörd nəfərdən ibarət hissələrə bölünüb, növbəylə dincəlir, digər hissə isə qarovul çəkirdi. Hər hansı məlumat dərhal bütün səngərlərə ötürülürdü.

Səngərin yağış az tutan tərəfinə çəkilən, islanmış buşlatlarına bürünüb, gözlərinin acısını alan əsgərlər komandirin sözünü eşidib, silahlarına sarıldılar. Düşmənin niyyəti məlumuydu – mövqelərimizi ələ keçirmək! Yet-

---

* Bakı Dövlət Universitetinin fizika fakültəsinin tələbəsi. Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 1994-cü il tarixli 202 saylı fərmanı ilə Hüseynov Rövşən Şəmil oğlu ölümündən sonra «Azərbaycanın Milli Qəhrəmanı» adına layiq görülmüşdür.

miş nəfərdən ibarət Yerli Özünümüdafiə Dəstəsi və on səkkiz nəfərdən ibarət Tələbə Taqımının qarşısında tutduqları mövqedə möhkəmlənmək, düşməni geri oturtmaq tapşırığı qoyulmuşdu.

Düşmən atəş açmadan səngərlərə atıla bilməyəcəyini anlamışdı, ona görə qəfil və ardıcıl atəşə başladı. Elə ilk atəşdəncə yuxusuzluqdan gözlərini güclə aralayan gənc əsgərlərin vücudları titrədi, yuxuları qaçdı.

Düşməndə bizimkilərin mövqeyi barədə dəqiq məlumat olduğu aydınca hiss olunurdu. Mövqelərimiz işıqsaçan güllələrlə dəqiq atəşə tutulur, əsgərlərimiz başlarini qaldırmağa macal tapmırdılar. Atəş nöqtələri duman və çiskinin qarışıb daha da qatılaşdırdığı qaranlıqdan güclə sezilirdi. Düşmən qarşıdakı dağın zirvəsindən hərəkət edirdi və o dağ Tələbə Taqımının yerləşdiyi mövqelərdən fərqli çılpaq deyildi, meşəliklə, kol-kosla örtülmüşdü. Bu, düşmənin gizlənə-gizlənə rahat irəliləməsi, güllələrdən qorunması uçün əlverişli şərait yaradırdı...

Erməni yaraqlıları artıq dağdan enmişdi. Onlar bir azdan tələbələrin mövqelərinə doğru üzüyuxarı dırmanmağa başlayacaqdı. Komandir Rövşən: – Yerlərinizi tutun!, – deyə göstəriş verdi: – Mənim əmrim olmadan heç kəs atəş acmasın! – Gecəgörmə cihazını gözlərinə sıxıb, düşmənin hərəkət etdiyi sahəni diqqətlə müşahidə etməyə başladı. Tələbələr düşmən tərəfdən açılan atəşin səngidiyini görüb, sökülüb-dağılmış tikintidən çıxdılar və özlərini səngərlərə atdılar. Yalnız Ehtiramdan* başqa – onu yuxudan oyada bilməmişdilər. İmkanlı ailənin

---

* Ehtiram Cəlilov - Bakı Dövlət Universitetinin kimya fakültəsinin tələbəsi.

övladı olan Ehtiram cəbhə həyatına öyrəşə bilməmişdi. Tələbələr silahlarına sarılıb, səngərlərə yüyürəndə, o yuxulu-yuxulu bir böyründən o biri üstə çevrilib, elə oradaca da yatıb qalmışdı...

Ermənilər nizamla irəliləyirdi. Onların bir hissəsi yerə uzanıb ardıcıl atəş açır, digərləri isə bir neçə addım qabağa atılıb, kol-kosun, daş-kəsəyin arxasında, dizə qədər qalxmış otların arasında daldalanır, bir az da irəli şığımaq üçün fürsət gözləyirdi: – Diqqəəət!, – Komandir Rövşən komanda verdi: – Hazır oluuun!, – Görünən, hərəkətdə olan bütün nöqtələrə aaatəş! – Bayaqdan həyəcan və səbrsizliklə əmr gözləyən tələbələr silahlarının qundaqlarını sinələrinə sıxıb, hədəfi nişan aldılar, avtomatlar şimşək kimi çaxdı. Düşmən əsgərləri yerə uzanıb, bir müddət tərpənməz qalsalar da, çox keçmədi ki, başlarını qaldırmadan, ehtiyatla üzüyuxarı sürünməyə başladılar. Hələ heç bir döyüş təcrübəsi olmayan tələbələr güclərini toplayıb, qarşıdan gələn qaraltıları nəzarətdə saxlamağa çalışır, hərəkət edən bütün nöqtələrə atəş açırdılar. Onlar yüksəklikdə olduqları, üstəlik də səngərlərdə yerləşdikləri üçün üstünlüklərini hiss edirdilər. Buna görə tezliklə döyüşə alışdılar və özlərinə güvənclə, inamla döyüşməyə başladılar. Digər səngərlərdə yerləşən, döyüş təcrübəsi nisbətən çox olan Yerli Özünümüdafiə Dəstəsinin əsgərləri isə daha sərrast atəş açır, düşmənin irəliləməsinə imkan vermirdilər. Artıq qorxu hissi tamamilə yox olmuş, tələbələr özlərinin döyüşçu olduqlarını anlamışdılar. İlk döyüş onlar üçün sanki psixoloji hazırlığa, sınağa çevrilmişdi. Gənclərdən ikisi qranatamyotla, qalanları isə Bakının istehsalı olan avtomatlarla si-

lahlanmışdılar. Həm qranatamyotlar, həm də avtomatlar texniki cəhətdən çox zəif, həm də nasaz vəziyyətdəydi. Beş-on atəşdən sonra avtomatların gülləri uzağa getmir, lülələri qızdığından elə qarşılarındaca yerə düşüb, fışıltıyla torpağa sancılırdı...

İki saat davam edən ağır döyüşdən sonra düşmən xeyli itki verərək, geri çəkilmək məcburiyyətində qaldı. Onlar öz əsgərlərinin cəsədlərini götürə bilməyib, yüksəkliyin ətəyindəcə qoyub qaçmışdılar. Uzağıgörmə cihazıyla yüksəkliyin ətəyini müşahidə edən komandir düşmənin tezliklə geri qayıdacağını, cəsədləri götürmək üçün daha bir həmlə edəcəyini bildirib, ayıq olmağı tapşırdı. Tələbə döyüşçülər avtomatlarına sarılıb, öz mövqelərinə çəkildilər...

***

Səhər açılmış, amma hava yağmurlu olduğundan qapqara buludların qaramatı dağlara çökmüş, dayanmadan yağan narın yağış ətrafı görünməz eləmişdi... Əsgərlər kipriklərinə qədər islanmışdılar. Arif sanki salavat çevirirmiş kimi sağ əliylə sifətini silib, azacıq da olsa, qurulamağa çalışdı. Sonra ətrafı dinşəyib, torpağa çökdü, qulağını torpağa dayayıb, yerin nəbzini tutmağa çalışdı. Nəhayət, əlini havada yelləməklə yoldaşlarına sakit olmaq işarəsi verdi: – Tərpəndilər, – qulağını yerdən ayırmadan davam etdi: – beempedir,.. beempe,.. beempe bir!.. O uzandığı yerdən qalxmağa macal tapmamış, qulağı yaxınlıqdakı xışıltını aldı. Bu xışıltını döyüşçülərin hamısı duymuşdu. Qısamüddətli sakitlikdən sonra diksinən tələbələr diqqətlərini Arifdən ayırıb, silahlarının nişangahlarından aşağı boylandılar...

Qaranlığın bağrından çıxan zirehli döyüş maşını altıncı səngərə doğru şığıdı. Düşmən mövqelərimizin ən zəif nöqtəsini hardansa duymuşdu – altıncı səngərdə təcrübəsiz tələbə döyüşçülər mövqe tutmuşdular. Yarım metr eni, bir metr dərinliyi, təxminən altı metr uzunluğu olan səngər uzununa qazılmışdı. Zirehli maşın səngərə sağ tərəfdəki dərənin içiylə yaxınlaşmış, sonra qəfildən açıqlığa çıxıb, müdafiəçilərə doğru sürət götürmüşdü. Qranatamyotla silahlanmış Xudaverən* və Şirvanlı ləqəbiylə tanınan Natiq** özlərinə mövqe seçib, düşmənin döyüş maşınını nişan aldıar. Digər tələbələrsə ardıcıl avtomat atəşiylə onları qorumağa çalışdı. Düşmənin zirehli maşını altmış-yetmiş metr məsafədən səngərin artıq altı-yeddi metrliyinə qədər irəliləmişdi. Xudaverənlə Natiq nə qədər çalışsalar da, qranatamyotlardan heç biri açılmadı. BMP-nin mexanik-sürücüsü silahlarını ona tuşlamış iki qranatamyotçunu görmüşdü. O, döyüş maşınını tez saxlayıb, geriyə sürdü və dərhal əks istiqamətdə aradan çıxdı. Hər iki qranatamyotun mərmini partlatmaq üçün nəzərdə tutulan bizi qısa olduğundan bəzən atəş açılır, bəzən isə bizin ucu mərminin arxasına çatmadığından bu mümkün olmurdu. Bu dəfə də qranatamyotlar açılmadı, amma qranatamyotçu döyüşçülərin xofu düşmənin meydandan qaçmasına bəs elədi. BMP aradan çıxan kimi tələbə döyüşçülər qranatamyotları açdılar, bizlərini çıxarıb, yenidən yerinə qoyaraq yoxladılar. Bu dəfə hər iki qranatamyot vaxtsız və boşuna açıldı. Təəssüf ki, bunu döyüş vaxtı etmək mümkün olmamışdı...

---

* Rəhimov Xudaverən, BDU-nun Filologiya fakültəsinin tələbəsi

** Əhmədov Natiq, BDU-nun Tətbiqi-Riyaziyyat fakültəsinin tələbəsi

Düşmənin daha bir zirehli maşını o biri müdafiə səngərinin qarşısında peyda oldu. Bu səngərdə də döyüş təcrübəsi olmayan tələbə döyüşçülər mövqe tutmuşdular. Zirehli maşın sürətlə səngərin üzərinə şığıdı, tələbələr atəş açmağa macal tapmamış gurultuyla səngərin üstündən keçdi. Hamı cəld səngərin dibinə çökdü. Maşının tırtıllarının zərbindən səngərin kənarları qopub əsgərlərin üstünə uçdu. Maşın səngərin arxasında yerləşdirilmiş, atəşə hazır vəziyyətə gətirilmiş artilleriya qurğusunun üzərinə yeridi. Onu qəfil qarşılarında görən topçu və onun köməkçisi cəld kənara sıçrayıb, özlərini maşının altında qalmaqdan ən son anda qurtardılar. Artilleriya qurğusu yerlə yeksan oldu. Əsgərlər üstlərini örtmüş torpağın altından çıxmaq istəyirdilər ki, zirehli maşın bir neçə metr geridən fırlanıb, yenidən səngərə doğru sürət götürdü. – Qalxmayın, uzanın!!! – deyə Rövşənin bağırtısı döyüş maşınının səsini batırdı. Əsgərlər gözlərini açmağa macal tapmamış, yenindən torpağa qısıldılar. Maşın səngərə çatanda sürəti azaltdı, tələbə döyüşçülərin qısıldıqları səngərin üstünə çıxıb, qəfilləngərlədi və dayandı, sonra yeri titrədərək yenidən irəli sıçradı. Maşının tırtılları ilə səngərdə uzananlar arasındakı məsafə elə az idi ki, o az qala tələbə döyüşçülərin bellərini qaşıyacaqdı, hətta qranatamyotçu Məcidin* saçlarından bir cəngə qoparıb, özüylə apardı.

Maşın səngəri adlayıb irəli keçsə də, Məciddən başqa heç kəs yerindən qalxmamışdı. Qopmuş saçlarının göynərtisindən ufuldayan Məcid sıçrayıb, bir addımlığın-

---

* Məcid Nəcəfov, BDU-nun riyaziyyat fakültəsinin tələbəsi.

da yerə düşmüş qranatamyotu çiyninə qaldırdı, cəld atəşə hazır vəziyyətə gətirib, düşmənin döyüş maşınını nişan aldı. Maşın geri çevrilib, yenidən səngərin üstünə şığıdı. Məcid torpaq dolmuş bulanıq gözləriylə düşmən maşınını güclə görürdü. O, əvvəlcə gözlərinə dolmuş torpağı əlinin arxasıyla ovuşdurub, təmizləməyə çalışdı. Maşın artıq səngərin beş addımlığındaydı. Onun sürücüsü linzadan boylanaraq, Məcidin qranatamyotu ona tuşladığını gördü. Sürəti artırmaq, qranatamyotcunu əzib kecməklə atəşi qabaqlamaq istəsə də, geciydi, Məcid artıq bütün hirsini, hikkəsini tətiyə tökməyə macal tapmışdı. Atəş ildırım kimi gurladı!!! Qranatamyotun mərmisi zirehli maşının papağında partladı. Amma mərmi piyadaya qarşı olduğu üçün gücü maşını sadəcə yerində silkələməyə çatdı. Düşmən heyəti mərminin dalğasının təsirindən çaşdı, maşın dayandı. Maşının partladığını zənn edən ermənilər tələm-tələsik maşından sıcrayaraq cıxdılar və qaçmağa çalışdılar. Uzandıqları yerdən qalxıb, döyüş mövqelərini tutmuş Xudaverənlə Baxışın* silahları eyni anda gurladı. Aradan çıxmağa macal tapmayan ekipaj üzvləri yerə sərildi...

Döyüş maşınının səngərlərə hücumundan istifadə edən ermənilər xeyli irəliləyə bilmişdilər. Onlar dağla üzüyuxarı dırmansalar da, sayları çox olduqları və nizamla hərəkət etdikləri üçün hücumu davam etdirə bilirdilər. Bir dəstə yerə uzanıb, ardıcıl atəş açanda, digəri qalxıb irəli sıçrayır, sonra yenidən yerə uzanıb, arxadakıların hərəkətlərini davam etdirmələri üçün şərait yaradırdı...

---

* Məmmədov Baxış, BDU-nun mexanika-riyaziyyat fakültəsinin tələbəsi

Xudaverən tək-tək atəş açır, “bu yeddinci, bu səkkizinci” deyə vurduğu ermənilər sayırdı. Rövşən gözünü düşmənin gəldiyi istiqamətdən ayırmadan, – Bir güllə, bir hədəf!, – bağıraraq gülləyə qənaət etmələri üçün tapşırıq verdi. Özü isə çiyin cantasını güllələrlə doldurub, qonşu səngərdəki yoldaşlarının yanına süründü, gülləları qurtarmaq üzrə olan döyüşcüləri sursatla təmin edib, cəld də geri qayıtdı. Xudaverənin vurduğu düşmən əsgərlərindən biri ölməmişdi, uzandığı yerdəcə geri sürünməyə can atırdı. Bunu görən Elçin*, – Vurduğun yaralı aradan çıxmağa çalışır, – deyə Xudaverənə səsləndi: – Gəlsənə, onun işini özüm bitirim? – Baş barmağını uzaqdan güclə seçilən yaralı işğalçıya tərəf uzatdı.

– Yox, lazım deyil, Elcin, – Xudaverən gözünü avtomatın nişangahından ayırmadan, səbrlə cavab verdi: – İndi onu götürməyə gələcəklər əclaflar!

Bir neçə düşmən əsgəri yaralını götürməyə çalışsalar da, bacarmadılar. Yaralıya çatar-çatmaz, Xudaverən sərrast atəşlə onları zərərsizləşdirdi. Yaralını asanlıqla götürə bilməyəcəklərini anlayan ermənilər mil atıb, onu üzüaşağı sürüməyə başladılar. Bu vaxt güllə səsləri tələbələrin mövqeyinin arxasından eşidildi. Güclü müqavimətlə qarşılaşan düşmən döyüşçülərinin bir qrupu mövqenin arxa tərəfinə keçməyə müvəffəq olmuşdu. Onlar tələbə döyüşçülərin başlarının döyüşə qarışmasından istifadə edərək xeyli irəliləmiş, müdafiəçilərin arxasına keçmişdi. Düşmən gülləsi vıyıltıyla Xudaverənin qulağının dibindən ötdü. Geri çevrilmək istəyəndə komandir Rövşən sıçrayib, itələyərək Xudaverəni səngərin

* Məmmədov Elcin, BDU-nun Psixologiya fakültəsinin tələbəsi

dibinə yıxdı. Dizini döyüş yoldaşının belinə dayayıb, arxadan Xudaverəni nişan alan ermənini avtomat yağışına tutdu. Rövşən geri çəkilən kimi yerindən sıçrayan Xudaverən arxadan onu vurmaq istəyən erməninin cəsədinə ani nəzər yetirib, yenidən aşağıya – yaraladığı düşmənin uzandığı yerə boylandı. – Aradan çıxdı əclaf! – deyə təəssüfləndi, amma Rövşənə tərəf çevrilib, təşəkkür etməyə macal tapmadı. Komandir artıq arxadan onları mühasirəyə almaq istəyən ermənilərlə döyüşə girmişdi. Sonuncu – səkizinci səngərdə mövqe tutan tələbələr dörd bir istiqamətdə müdafiə olunurdu. Səkkizinci səngər dairəvi müdafiə məqsədiylə dörd metr eninə və dörd metr də uzununa qazılmışdı. Amma getdikcə çəmbər daralır, düşmən müdafiəçi döyüşcülərə anbaan daha da yaxınlaşır, mühasirəyə son qoymağa can atırdı.

## "Tək qalmışıq, komandir, geri cəkilsək yaxşıdır"

Taqım komandiri Yerli Özünümüdafiə Dəstəsinin komandiri ilə əlaqə saxlamağa çalışsa da, cavab ala bilmədi. Tələbə döyüşçülərdən biri, – Onlar geri çəkildilər, komandir!, – deyə bağıraraq məlumat verdi. Komandir səngərin sol çiyninə tərəf sürünüb, ətraflarındakı səngərlərə doğru boylandı. Yerli Özünümüdafiə Dəstəsinin mövqe tutduğu səngərlərdə kimsə gözə dəymirdi, tələbələr köməksiz qalmışdı. Bunu görən tələbə döyüşcülərdən bir necəsi, – Tək qalmışıq, komandir, geri cəkilsək yaxşıdır!, – deyə eyni anda səsləndi. Rövşən, – arxamız Gəncədir, uşaqlar, geri cəkilə bilmərik!, – qətiyyətlə etiraz etdi... Ermənilər da-

yanmadan irəliləyir, mühasirə getdikcə daralırdı. Bir yandan da tələbələrin sursatları qurtarmaq, gücləri tükənmək üzrəydi. Düşmən ciddi müqavimətlə qarşılaşmasına baxmayaraq, hücumu inadla davam etdirir, tələbələrin mövqe tutduqları səngərlərə qarış-qarış yaxınlaşır, addım-addım irəliləyirdi. Yerli Özünümüdafiə Dəstəsinin tərk etdiyi səngərlərdən bir necəsi artıq düşmənin əlinə kecmiş, tələbə döyüşcülər düşmənlə üz-üzə, göz-gözə qalmışdı. Tələbələrin bir addımlığında mövqe qazanmış işğalcı yaraqlılar sayəsində düşmən artıq müdafiə olunmadan irəliləmək, yubanmadan hərəkət etmək imkanı qazanmışdı. Tələbə döyüşcüləri bir necə dəqiqədən sonra xilası mümkün olmayan mühasirə gözləyirdi. Ətraflarının düşmənlə tamam sarıldığını, bir necə dəqiqədən sonra artıq mühasirədən cıxmağın imkansız olacağını anlayan taqım komandiri, – Geri çəkilirik, uşaqlar! – deyə bağıraraq yoldaşlarını xəbərdar etdi. Amma onların sağ tərəfində – səkkizinci səngərdə döyüşən tələbələr komandirin səsini eşitmədilər. Xudaverən sıçrayıb, səkkizinci səngərə tərəf sürünməyə başladı. O, başının üstündən vıyıltıyla ötüb keçən, dörd bir yanında torpağa sancılan güllələrə məhəl qoymadan özünü mühasirəyə düşdüklərindən xəbərsiz olan döyüş yoldaşlarına yetirməyə çalışırdı. Amma səngərə qədər sürünə bilməyəcəyini görüb, yerindəcə bir qədər dikəldi, – Geri cəkilirik, Ümidvaaar!!!*, – deyə var səsiylə bağırdı. Səkkizinci səngərdəki əsgərlər onu görsələr də, nə dediyini eşidə bilməmişdilər. Xudaverən yerindən sıçrayıb, onlara sarı qaçmaq istəyəndə, yenidən atəşə tutuldu, bir neçə addım atıb, özünü torpağa qısdı,

* Ümidvar Kəlbiyev, BDU-nun Filologiya fakültəsinin tələbəsi

dizə qədər qalxmış otların arasında gizlənib, güllələrdən yayınmağa calışdı...

Düşmən addım-addım tələbə taqımının yerləşdiyi səngərlərə yaxınlaşırdı. Tələbələrin gülləsi tükənmək üzrəydi.

– Güllələrinizə qənaət edin! – deyə komandir göstəriş verdi, avtomatını səngərin divarına dayayıb, tapançasını çıxardı. Bu vaxt düşmən əsgərləri daha yaxından atəş açmağa başladılar. Qarşıda, cəmi beş-on addım o yandakı otların arasında dəbilqələr gah görünüb, gah yoxa çıxırdı. Onlar bağırıb, tələbələri təslim olmağa çağırır, yoxsa hamını öldürəcəkləriylə hədələyirdilər. Amma tələbələrin döyüşü əzmlə davam etdirdiklərini gördükdə, – Ara turk, təslim ol, sənin ananı... – deyə təhqirə keçdilər. Yerli Özünümüdafiə Dəstəsinin əsgərlərindən olan on yeddi-on səkkiz yaşlı bir gənc ermənilərin ana-bacı söyüşünə dözməyib, mundirini əynindən çıxararaq kənara tolazladı, özündən ağır olan pulemyotu götürüb, darağını çiynindən aşırdı və sıçrayaraq səngərdən çıxdı. "Dayaaan, haraaa?!" – deyə bağıran Rövşənin ona mane olmaq cəhdinə məhəl qoymadan düşmənin üstünə yeridi: – Vay sizin ananızı,.. əclaflar!!! – deyərək ardıcıl atəş açaaça düşmən əsgərlərinə sarı irəliləməyə başladı. Amma cəmi bir neçə addım atmışdı ki, onu vurdular! Və o, son addımını atıb dayandı, irəli getməyə taqəti qalmadığından ayaqlarını yerə dirəyib, var səsiylə hayqırdı. Elə bil ki, sahibinin qəzəbini başa düşən, əlində zorla saxladığı silahı da "bağırdı". Yerlərindən siçrayıb özlərini tələbələrin mövqe tutduğu səngərə atmaq istəyən bir neçə düşmən əsgəri yerə sərildi. Gənc döyüşçüyə tuşlanmış düşmən

avtomatlarının lüləsindən od püskürdü. Silah əlindən yerə düşən gənc qollarını yanlara açaraq bir neçə addım irəli atdı və kökündən kəsilmiş ağac kimi üzüüstə yerə gəldi. Elə bil ki, körpə özünü əllərini ona açmış anasının ağuşuna atdı və anasının qoxusunu ciyərlərinə çəkərək, hüzur içərisində can verdi...

...Xudaverən artıq qonşu səngərə xəbər yetirə bilmişdi. Mövqedəki əsgərlər də səngərdən çıxıb, arxa tərəfə sürünməyə başladılar. Rövşənin əmriylə digər mövqedəki tələbələr də bir-bir səngərdən çıxıb, geri sürünməyə başladılar. Baxış səngərdən çıxıb, bir qədər geri süründükdən sonra yoldaşlarının geri çəkilməsinə kömək eləsin deyə dizini yerə dirəyib, düşməni ardıcıl avtomat atəşinə tutdu. Tələbələr səngərdən çıxıb, xeyli sürünə bildilər. Bu vaxt Yerli Özünmüdafiə Dəstəsinin tərk elədiyi səngərdən – Kömək edin!!! – deyə bağırtı eşidildi. Rövşən döyüşçülərdən birinin yaralı vəziyyətdə səngərdən çıxmaq üçün can atdığını gördü. Görünür, o aldığı yaradan huşunu itirmiş, yoldaşları geri çəkiləndə ya ona diqqət yetirməmiş, ya da şəhid olduğunu zənn edib, özləriylə götürə bilməmişdilər. O indi özünə gələrək tələbələri köməyə çağırırdı.

Rövşənin əmriylə kömək üçün iki tələbə döyüşçü – Arif və Məcid cəld yaralıya doğru süründü. Onu dartıb səngərdən çıxardılar və sürüyə-sürüyə arxaya doğru çəkməyə başladılar. Atəş xəttindən bir qədər aralanan kimi Məcidin yardımıyla Arif yaralını çiyninə qaldırıb, yoldaşlarının yanına götürüldü. Məcid isə dizi üstə yerə çöküb, ardıcıl atəş açmaqla düşmənin diqqətini yayındırmağa çalışdı. Bayaqdan müdafiəni öz üzərinə götürməklə

yoldaşlarının geri çəkilməsinə şərait yaradan Baxış artıq onların arxaya süründüyünü görüb, ayağa qalxdı, davamlı atəşlə geri addımlamağa başladı. Amma düşmənə açıq hədəf olduğu üçün yalnız bir neçə addım geri çəkilə bildi, qəfil müvazinətini itirib, yerə yıxıldı. Güllə çiynindən dəymişdi. – Baxışı vurdular! – deyə tələbə yoldaşları komandirə səsləndi. Rövşən iki barmağını "V" şəklində açaraq əlini yuxarı qaldırdı, yumruğunu havada yelləyərək baş barmağını Baxışın vurulduğu yerə tuşladı. İki tələbə döyüşçü Baxışı atəş xəttindən çıxarmaq üçün cəld irəli süründü. Digərləri isə yoldaşlarını qorumaq məqsədiylə ardıcıl olaraq düşməni atəşə tutdular. Baxış sol çiynindən yara almışdı. Onu arxası üstə geri dartanda sağ əliylə sinəsinə sıxdığı avtomatla atəş açmaq imkanını əldən vermədi. Düşmən əsgərləri yetirib özlərini, tələbələrin indicə tərk etdikləri səngərlərə ata bilsələr də, davamlı atəş qarşısında qaldıqlarından irəli gedə bilmədilər...

Tələbə döyüşçülər komandirin işarəsiylə yerləşdikləri yüksəklikdən atəş xəttinin əksi istiqamətində aşağı sürünməyə başladılar. O biri səngərdəki tələbə döyüşçülər də özlərini yoldaşlarının toplandığı yerə çatdırdılar. Onlar düşmənin həmləsi gözlənilən tərəfin əksi istiqamətdə yorğun addımlarla, dalın-dalın geri çəkilməyə başladılar. Tələbə döyüşçülər dağın ətəyindəki dərəni keçib, yenidən qarşıdakı dağa qalxmalıydılar. Amma dağın ətəyinə enməyə macal tapmamış arxa tərəfdən yenidən atəşə tutuldular. Bu dəfə onlar bir qədər əvvəl geri çəkilmiş Yerli Özünümüdafiə Dəstəsinin döyüşçüləri tərəfindən atəşə tutulmuşdular. Onlar gələnlərin düşmən olduğunu zənn edib, tələbə döyüşçüləri atəşə tutmuşdular. Rövşən yerə

çöküb, radio ilə dərhal Yerli Özünümüdafiə Dəstəsinin komandiriylə əlaqə saxlamağa çalışdı. Amma onun çağırışına cavab gəlməmiş tələbələr qarşıdan bir tankın gəldiyini gördülər. Tankın ardınca bir bölük əsgər gəlirdi, üstündə isə Azərbaycan bayrağı dalğalanırdı. Bunlar tələbələrin mühasirəyə düşmələri haqqında xəbər alan, onların yardımına gələn Mingəçevir Briqadasının döyüşçüləriydi. Axır ki, Rövşən bir qədər əvvəl geri çəkilmiş Yerli Özünümüdafiə Dəstəsinin komandiriylə rabitə yarada bildi. Onun sözlərindən məlum oldu ki, mövqelərimiz artıq düşmən tərəfindən zəbt edilib. Geri çəkilməkdən başqa əlac qalmamışdı. Tələbələrə yardıma gəlmiş Mingəçevir Briqadasının əsgərləri də necə gəlmişdilər, eləcə də geri çəkilməyə məcbur oldular...

Ağır döyüşdən çıxmış tələbə taqımı dincəlmək və növbəti döyüşə hazırlaşmaq məqsədiylə Hacıkəndə gətirildi. Amma elə həmin axşam ermənilərin zəbt etdiyi ərazilərə kəşfiyyat qrupu göndərildi. Səhərə yaxın kəşfiyyat qrupu xəbər gətirdi ki, ermənilər zəbt etdikləri səngərlərdən ordumuzun atıb çıxdığı döyüş sursatlarını yığışdırıb geri çəkiliblər. Məlum oldu ki, bu hücümda düşmənin əsas məqsədi bizim mövqeləri zəbt etmək deyil, psixoloji təsir göstərmək, ordumuzun gözünü qorxutmaq, geri çəkilməyə məcbur etmək olub. Bu manevrlə düşmən növbəti hücumlar üçün psixoloji zəmin hazırlayır, ordumuzu vahimə içində qaçmağa vadar etmək istəyir, genişmiqyaslı hücum planı qururdu. Amma onun bu manevri istənilən nəticəni vermədi. Ciddi müqavimət göstərən tələbə döyüşçülər düşmənin əlli nəfərdən artıq

canlı qüvvəsini məhv edə, bir neçə döyüş maşınını sıradan çıxara bilmişdi...

## **“Anama deyin, məni gözləməsin”**

– Sizi soruşurlar, komandir. Deyəsən, dünən şəhid olan gənc əsgərin anasıdır! – Rövşən dinməz-söyləməz ayağa qalxdı, sual dolu baxışlarını Arifin yuxusuzluqdan qızarmış gözlərinə dikdi. Hülqumu qalxıb-endi, səsini çıxara bilmədi. Ayaqları onu qeyri-ixtiyarı həyətə – şəhid olmuş oğlunun hesabını sormağa gəlmiş ananın hüzuruna sürüdü.

– Siz,.. siiiz?

Qadın Rövşənin gözlərinin içinə elə diqqətlə baxdı ki, komandirin nitqi qurudu. Qadın susdu, susdu... Komandir bu zəhmli qadın, bu mehriban ana baxışlarının qarşısında taqətdən düşdü, baxışlarını yayındırmaq istədi. Düşmən qarşısında bir an belə qırpılmayan gözlər şəhid anası qarşısında tab gətirmədi. Gözlərini aşağı endirdi, qəlbinin dərinliyindən sızan bir damla göz yaşı yanağına axdı...

Ana isə susurdu. Bəlkə də qəlbində tufan qopmuşdu, amma bunu yalnız özü bilir, düşmənlə üzbəüz duran, ölümlə qarşı-qarşıya dayanan gənclərə zəiflik göstərmək istəmirdi. Kiprikləri sıxıldı, sıxıldı.. möhkəm-möhkəm sıxıldı və göz yaşlarını qəlbinə süzdü. Gözlərini açmadan, hisslərini oğlu yaşında olan əsgərlərə bildirmədən irəliyə doğru bir addım atdı, nitqini itirib, farağat vəziyyətində duran komandirin boynunu qucaqladı:

– Vətən sağ olsun, oğlum! Vətən Sağ olsun! – səsinin titrəməsini duyurmadan pıçıldadı, – Vətən sağ olsun!!!

Geri çəkilib, komandirlə üzbəüz dayandı. Komandir ananın baxışlarını görməsin, o baxışlar qarşısında utanmasın, əzilməsin deyə kirpiklərini aşağı endirmişdı. Ana komandirə sarı bir addım atıb, onun səssiz axan göz yaşlarını titrək barmaqları ilə sildi, alnından opüb, geri çəkildi... Bir addım arxada dayanıb, dinib-danışmadan başını aşağı dikən, üzünü saqqal basmış həyat yoldaşının yanından ötüb, maşına sarı addımladı... Bayaqdan heyrətlə bu səhnəyə baxan Məcid yaxınlaşıb, əlini komandirinin çiyninə qoydu. Döyüş yoldaşının əlini çiynində hiss edən komandir sanki yuxudan ayıldı.

– Mən elə bilirdim vətəni mənim qədər sevən yoxdu, Rövşən, – gözlərini əsgər anasının getdiyi yoldan ayırmadan, pıçıltıyla dilləndi.

– Mən də elə bilirdim, Məcid, mən də elə bilirdim, qardaş, – bayaqdan sanki nəfəs almağı belə unutmuş Rövşən dərindən köks ötürdü: – Amma doğma balasını, tək övladını vətən yolunda qurban verən anaları görəndə səhv etdiyimi anladım. Sən demə, bizim qəlbimiz o boyda məhəbbəti daşımağa qadir deyilmiş...

– Böyük məhəbbət yalnız böyük qəlblərə – ana qəlbinə sığar, qardaş! – bayaqdan şəfqətlə onlara baxan Fərhad* da söhbətə qoşuldu. Amma gözlərindəki həyəcan şəhid anası qarşısında gözlənilmədən baş qaldıran heyrəti kəsdi, dərhal əlavə etdi: – Şuşa haqqında pis xəbərlər gəzir, komandir, xəbəriniz varmı?

---

* Quliyev Fərhad BDU-nun tarix fakültəsinin tələbəsi

– Xəbərim var, Fərhad, amma əmin olun ki, hamısı yalandı. Şuşa alınmaz qaladı. Onu nəinki ermənilər, heç rus ordusu da ala bilməz, bildin?! – hələ də şəhid anasının məğrur və üzüntülü baxışlarının təsirindən çıxmayan Rövşən özü də bilmədən Fərhadın üstünə qəzəbləndi. – Təki elə olsun, komandir, amma vəziyyət bizim bildiyimiz kimi deyil! – Fərhad sanki özü-özüylə danışırmış kimi dodaqaltı mızıldandı, çevrilib getmək istədi. – Hara? – Rövşən onun arxasınca bağırdı. – Bacıma zəng eləməliyəm. Əminəm ki, Bakıda bizdən daha dəqiq məlumat var, – deyə Fərhad uzaqlaşdı.

Döyüş yoldaşının sözlərindən şübhəyə düşən Rövşən Bakıda yaşayan bacısına zəng etmək üçün Fərhadın ardınca rayon poçt şöbəsinə tərəf yollandı, Məcid də onları tək buraxmadı. Poçt şöbəsində sifariş verib, gözləməyə başladılar. Amma heç biri bir kəlmə danışmır, bir-birinə tərəf baxmırdı, guya Fərhadın gətirdiyi xəbər dillərini kilidləmiş, ağızlarına qıfıl vurmuşdu, heç kim ağzını açmağa cəsarət etmirdi. Əslən Şuşadan olan Fərhadın sifətinin titrəməsi onun daxilində nələr baş verdiyini aydın göstərir, ürəyindəkiləri açıq söyləyirdi. Əvvəlcə Fərhadı çağırdılar. O, dəstəyi alan kimi hal-əhval belə tutmadan, – Şuşadan nə xəbər var, bacı?! – deyə həyəcanla soruşdu. Cavab almayınca, – Şuşadan nə xəbər var soruşdum?! – deyə az qala bağırsa da, dəstəyin o biri ucundan yenə cavab gəlmədi. Dəstəyin o başından yalnız hıçqırıq səsləri eşidilirdi! Dəstək Fərhadın əlindən düşdü, başını tutub, yerə çökdü. Məcidlə Rövşən cəld ona yaxınlaşdılar. Fərhadın səssiz hönkürtüsü çiyinlərinin titrəməsindən aydınca eşidilirdi. Heç kim bir söz deməyə cəsarət etmədi...

Bu an Rovşəni də çağırdılar. Dəstəyi götürən Rövşən:– Doğrudumu, Yegiş, doğrudumu eşitdiklərim?! – deyə sanki yalvarırmış kimi, sanki "yalandir, qardaş, inanma yalanlara, uyma təxribatlara..." – söyləməsini gözləyirmiş kimi ehtiyatla soruşdu. Dəstəyin o biri başında ani sükut çökdü. Bacısı Yeganə mövzunu dəyişməyə çalışdı:

– Bacı qurban, Rovşən, ölüm ayağının altında, qardaş, anam səndən ötrü çox nigarandır. Heç ona sənin cəbhədə olduğunu belə deməmişik. Hər gün səni soruşur, hər gün səndən danışır. Televizoru açmağa qorxuruq ki, birdən əsgərlərin arasında səni də göstərərlər, anam görər...

Rovşən Yeganənin sözünü yarımçıq qoydu:

– Sualıma cavab ver, bacı, doğrudanmı, ermənilər Şuşaya girib?

– Doğrudur, bacı qurban, doğrudur, Rövşən! Şuşa bu axşam işğal olundu!!!

Dəstəyin o biri ucundan boğuq bir səs sanki heç kim eşitməsin deyə pıçıltıyla dilləndi. Rövşənin nitqi qurudu. Telefonun dəstəyi əlindən sürüşüb, havadan asılı qaldı. Alnını telefon aparatına dayayıb, gözlərini qapadı. Dəstəyin o biri başında isə, – Özünü qoru, qardaş, səndən yana çox narahatıq, bacı qurban, anam hər dəqiqə səni soruşur, Rövşən!!!, – deyə bacısı dayanmadan danışır, özünü qoruması üçün yalvarır, dil tökürdü. Telefonun havada yellənən dəstəyini titrək barmaqları ilə qamarlayıb, qulağına yaxınlaşdırdı:

– Anama deyin məni gözləməsin, Yegiş! Elə siz də! – deyə qapatdı. Kabinədən çıxıb, döyüş yoldaşlarına

yaxınlaşdı. Fərhad alnını Məcidin çiyninə dayayıb, dayanmadan hıçqırırdı. Onun hıçqırıqlar içində boğulduğunu, amma səsini boğmağa çalışdığını görən Rövşən:

– Ağla qardaşım, ağla, ürəkdən ağla, ağla ki, ürəyin partlamasın! – deyə yanından ötüb getmək istədi. Qarşıdan Arif qaçaraq onlara yaxınlaşdı:

– Şüşadan gələn var, komandir, – həyəcanla xəbər verdi: – Şuşanın işğalından danışır! – Elə söylədi, elə bil "bu nə cəfəngiyyatdır, sayıqlayır", – demək istəyirdi. Hər üçü bir kəlmə belə söyləmədən Arifin göstərdiyi istiqamətdə Rövşənin ardınca yüyürdülər.

**"Şuşa gözümün qabağında oda qalandı"**

Yeməkxananın qarşısında ucaboy, arıq bir əsgər ətrafdakıların suallarına nəfəs dərmədən, tələsə-tələsə cavab verirdi. Onun üst-başı toz-torpaqdan, palçıqdan o qədər çirklənmişdi ki, əynindəki əsgər formasının rəngi bilinmirdi. Sifəti meyit rəngindən seçilməyən əsgər ağlayaraq Şuşanı qoruya bilmədiklərini, şəhərin ermənilərə hədiyyə edildiyini dönə-dönə təkrar edir, kimlərisə xəyanətdə ittiham edirdi. Rövşən əsgərləri kənar eləyib, oğlana yaxınlaşdı: – Şuşadan sən gəlmisən, əsgər? Şuşanı siz müdafiə edirdiniz? – deyə elə sərt və həyəcanla soruşdu ki, sanki şəhərin düşmənə təslim olunmasında günahkar bu əsgəriydi. – Biz Şuşanı müdafiə edə bilmədik, bilmədik, bacamadıq, anladınızmı?!! – həyəcanını boğa bilməyən əsgər qarşısındakının kimliyinə varmadan bağırdı. O sanki bununla da şəhərin verilməsində əsas günahkarın məhz özü olduğunu etiraf edirdi. Sifətini

tutub, yerə çökdü. Əsgər yorulmuş, əldən düşmüş, bayaqdan ətrafına toplaşanların saysız-hesabsız suallarına cavab verməkdən təngə gəlmişdi. Açıq-aydın görünürdü ki, əsəbləri yerində deyil, – susmaq bilmir, dayanmadan danışırdı. Rovşən əsgərin yanında yerə çöküb, onun sakitləşməsini, özünü ələ almasını gözlədi. Amma özünün də artıq səbri tükənmişdi, əsgərin dediklərinin təxribat ola biləcəyini düşünürdü:

– Sənədlərini, əsgər, – dedi. Əsgər dinməz-söyləməz döş cibindən sənədlərini çıxarıb, taqım komandirinə uzatdı. – Şükürov Təbriz Əflan oğlu. Azərbaycan Dövlət Politexnik Universitetinin Radiotexnika fakültəsinin tələbəsi. Orduya Yasamal rayonundan, Milli Müdafiə Şurası tərəfindən çağırılıb. Tələbə taqımında xidmət edir. – Rövşən ucadan oxudu ki, hamı eşitsin. – Demək, sən də bizim kimi tələbəsən? – Özü-özüylə danışirmış kimi astadan pıçıldadı.

Təbrizin qəlbindəki təlatüm hamıya sirayət etmışdi. Artıq inanmışdılar! İnanmaq istəməyənlərin ümidləri puça cıxmış, bəd xəbəri özünə yaxın buraxmaq istəməyənlər təslim olmuşdu. İnanılmaz xəbərin ağırlığından hamı yerə çökmüş, hamı gözünü Şuşanın mühasirəsindən canını qurtarsa da, şəhəri xilas edə bilməyən gəncin ağzına dikmişdi.

– Danış, əsgər, danış, bizə Şuşadan danış! – uzun, üzücü sükutu xırıltılı səsiylə pozan taqım komandiri oldu. – Bizim bəxtsiz, acı taleli, tarix boyu düşmənlərin gözünə dağ olan əsir şəhərimizdən danış!

– Ətrafımızı satqınlar sarıb, qardaş, xəbərimiz yox! – Təbriz sanki utandığından başını qaldırmadan pıçıltıyla dilləndi. Onun danışmaqdan səsi artıq tutul-

muşdu, boğazı xırıldayırdı: – Biz Şuşanın müdafiəsinə gəldik! Biz torpaqlarımızı düşməndən qorumaqdan ötrü təhsilimizi yarımçıq qoyduq! Biz vətənimizi xilas etmək üçün həyatımızı təhlükəyə atdıq! Biz hər şeyə hazır idik! Biz hər şeyi nəzərə alaraq döyüşə atıldıq! Biz ölümdən qorxmadıq! Şəhadəti şərafət bildik!.. – Gördüklərinin təsirindən hələ də qurtulmayan Təbriz özünü toparlaya bilmirdi. O bilmirdi ki, haradan başlayıb, harada bitirsin. Hər verilən sualdan sonra lap əvvəldən başlayır, amma fikrini tamamlamayıb, yenidən sözünün əvvəlinə qayıdırdı.

– Axı, Şuşanın müdafiəsinin yüksək səviyyədə təşkil olunmasından danışırdılar! Axı, Şuşanın alınmaz qala olduğundan bəhs edirdilər! – Arifin səbri tükəndi: – Axı, nə hadisələr baş verirdi orada?!

– Biz Şuşaya gəldiyimiz elə ilk gün satqınlığın, sərəfsizliyin şahidi olduq. Şuşada, Qarabağda kifayət qədər döyüşkən, "uf" demədən canını vətən yolunda, torpaq yolunda qurban verməyə hazır olan cavanlar var. Onların bəziləri bizim Şuşaya gəldiyimiz elə ilk gün Şuşada – Mədəni Maarif Texnikumunun yataqxanasında qurban getdi. Dalınca da Zarıslıda, Nəbilərdə, Şişqayada, Canhəsəndə, Kosalarda, Şuşanın özündə, Qaraqayada xəyanətə qurban gedənlər oldu.

– Bəs, deyirlər Rəhim Qazıyev deyirmiş ki, erməni Şuşaya girə bilməz?! Deyirmiş ki, Şuşa alınmaz qaladır! "Şuşa alınarsa, özüm öz başıma güllə çaxacam" deyə zəmanət verirmiş?! – təbiətən qaraqabaq olan, Əfqanstanda işğalçı sovet ordusunun tərkibində döyüşən

Ümidvar ümidsizcəsinə dilləndi.

– Kimin yanında, kimə verib bu zəmanəti?, – Təbriz üzünü Ümidvara çevirdi, onun saqqal basmış sifətinə, zəhmli baxışlarına ani nəzər yetirdi. Elə bil bu bədheybət tələbə döyüşçünün simasında sualına cavab axtardı, tapmayınca davam etdi: – Mən şəxsən eşitməmişəm. Onun fevralın üçündə Şuşada Mədəni Maarif Texnikumundakı atışmada özü-özünü yaraladığını söyləyirdilər. Atışma zamanı mən də yataqxanada Rəhim Qazıyevlə bir yerdə olmuşam, onu yaralı halda yataqxanadan özüm çıxarmışam, amma özü-özünü yaraladığını görməmişəm. Deyəmmərəm ki, o, ləyaqətli, vətənə, xalqa sədaqətli adamdır. Bütün faktlar bir müdafiə naziri kimi onun da, torpaqlarımızın müdafiəsinə məsul olan yerdə qalan şəxslərin də, ölkə rəhbərliyinin də əleyhinədir. – Təbriz dərindən köks ötürdü: – Əsas günahkar başları kreslo davasına qarışdığından Qarabağı da, milləti də unudan, hər şeyi öz şəxsi ambisiyalarına qurban verən başçılardır.

– Siz “Biz Şuşaya gəldiyimiz elə ilk gün satqınlığın, sərəfsizliyin şahidi olduq” – dediniz. Hansı satqınlığın, hansı sərəfsizliyin şahidi olmusuz, deyə bilərsizmi? – əsəbləri tarıma çəkilmiş taqım komandiri konkret faktların üstünə gəlmək istədi: – Axı, kimlər başımıza gələn bu faciələrdə maraqlıdır?! Kimlərdir vətən xainləri, torpaqlarımızı satanlar, bizə arxadan zərbə vuranlar?!

Təbriz başını qaldırıb, diqqətlə komandirin gözlərinin içinə baxdı. Və susdu,.. gözləri dolmuşdu. Başını yelləyib, danışmaq istəsə də, qəhər boğazını tutdu, öskürüb boğazını arıtladı:

– Biz, komandir, elə biz özümüz!!! – söz ağzından az

qala boğazını cıraraq, xırıltıyla çıxdı: – Fevralın üçündə biz artıq Şuşadaydıq, – səsinin tonunu dəyişərək astadan davam etdi: – Bizi Mədəni Maarif Texnikumunun idman zalında yerləşdirmişdilər. Hamımız yorulub əldən düşmüşdük, amma xidmət yorğunluğa baxmır. Mən növbədəydim. Gecə saat 12-də növbəmi bitirib, idman zalına qayıtdım – biz orada gecələyirdik. Elə yorulmuşdum ki, yerimə girən kimi yuxu məni apardı. Nə qədər yatdığımı bilmirəm, bir də onda ayıldım ki, atışma gedir. Əvvəlcə elə bildik ki, ermənilər hücum eləyib. Atışma birbaşa idman zalının içində gedir, divarlar az qala uçub üstümüzə tökülürdü. Divarlardan qopan toz-torpaqdan, avtomatların tüstüsündən zal dumana bürünmüşdü. Göz-gözü görmür, nə baş verdiyini anlamırdıq. Güllələr qulağımızın dibindən uçur, gözümüzü açmağa qoymurdu.

Mən çarpayıda, üst qatda yatmışdım. Rasim adlı döyüş yoldaşım, – "Ermənilər şəhərə giriblər, bayırdan bizi qırırlar" – deyə dartıb, məni aşağı saldı. Alaqaranlıq zal güllə tüstüsündən boz-bulanıq, anlaşılmaz bir rəng alsa da, giriş tərəfdə çoxlu əsgərin qan içində çabaladığını görürdük. Barıt qoxusundan, güllə tüstüsündən gözümüz acışır, ağzımız zəhər dadırdı. Güllə dolu kimi hara gəldi yağırdı. Əl havasına cavab atəşı açmağa başladıq. Bu vaxt bölük komandirimiz Mail Kazımov, – "hara gəldi atmayın, içəridəki işıqları vurun, bizi kazarmanın içindən vururlar! – deyə əmr etdi. Uşaqlar vurub lampaları söndürdülər. İşıqlar sönən kimi atəşin haradan gəldiyi göründü, – biz zalın girişindən atəşə tutulmuşduq. Mail Kazımov nişan alıb, atəş açdı. Güllə zalın girişində durub, əvvəlcə qabaqdakı əsgərləri güllələbaran edən, sonra

isə bizi – arxadakıları nişan alan adama dəydi. O yıxılıb, bağıra-bağıra idman zalının o biri başına sarı sürünməyə başladı. Amma bir az sürünəndən sonra çevrilib, əlini havaya qaldırdı. Əlində qumbara tutmuşdu. Bunu görən uşaqlarımızdan biri onu vurdu.

– Kim idi o adam?

– Erməni diversantı idi?

– Kazarmaya neçə girə bilmişdi? – suallar dalbadal səsləndi.

–Yox, sapı özümüzdən olan baltalardanıydı. – Təbriz konkretləşdirdi: – azərbaycanlıydı!

– Kim idi, axı, o? Niyə özümüzünküləri qırırdı? – Rovşən dəqiqləşdirmək istədi.

– Emin adlı bir nəfəriydi. Gəncədən gəlmişdi. Onlar dörd nəfər olmuşdu. Biri bizimkilərlə bir yerdə Eminin özünün atdığı gülllədən öldü. Qalan ikisinin silahlarını alıb, özlərini sorğu-suala çəkdilər. Amma bir şey öyrənə, heç nə sübut edə bilmədilər. Sonradan onları Bakıya apardılar. Işin gerisindən heç bir xəbərimiz olmadı.

– İstintaq aparıldımı, bu adamın nə üçün sizi atəşə tutduğunu öyrənə bildinizmi? – Məcid söhbətə qoşuldu.
– Hayıf ki, heç nə öyrənə bilmədik, – Təbriz təəssüfləndı, – məlum olan ancaq göz qabağında olanlarıydı. Sonradan məlum oldu ki, bizi güllləbaran eləyən Emin axşam bayıra çıxmaq istəyib. Qarovul rəisimiz olan Politexnikin tələbəsi Bəhmən onu saxlayıb. Emin qəfil yumruqla Bəhməni yerə yıxıb, silahını qamarlayıb. Birinci gülləni də qamarladığı silahla Bəhmənin özünə vurub. Onu öldürəndən sonra zalda yatan əsgərlərimizi necə gəldi

gülləbaran eləyib.

– Gərək siz onu öldürməyəydiniz. Diri götürüb, tapşırığı kimdən aldığını dəqiqləşdirə bilərdiniz, – Rövşən başını yellədi: – Nə qədər ki, aramızda xainlər, satqınlar var, həmişə belə də olacaq!

– Əvvəlcə biz də sizin kimi düşünürdük, komandir, – Təbriz razılaşmadı: – Hətta onun orda öldürülməsinə etirazımızı da bildirdik. Eminin qumbara partlatmağa çalışdığını biləndə, başa düşdük ki, əsgərin onu öldürməkdən başqa yolu qalmayıb. O öldürülməsəydi, bizdən ölən daha çox olacaqdı. Sonradan bildik ki, içəridə atışma gedəndə çöldə, hasarın dalında Emini bir "Jiquli" gözləyirmiş. Maşındakılar görüb ki, Emin gəlmir, başa düşüblər ki, öldürülüb, aradan çıxıblar.

– "Jiquli"nin nömrəsini öyrənə bildiniz?

– Təəssüf ki, yox...

– Neçə nəfər öldürə bilmişdi o satqın?

– Səkkiz nəfər şəhid oldu, üçü yaralandı. Onlardan birinin – tabor komandirimiz Hüseynin ayağını kəsdilər. Bundan başqa iki nəfər də şikəst oldu.

– Amma yenə də cinayətin üstünü aça bilmədilər? – Xudaverən təəccübləndi: – Deməli, satqın sirri özüylə yerin altına apardı?!

– Axı, bu boyda hadisənin üstünü necə ört-basdır edə bilərlər? – İsgəndər döyüş yoldaşına dəstək verdi.

– Bəlkə də, gələcəkdə bütün bu sirrlərin üstü açılacaq – Təbriz təəssüfləndi: – Açılacaq, mütləq açılacaq! – özü öz dediyini təsdiqlədi: – Əminəm ki, açılacaq! Amma hələlik heç nə bizə məlum deyil.

– Bütün bunların Rəhim Qazıyevlə əlaqəsi ola bi-

lərdimi? – taqım komandiri şübhələrini bildirdi: – Axı, deyirsən ki, Rəhim Qazıyev də sizinlə həmin kazarmada olub?

– Rəhim Qazıyevin o kazarmada olması düzdür. – Təbrizin gözləri sanki yol çəkdi. Ani sükutdan sonra aydınlaşdırmağa çalışdı: – Amma Rəhim Qazıyevin bu işdə barmağı olduğuna inanmıram. O, ayağından güllə yarası almışdı. İkinci güllə başını sıyırıb getmışdi. O da digər əsgərlər kimi ünvansız bir güllənin qurbanı ola bilərdi.

– Amma deyirlər ki, guya o, özü-özünü güllələyib... – replika arxa sıradan gəldi.

– Nə məqsədlə? – Təbriz gözləriylə arxada dayanmış, replika atan əsgəri axtardı. Nəzərləri Cəmilin üstündə dayandı.

– Düzdür, onun ayağına yaxından güllə dəydiyi barədə söz-söhbət gedirdi. Hətta deyirdilər ki, guya o özü tapançayla öz ayağından vurub. Amma bu faktın bir məntiqi olmalıdır. Həm də ekspertiza bunu çox asanlıqla təyin edə bilərdi. Bilirsiz, – Təbriz bəzi sualların ünvansız olduğunu xatırlatmağa çalışdı, – biz əsgərik, əmrə tabeyik, vəzifəmiz torpaqlarımızı müdafiə etməkdir. Bizim bilmədiyimiz çox şeylər var. Düzdür, həmin hadisə bizə çox pis təsir elədi, yoldaşlarımızın çoxu ruhdan düşdü, silahı atıb, evə qayıtdı. Axırda da Şuşamızı, qeyrət qalamızı itirdik, – Təbriz dərindən köks ötürdü, – amma bu belə davam edə bilməz...

– Bəs, nəyə əsasən deyirsən ki, Şuşa satılıb? – taqım komandiri, nəhayət ki, bayaqdan hamını maraqlandıran suala qayıtdı, – Şuşa, Azərbaycanın mədəniyyət mərkəzi,

qeyrət qalası, axı necə satıla bilərdi?

– Müdafiənin təşkil olunmaması, döyüşün plansız aparılması, rəhbərliyin olmaması Şuşanın düşmənə təslimində xəyanət olmasından xəbər verir.

– İnana bilmirəm, inana bilmirəm, bu təxribatdır, bu avantüradır, bu əsassız iddiadır! Şuşanın təslim olması qeyri-mümkündür! – Kosalar kəndində doğulub boya-başa çatan, Şuşanı da, şuşaətrafı kəndləri də beş barmağı kimi tanıyan Fərhad hələ də Təbrizin dediklərinin cəfəngiyyat olduğunu düşünür, nə öz bacısı, nə də Rövşənin bacısının verdiyi məlumatlara inanırdı: – Bu, təxribatdır, inanın mənə, Şuşanın verilməsinə dair yalandan istifadə edib, hakimiyyətə gəlmək istəyən siyasətçilərin uydurmasıdır!

– Çox təəssüf ki, təxribat deyil! – Təbriz dirsəklərini dizlərinə söykəyib, başını əlləri arasına aldı: – Çox... çox-çox təəssüf! – başını aramsız yelləməyə başladı. Sanki Şuşada baş verənlər kino lenti kimi gözləri önündə yenidən canlandı: – Çox təəssüf ki, iki gün qabaq Şuşa gözümün qabağında oda qalandı! – gözünü yumdu. Sanki o dəhşətli anları təkrar görməkdən qorxurdu! Sanki Şuşanı yaxan od-alovun sifətini qarsalayacağından çəkinirdi! Sanki dayanmadan üstlərinə yağan top mərmiləri, pulemyot, avtomat güllələrindən gizlənirdi!

Araya sükut çökdü... Heç biri bir kəlmə belə deməyə cəsarət tapmadı. Döyüşçülərin nitqi elə qurumuşdu ki, elə bil, hamını ildırım vurmuşdu. Bu üzücü sükutu yenə də öz üzüntülü səsiylə Şuşanin əsir düşməsinin şahidi pozdu: – Ayın yeddisində axşam saat təxminən onda Şuşa Xankəndidə yerləşən 366-cı motoatıcı polk tərəfindən,

Mxtarkənd, Kərkicahan və Daşaltı tərəfdən topa tutuldu. Biz susurduq, cavab vermək gücündə deyildik. Müdafiə təşkil olunmamışdı, düşmənə cavab atəşi açmaq üçün tələb olunan silah-sursatımız yoxuydu. Səhərə yaxın, təxminən saat dörddə top atəşini davam etdirə-etdirə Kərkicahan, Xankəndi, Mxtarkənd, Daşaltı tərəfdən ermənilərin texnikası, əsgərləri hərəkət etməyə başladı. Briqadaya məlumat daxil olmuşdu ki, Kosalara güclü hücüm var. Məlumatı alan kimi briqada komandiri Elbrus Orucov guya müdafiəni təşkil etmək məqsədilə 8 minamyotçunu götürüb, Kosalara yollandı?

– Anlamadım, – Fərhad Təbrizin sözünü yarımçıq kəsdi: – necə yəni Kosalara yollandı? Şuşa özü təhlükə altındaydısa, briqada komandiri Kosalara niyə yollanırdı ki?

– Bu suala mən cavab verə bilməyəcəm. Amma Kosalara həqiqətən də güclü hücum oldu. Allahtərəfi, Elbrus Orucov bu hücumun qabağını ala bildi. Amma... – Təbriz sözünə ara verdi – amma bu, Molla Nəsrəddinin yorğan məsələsinə oxşadı. – Təbriz ani sükutdan sonra fikrinə aydınlıq gətirməyə çalışdı: – Ermənilər tərəfindən hücum planlı şəkildə, dəqiq hazırlanmışdı. Onlar Kosalara hücum etməklə diqqətimizi Şuşadan yayındırmaq, Şuşa ətrafındakı qüvvələrimizi parçalamaq, Şuşanin müdafiəsini zəiflətmək istəyirdilər.

– Niyyətlərinə çatdılar da! – danışdıqca az qala Təbrizin ağzına girən Fərhad yenə də hövsələsizlik göstərdi: – Bəs, Müdafiə Nazirliyinin yüksək rütbəli zabiti, Şuşanın hərbi komendantı Elbrus Orucov niyə bunu anlamadı? Yoxsa, anlamaq istəmədi?

– Səhər təxminən saat doqquzda Elbrus Orucov

şəhərə qayıtdı. – Təbriz Fərhadın sualına dolayısıyla cavab verməyə çalışdı: – Amma artıq geciydi. Ermənilər Şuşadakı qüvvələrimizin Kosalara yönəldiyini görüb, hücuma keçmiş, mövqelərimizə yaxınlaşa bilmişdilər. Mövqelərimiz bir-birindən çox uzaqda yerləşirdilər. Onların arasında heç bir əlaqə yoxuydu, hərə ancaq özünü qoruya bilirdi. Düşmənlə üz-üzə dayana biləcək cəbhə xətti yaradılmamışdı. Rabitə kabellə çəkilmişdi, köhnə telefonlardan istifadə olunurdu. Onlar hələ hücum başlayanda sıradan çıxmışdı. Rabitə olmadığından hücumu görür, hadisələri müşahidə edir, amma bir-birimizlə əlaqə saxlaya bilmirdik. Komandanlıq heç kimə heç bir tapşırıq verə bilmirdi. Çaşqınlığıydı. Ermənilər aşağıdakı mövqelərimizi çox tez götürdülər. On ikinci mövqeyə yaxınlaşanda bizə yuxarıdan, yaxın məsafədən atəş açıldı. Özümüzünkülərin bizi düşmən hesab etdiyini düşünüb – qorxmayın, bizik gələn! – deyə qışqırdıq. Amma onlar bizə ermənicə, rusca söyüşlə cavab verdilər. Düşmənlər əsgərlərimizi üzük kimi mühasirəyə alıb, öldürmüş, mövqeni götürmüşdülər. Onlar səkkiz pedeemlə Nəbilər kəndinə girdilər. Maşınları qabaqcadan gətirib, Daşaltıda saxlayıblarmış. Nəbilərdə Lənkərandan olan Seyid ləqəbli bir döyüşçü vardı. O, hücuma keçən düşmən piyadalarına qarşı əllərində olan yeganə mərmidən istifadə etmişdi. Amma mərmi piyadalara qarşı deyil, zirehli texnikaya qarşı olduğundan istənilən nəticəni verməmişdi. Nəbilər, Şişqaya və on ikinci postda qırx-əlli döyüşçümüz vardı. Onlardan cəmi dörd, ya da beş nəfər oradan salamat çıxa bildi. Yaralansa da, lənkəranlı Seyid də sağ çıxanlar arasındaydı. Şəxsən mənim özümün mövqe tutduğum post

əlverişli yerdə yerləşirdi. Ermənilər bizdən aşağıdaydı, irəliləməyə nə qədər cəhd etsələr də, mövqeyimizi əldə saxlaya bilirdik. Amma təxminən saat onda oranı tərk etmək məcburiyyətində qaldıq. – Təbrizi öskürək tutdu. Dayanmadan, ara vermədən danışdığından boğazının xırıltısı aydınca eşidilir, amma susmaq da bilmirdi: – Günorta saatlarında dörd erməni beempesi Şuşa-Laçın yolunu tutdu. Bununla da Şuşaya açılan yeganə qapı düşmən tərəfindən bağlandı. Biz o beempeləri vurmaq üçün qüvvə göndərdik. Ermənilərin texnikası canlı qüvvə olmadan gəldikləri üçün bizimkiləri görən kimi yolu açmaq məcburiyyətində qalmışdı. Buna baxmayaraq, Laçın tərəfdən bizə köməyə gələn qüvvələr yenə də Şuşaya yaxınlaşa bilmədi. Ermənilər xeyli sayda tank, beempe, topla Şuşa-Laçın yolunu nəzarətdə saxlayırdılar. Onlar Şuşaya Laçından gələ biləcək köməyin qabağını almaq üçün dayanmadan Şuşa-Laçın yolunu atəşə tuturdular.

Təbriz sanki danışmaq məcburiyyətindəydi. Sanki danışmasa, ürəyi dayanacaqdı. Buna görə dayanmadan danışır, bütün şahidi olduqlarını açıb tökməyə tələsirdi:– Zapravka... – susub yadına salmağa çalışdı,– sonra onlar Aşağı Zapravka deyilən yerdə qırx səkkiz azərbaycanlını mühasirəyə alıb öldürmüş, mövqeni götürmüşdülər. Səhər saat doqquzda Elbrus Orucov Şuşaya qayıdanda şəhər artıq hər tərəfdən zirehli texnikayla, canlı qüvvəylə mühasirəyə alınmışdı. Erməni silahlı alpinist dəstələri Daşaltı tərəfdən Şuşaya daxil olmağa hazırlaşırdılar. Təxminən saat on birdə düşmənin bir tankı və dörd beempesi Tar sexinə yaxınlaşdı. 777-ci hərbi hissənin tan-

kisti Albert Aqarunov* tankı vurdu. Amma... – Təbriz təəssüflə başını yellədi, – amma sonra o, tankla şəhid əsgərlərin üstündən keçib getməsin deyə kabinədən çıxdı, şəhidlərimizi yoldan kənara çəkdi. Bu vaxt yaralı bir əsgərimizi görüb, yardım etmək üçün ona tərəf yüyürdü. Amma özünü yaralıya çatdıra bilmədi... – Başını qaldırıb, nəfəs belə almadan diqqətlə onu dinləyən tələbə döyüşçülərin sifətlərinə nəzər yetirdi: – Düşmən snayperi onu elə yaralı əsgərimizə çataçatdaca ürəyindən vurdu. – Susdu, dərindən nəfəs aldı. Danışmaq istəyir, qəhər onu boğurdu. Bayaqdan sual verməkdən özünü güclə saxlayan, susub səbrlə onu dinləyən Rövşən fürsətdən istifadə etdi:

– Bəs bir yardım edən olmadı, Müdafiə Nazirliyi dəstək göndərmədi?!

– Müdafiə Nazirliyi yardım edəcəyinə söz vermişdi. Səhər tezdən Rəhim Qazıyev zəng edib demişdi ki, möhkəm durun, qüvvələrimiz Laçına yaxınlaşır, günortaya qədər gəlib Şuşaya çıxacaq. Günorta dedilər ki, axşama gələcək. Hətta günorta Elbrus Orucov da dedi ki, möhkəm dayanın, qüvvələrimiz gəlir, tanklarımız artıq Laçındadır! Amma heç bir yardım gəlmədi. Kosalar ətrafında döyüşlərdə əmr gəldi ki, bir az aşağı çəkilin, Daşaltıda yerləşən düşmən qüvvələrinə qarşı aviasiyamız manevr edəcək. Təxminən saat dörd-beş olardı, bir Azərbaycan hərbi qırıcı təyyarəsi manevr etdi, amma öz mövqelərimizi atəşə tutdu. Həmin təyyarədən, – sus-

* Azərbaycan Respublikası prezidentinin 7 iyun 1992-ci il tarixli 833 saylı fərmanı ilə Aqarunov Albert Aqarunoviç ölümündən sonra «Azərbaycan Milli Qəhrəmanı» adına layiq görülmüşdür. Milliyətcə yəhudidir.

du və vurğuyla əlavə elədi, – öz təyyarəmizdən, öz silahımızdan açılan atəşdən dörd nəfər əsgərimiz şəhid oldu. Axşam saat yeddiyə, səkkizə qədər Şuşa ətrafında güclü döyüşlər getsə də, Müdafiə Nazirliyindən heç bir kömək göstərilmədi. Axşamçağı xəbər aldıq ki, artıq şəhərin bir hissəsi tutulub. Şuşanı müdafiə edən bəzi qüvvəllərimiz oranı tərk etmiş, Elcin Məmmədovun rəhbərlik etdiyi 777-ci hərbi hissə şəhərdən çıxarılmışdı. Əsgərlərimiz Şuşadan çıxanda texnikanı da özləriylə götürmüşdü, qalan ancaq piyadalarıydı. Onların da çoxu işğal ərəfəsində Şuşa həbsxanasından buraxılan dustaqlarıydı. Dustaqlar son nəfəslərinəcən mərdliklə döyüşdülər, çoxlu şəhid verdilər. Amma nə fayda? Şəhərə müxtəlif istiqamətlərdən soxulan düşmən artıq pərən-pərən düşmüş hərbi qüvvələrimizi ayrı-ayrılıqda məhv etmək planını həyata keçirə bildi.

Hava qaralanda əmr gəldi ki, enin aşağı, Şuşanı tərk edirik. Zarıslıya gəldik. Arif Paşayevin rəhbərlik etdiyi Laçın alayı ordaydı. Amma bizə dedilər ki, artıq qüvvəyə ehtiyacımız yoxdur, Laçına gedin, – susub, sözünə ara verdi, boğazını arıtlayıb sual veriləcəyini gözlədi. Amma tələbə döyüşçülərin sanki boğazları qurumuş, dilləri kilidlənmişd. Təbriz dərindən köks ötürüb, tələbələrin lal baxışlarından oxuduğu sualları cavablandırmağa çalışdı: – Biz Şuşadan çıxandan sonra şəhər ermənilərin nəzarətinə keçmiş, əhali başıpozuq halda, dağ yollarıyla ordan çıxmağa başlamışdı. Elbrus Orucovla Elçin Məmmədov da əhaliyə qoşulub, Şuşanı tərk etmişdilər.

Mayın səkkizində, axşam üstü Şuşada atəşfəşanlıq başladı. Ermənilər həm qələbələrini qeyd edir, həm də

fişəng atmaqla şuşaətrafı ərazilərdə yerləşən erməni hərbi birləşmələrinə vəziyyət haqqında işarə verirdilər. – Təbriz susdu. Ətrafına toplaşan tələbə döyüşçülərin sifətlərinə bir-bir nəzər yetirdi.

Fərhad sükutdan sıxıldı:

– Sənin sözündən belə çıxır ki, Azərbaycan tərəfdən Şuşanın müdafiəsi üçün heç bir addım atılmayıb. Müdafiə çox primitiv təşkil olunub, ya da heç təşkil olunmayıb. Bunu anladıq, – Şuşanı beş barmağı kimi tanıyan tələbə döyüşçü təəccübünü bildirdi: – Axı, necə oldu ki, düşmən Şuşa kimi alınmaz qalanı çox asanlıqla ala bildi? Minalanmış əraziləri keçə bildi? Sizcə, burada bir müəmma yoxdur?

– Ayın altısında İstehkamçı bölüyünun komandiri Qurban aşağı enmişdi. Ona tapşırıq verilmişdi ki, yollardakı minaları təmizlətsin. Belə bir fikir varıydı ki, bizimkiilər Daşaltiya girəcək.

– Daşaltıya, həqiqətən də, hücum oldu?

– Yox, olmadı.

– Qurbana kim vermişdi bu tapşırığı?

– Yəqin ki, Elbrus Orucov. Briqada komandiri o idi.

– Bəs, deyirlər ki, guya ATƏT gəlməliymiş? – Rövşən məlumat verdi: – Əgər ATƏT gəlirdisə, səncə, Daşaltıya hücum ola bilərdi?

– Sözün düzü, nə Daşaltıya hücum oldu, nə də ATƏT gəldi – Təbriz susub fikrə getdi, öz-özünə bir xeyli nəyisə götür-qoy eləyəndən sonra əlavə etdi: – Amma orada söhbət gəzirdi ki, Elbrus Orucova ATƏT-in gələcəyi barədə məlumatı Rəhim Qazıyev verib. Deyilənə görə, yollardakı minaları da buna görə təmizləmək istəyirlərmiş.

Amma Şuşanı itirəndən, Zarıslıya qayıdandan sonra Qurban orada müəmmalı şəkildə öldürüldü.

– Müəmma, müəmma, hər yerdə, hər addımda müəmma!? Nə qədər müəmmalı şəkildə satıblar, nə qədər müəmma yaradıblar ki, heç kimin bu müəmmalardan başı çıxmasın, heç kim heç kimi ittiham edə bilməsin! – Fərhad səsini qaldırdı: – Satmaqda, satdıqlarını ört-basdır eləməkdə nə qədər də mahir, nə qədər də fərasətlidirlər bunlar!

– Gəlin hər şeydə bir müəmma, bir satqınlıq axtarmayaq, – Xudaverən təmkinini pozmadan söhbətə qoşuldu: – Kənardan danışmaq çox asandır. Hər şey bizim bildiyimiz qədər asan olmayıb. Bəlkə, həqiqətən də əllərindən gələni eləyiblər, amma bacarmayıblar, imkanları buna çatıb. Axı, düşmən də güclüydü, tək deyildi, rusların köməkliyi ilə hücuma keçmişdi. Rusun Xankəndidə yerləşən polku Şuşanı güclü atəşə tutub. Ruslarla ermənilər güclü artilleriya hazırlığından sonra hücuma keçib. Burada qələbəni qazanan ermənilər yox, ruslardır. Bu çox aydın, çox sadə bir məsələdir. Bizdə Müdafiə Nazirliyi hələ indi-indi yaradılır, demək olar ki, yoxdur. Hələ indi, o da çox primitiv şəkildə ordu qururuq. Amma rusun nizami, güclü, müasir ordusu var. Baxın, biz belə bir düşmənlə üz-üzəyik. Əgər erməni tək olsaydı, onda heç bizə burada ehtiyac da qalmaz, yerli camaat özü onların öhdəsindən çox asanlıqla gələ bilərdi.

– Razı deyiləm – Fərhad etiraz etdi – sadəcə istəməyiblər. Burada yüz faiz satqınlıq var. Şuşanın mövqeyindən, orada olan hərbi qüvvədən, texnikadan düzgün

istifadə olunsaydı, şəhəri qorumaq olardı. Mən buna əminəm. Bura gəlməmişdən qabaq evimizə – Kosalara, sonra da Şuşaya getmişdim. Orada çoxlu sayda zirehli texnika, çoxlu əsgər gördüm. – Fərhad şəhadət verdi: – Canlı qüvvə şəhərdən planlı şəkildə çıxarılıb.

– Razıyam – Təbriz Fərhadın fikrini təsdiq etdi – çünki ayın yeddisinə qədər Şuşada minəcən əsgər varıydı. Ayın yeddisində gecə Şüşa ətrafında düşmənin canlı qüvvəsinin, texnikansının toplanması haqda Elbrus Orucovda kəşfiyyat məlumatı olub. Kosalar Şuşadan başqa istiqamətdə yerləşirdi. Əgər hücum Kosalara nəzərdə tutulsaydı, düşmən canlı qüvvəni, texnikanı Şuşa-Xankəndi yoluna yığmazdı. Hətta ayın dördündə Allahverdi Bağırov ermənilərin Şuşaya hücuma hazırlaşmaları haqda məlumat vermişdi. Elbrus Orucov bir tərəfdən bu məlumatı Müdafiə Nazirliyinə ötürmüş, qabaqlayıcı hücum üçün Rəhim Qazıyevdən icazə istəmiş, o biri yandan da texnikanı Xankəndi istiqamətindəki mövqelərdən çıxartdırmışdı. Zabitlərinə demişdi ki, texnikanın ərazidən çıxarılması ATƏT-in nümayəndə heyətinin Şuşaya səfəriylə əlaqədar Rəhim Qazıyevin əmridir. Amma oradakı zabitlər Rəhim Qazıyevin Elbrus Orucova belə əmr vermədiyini, yalnız texnikanın gizlədilməsi, maskirovkası üçün tapşırıq verdiyini deyirdilər. Kimin doğru, kimin yalan olduğunu, təəssüf ki, bilmirik. – Təbriz aciz halda əllərini yanlara açdı.

– Elbrus Orucov doğrudanmı Rəhim Qazıyevə zəng edərək qabaqlayıcı hücum üçün icazə istəyib? – Rövşən qaranlıq məqamlara aydınlıq gətirilməsini istədi.

– Bilirsiz, bu dediklərim yalnız eşitdiklərim, əsgərlər, zabitlər arasında dolaşan söz-söhbətlərdən ibarətdir. – Təbriz qeyri-müəyyən cavab verdi: – Bunları mən eşitmişəm, özüm şahidi olmamışam. Deyilənlərə görə, Elbrus Orucov, həqiqətən də, Rəhim Qazıyevə zəng edib, qabaqlayıcı hücum üçün icazə istəyib. Amma Rəhim Qazıyev Yaqub Məmmədovun Tehranda Rəfsəncaniylə, Ter-Petrosyanla danışıqlar apardığını əsas gətirib, hər hansı hücum əməliyyatı keçirməyə icazə verməyib. Deyib ki, baş qərargah rəisi Şahin Musayev sabah Bakıya qayıdacaq və hücum haqda qərarı onunla bu barədə müzakirədən sonra verə bilər.

– Bütün bunlar Şuşaya hələ hücum olunmamışdan qabaq baş verib. – Fərhad hiddətini gizlətmədi: – Amma hücum qabaqcadan məlum olduğu üzrə baş verdi, özü də planlı şəkildə. Bəs, hücumun artıq real olduğunu görəndən sonra neylədilər bizim başbilənlərimiz?

– Şuşanın müdafiəsi üçün heç bir ümumi komandanlıq yoxuydu! – Təbriz az qala bağırdı, sonra bir anlıq susub, Fərhadın sifətinə diqqət kəslidi. Və yenə eyni ahənglə təkrar etdi: – Heç bir ümumi komandanlıq yox idi! Hamı şəhəri tərk edirdi. – Susub sakitləşməyə çalışdı: – Polkovnik Orucovun dediyinə görə o, Rəhim Qazıyevlə telefon əlaqəsi yaradıb. Rəhim Qazıyev Elbrus Orucovdan şəhəri nə vaxta qədər qoruya biləcəklərini soruşub. Elbrus Orucov isə yalniz gecə saat on birə qədər duruş gətirə biləcəklərini deyib.

– Nəyə əsasən?! O öz döyüşçülərinin gecə saat on birəcən duruş gətirəcəyini hansı yolla, hansı üsulla he-

sablayıb? – Fərhad getdikcə qəzəblənir, Təbrizin bütün dediklərində müəmma axtarırdı.

– Polkovnik Orucovun dediyinə görə, düşmənin axşam saat səkkizdə yenidən güclü hücuma keçəcəyi radio danışığından məlum olub. Yəqin o, ermənilərin axşam saat səkkizdə gözlənilən hücumunun daha güclü olacağını bilirmiş və onun qabağını ala biləcəyinə əmin deyilmiş.

– Yaxşı, belə bir mühüm məlumat əldə edəndən sonra hansı tədbirlər gördü Polkovnik Orucov? – Fərhad yenə susmadı.

– Eşitdiyimə görə, o, əsgərlərə əvvəlcə dincəlməyi, sonra isə postlara çıxmağı tapşırıb.

– Torpaq əldən gedir, namus əldən gedir, qeyrət əldən gedir, – Fərhad coşdu – amma bu, əsgərlərə istirahət verir! – əllərini havada yelləyərək bağırmağa başladı: – Analarımız təhqir olunur, qız-gəlinlərimiz təhqir olunur, erməni atalarımızın, babalarımızın məzarlarını ayaqları altına salıb tapdayır, bu, əsgərlərə istirahət verir! – Fərhad əyilib, gözlərini Təbrizin bəbəklərinə zillədi: – Bunların şərəfi, bunların qeyrəti varmı?! – Fərhadın bağırtısı ətrafdakıların da diqqətini çəkdi: – Nə veclərinədir?! Özlərinin arvad-uşaqları güllə səsi eşitmir, bir şey eləmir, isti yorğan-döşəkdə rahatca istirahət edirlər. – Fərhadın bəbəkləri hədəqəsindən çıxdı: – Bəs, bu yazıqlar, bu binəvalar, bu bədbəxtlər neyləsinlər?! – Qalxıb dəli kimi yerində firlanaraq əlləriylə ətrafı göstərdi: – Şuşada, Qarabağda yaşayan bu carəsizlər kimə güvənsinlər, kimə arxalansınlar?!

– Özünə gəl, Fərhad, bu neyləsin, o da sənin, mənim kimi sıravi bir əsgərdir: – Rövşən onu sakitləşdirməyə

çalışdı: – Bir əsgər kimi o əlindən gələni eləyib, özünü güllə qabağına verib ki, namusumuzu, qeyrətimizi qorusun! – ayağa qalxıb, Fərhadla göz-gözə dayandı.

– Hansı qeyrətdən danışırsan, komandir, hansı namusdan danışırsan, komandir?! – Fərhad da Rövşənin sifətinə dirəndi: – Bir gün qabaq düşmənin içinə tüpürdüyü namusdanmı?! – Fərhadın səsi boğazında boğuldu: – Bir gün qabaq düşmənin ayaqları altında tapdaladığı qeyrətdənmi?! – göz yaşlarını titrək barmaqlarıyla silib, səsinin tonunu azaltdı: – O yoxdur artıq, komandır, biz onu itirdik! Biz onu Xocalıda, Şuşada itirdik!!! – geri dönüb, güclə eşidilən xırıltılı səslə davam etdi: – Fikir verdinizmi namusumuzu qoruya bilməyən əsgərin dediklərinə?! – istehzayla əlini Təbrizə sarı uzatdı: – Fikir verdinizmi canını torpaq yolunda sipər edən cəngavərin dediklərinə?! – nəzərlərini döyüş yoldaşlarının sifətlərində gəzdirdi. Heç kimdən cavab çıxmadığını görüb, dönüb getmək istədi. Bir addım atıb dayandı: – Ermənilərin Şuşaya hücumu haqda məlumat alırlar, şəhərin müdafiəsini öz üzərinə götürən komandir əsgərlərə istirahət verir! – Qayıdıb Rövşənlə üz-üzə dayandı: – Düşmən əsgərləri addımbaaddım şəhərə yaxınlaşır, şəhərin müdafiəsini öz üzərinə götürən komandir şəhərdə qalıb müdafiəni təşkil etməkdənsə, Şuşadan Kosalara yollanır: – Üzünü döyüş yoldaşlarına çevirib davam etdi: – Düşmənin Şuşaya hücumu haqqında saatına, gününə qədər kəşfiyyat məlumatı var, düşmən şəhərə itkisiz, rahat girsin deyə minalanmış ərazilər təmizlənir. – Öz-özüylə danışırmış kimi gəzinməyə başladı: – Düşmənin Şuşa yolunda cəmlənməsi aydınca bilindiyi

halda, Şuşa-Xankəndi yolundakı texnika mövqelərdən çıxardılır. Düşmən bir-bir mövqelərimizi ələ keçirir, hücum həyəcanı elan edilmir! Əsgərlər vahid komandanlıq olmadan, plansız halda, kim harada gəldi, orada döyüşür. Şuşa addım-addım əldən getdiyi halda heç bir dəstək, heç bir yardım göndərilmir! Handan-hana göndərilən təyyarə öz mövqelərimizi atəşə tutur! – Gəlib Rövşənlə üz-üzə dayandı: – Hansından danışım, cənab komandir? – başını yellədi: – Hansını deyim, cənab komandir?! – gözlərini komandirin bəbəklərinin düz içinə zillədi: – Bütün bunların hamısı müəmma deyilmi, qardaşım?! – susub cavab gözlədi. Amma Rövşənin dillənməsinə qədər hövsələsi çatmadı: – Bütün bunların hamısı Şuşanın bilərəkdən, göz görə-görə satıldığından xəbər vermirmi?! – Rövşən dillənmək istəsə də, söz tapa bilmədi. Fərhadın qəzəbli baxışları qarşısında əriyib, başını aşağı endirdi. Fərhad: – Gedirəm,.. gedirəm,... gedirəm, komandir, gedirəm ölməyə! – asta addımlarla onlardan aralanmağa başladı: – Belə şərəfsizliyi qəbul edib yaşamaqdansa, şərəflə ölmək daha yaxşıdır! – dodaqaltı deyinə-deyinə uzaqlaşdı. Rövşən gözünü Fərhadın getdiyi yoldan ayırmadan: – Onu nəzərdən qoyma, Arif! – deyə tapşırıq verdi.

Arif döyüş yoldaşının ardınca yollanandan sonra, Ümidvar üzünü Təbrizə tutdu: – Şuşa yəni bu qədər unudulmağa layiq idi? Bu qədərmi laqeydliyə layiqiydi bizim mədəniyyət mərkəzimiz?!

– Unudulmamışdı Şuşa – Təbrizin yerinə Rövşən cavab verdi: – Fərhad haqlıdır, unudulmamışdı Şuşa! Əksinə, bəzilərinə öz siyasi ambisiyalarını həyata ke-

çirmək üçün bir alət olmuşdu Şuşa. Şuşanın işğalı bəlkə də kimlərinsə marağındaydı, amma biz bilmirik!

– Şuşa satıldı, komandir! – Təbriz ayağa qalxıb, Rövşənin qarşısına keçdi: – Şuşa satqınlığın qurbanı oldu, komandir! Bu gün kimlər tərəfindən satıldığını, kimlərin xəyanət etdiyini deməkdə çətinlik çəkirəm, amma əmin olun, həmin satqınlar, xəyanətkarlar kim olursa-olsun, hansı deşikdə gizlənirsə-gizlənsinlər, tapılacaq! Tapılacaq və layiqli cəzalarını alacaqlar! Bu dünyada gələcək nəsillər, o dünyada isə bu xəyanətin qurbanı olan hər bir insan, hər bir daş, hər bir kəsək yaxalarından yapışıb, onlardan öz haqlarını tələb edəcək!

– Amma bunun nə Şuşaya, nə də Şuşada şəhid olanlara heç bir xeyri olmayacaq. İstəyirsiz satqınları, xainləri tapıb, bircə-bircə güllələyin, artıq çox gecdir! Cox gec! Artıq heç nə yaramıza məlhəm ola bilməz! – Rövşən başını yelləyib, dərindən köks ötürdü: – Bunu, bəlkə, hələ də dərk edə bilmirik, amma yara zaman-zaman sızlayacaq! Bu yaradan qan dayanmadan axacaq! Bu yara bütün türk millətinin alnında silinməyən bir ləkə olacaq! Gec-tez o torpaqlar düşməndən azad olunacaq! Amma bu yara sağalan deyil!..

Sükut çökdü. Heş kim deməyə bir söz tapmadı. Təbriz çevrilib, gözlərini ona dikən tələbə döyüşçülərə baxdı. Başını aşağı salıb, güclə eşidilən səslə dilləndi: – Ayın səkkizində axşam saat səkkizdə Elbrus Orucov gəlib dedi ki, hər yeri yoxlamışam, şəhərdə heç kəs qalmayıb, artıq çıxmalıyıq. “Biz qalırıq, komandir. Biz qalıb, axıra qədər döyüşəcəyik!” – deyə Qurban etriraz etdi. Elbrus Orucov “Siz burada avtomatla heç nə edə bilməyəcəksiz!” – dedi.

“İstəyirsiniz mən də sizinlə qalım, axıra qədər döyüşək, burada bir yerdə ölək. Amma biz burada qalsaq da, qalmasaq da, Şuşa artıq gedib”.

Axşam saat doqquzda şəhərdən çıxdıq. Amma orada o qədər texnika, o qədər canlı qüvvə varıydi ki, qayıdıb Şuşanı müdafiə etmək, saxlamaq olardı. Biz dedik ki, axı, bu qədər qüvvəylə Şuşanı saxlamaq olar. Heç kim sözümüzə məhəl qoymadı. Hələ hücumdan əvvəl də Şuşada kifayət qədər texnika, canlı qüvvə varıydı. Amma nədənsə onlar ermənilərin şəhərə girməsindən qabaq oradan çıxarılmışdı. Mayın yeddisində Şuşaya girən ermənilər küçə döyüşlərindən ehtiyatlanıb, açıq hərəkət etməyə cürət etmirdilər. Nəhayət, ayın doqquzunda gecə saat dörddə şəhərin boş olduğuna əmin olub, qələbələrini bayram etməyə başladılar... Kaş, qalıb axıra qədər vuruşaydıq, kaş, qalıb döyüş meydanında can verəydik, kaş, elə oradaca öləydik,.. kaş şəhid olaydıq!..

***

HAŞİYƏ: Şuşa, doğrudan da, unudulmuşdu. Bakıda Şuşa deyil, prezidentlik kürsüsü uğrunda mübarizə gedirdi. Hər kəs yalnız özünün hakimiyyətə gəlişindən sonra Qarabağ məsələsini həll edəcəyini, Şuşanı, Xocalını, Xankəndini qaytaracağını vəd edirdi. Prezidentlik kürsüsu əldən-ələ keçsə də, az qala gündə bir iddiaçı o kürsüyə çıxsa da, heç kim işğal olunmuş torpaqlarımızı geri qaytarmağa nə fürsət tapdı, nə də cəsarət.

Artıq Şuşada düşmənə müqavimət göstərə biləcək heç bir qüvvə qalmamışdı. Elbrus Orucov da, Elçin Məmmədov da əhaliyə qoşulub, Şuşanı tərk etmişdilər.

Turşsuya yığışan Azərbaycan ordusu Şuşanın geri alınması üçün əməliyyat planı hazırlasa da, bu, baş tutmadı. Çünki silahli qüvvələrimiz Şuşanın işğalından cəmi bir neçə gün sonra prezident kürsüsü uğrunda mübarizəyə qoşulmaq üçün Bakiya yollandı. Ordunun bir hissəsinin başı Bakıda hakimiyyət davasına qarışdığı vaxt qalan hissəsi bir həftə sonra Turşsunu da döyüşsüz tərk etdi. Erməni silahlı birləşmələri oranı da döyüşsüz tutdu...

## Geriyə yol yoxdur

Hacıkəndə dincəlməyə gəlmişdilər. Bir neçə gün istirahət edib, özlərini toparlamalı, yeni döyüşə hazırlaşmalıydılar. Amma daha Hacıkənddə qalmaq, dincəlmək barədə düşünmək belə istəmir, döyüşə can atırdılar. İlk döyüşdən çox şey öyrənmişdilər. Ən başlıcası – öldürməyi və ölməyi! Ölümün sərt üzünə cəsarətlə baxan gənc əsgərin can verəndə belə məgrur baxışları tələbələri döyüşə, vətənin xilası naminə ölməyə çağırırdı. Övladı şəhid ölmuş ananin "Vətən Sağ olsun!!!" – deyə göz yaşlarını tələbə döyüşçülərdən gizləməsi, atanın bir söz demədən dərdini ürəyində çəkməsi gözləri önündən getmirdi. Təbrizin dedikləri, Şuşanın namərdcəsinə təslimi, baş verən hadisələrin dəhşəti siyasi oyunlardan xəbərsiz, qəlbləri yalnız vətən sevgisiylə çırpınan tələbə döyüşçüləri döyüşə səsləyirdi. Onlar döyüş, ancaq döyüş haqda düşünürdülər! Artıq tamamilə müharibə ruhunda köklənmiş tələbə döyüşçülər səbrsizliklə növbəti döyüşün müjdəsini gözləyirdilər. Və bu müjdə onlara elə həmin gün, 1992-ci il mayın 10-da, səhər saat 10

radələrində gəldi – bütün hərbi hissənin həyəcan siqnalıyla ayağa qaldırılması əmri verildi. Tələbə taqımı rus istehsalı olan köhnə bir "Ural" maşınına mindirildi və maşın Hacıkənddən səksən kilometr məsafədə yerləşən Tərtər istiqamətində sürət götürdü. Yol boyu çoxlu sayda hərbi texnika, çiyinlərində ov tüfəngi, beşatılan və digər bu qəbil qədimi silahlar olan adamlar əks istiqamətdə – Bərdəyə dogru hərəkət edirdi. Onlar yerli camaatı Allahın ümidinə qoyub, döyüşdən qaçan əsgərləriydi...

Saat təxminən on ikidə tələbə döyüşçülər Tərtər rayonunun ərazısində təyin olunmuş yerə çatdılar. Onlar hərbi maşından düşəndə 703 saylı hərbi hissənin komandiri polkovnik Nəcməddin Sadıqovun, – "Batalyon, stroitsya!" – deyə bağıraraq əsgərləri sıraya düzdüyünü eşitdilər. Hərbi nizam-intizamin nə olduğunu bilməyən adamlar onun çagırışına qulaq asmırdı. Yalniz on beş-iyirmi nəfərdən ibarət Yerli Özünümüdafiə Batalyonunun əsgərləri əmri dinləyib, sıraya düzüldülər. Tələbə döyüşçülər də komandirləri Rövşənin əmriylə Yerli Özünümüdafiə Batalyonu əsgərlərinin yanında yerlərini tutdular...

Məlum oldu ki, gecə saat üç-dörd radələrində altı batalyondan ibarət Azərbaycan Özünümüdafiə Dəstəsinin əsgərləri Ağdam, Goranboy və digər istiqamətlərdən hücum edərək, Marquşavan deyilən ərazini götürüblər. Amma, nə yazıq ki, Marquşavanı ələ keçirəndən sonra Özünümüdafiə Dəstəsinin əsgərlərinin başı talana qarışıb. Bundan istifadə edən ermənilər əks-hücuma keçib. Belə sürətli əks-hücum gözləməyən Yerli Özünümüdafiə Batalyonunun altmış nəfərdən ibarət əsgəri mühasirəyə

düşüb. Polkovnik Nəcməddin Sadıqov döyüşçülərimizin mühasirədən çıxarılması əməliyyatında kimlərin iştirak etmək istədiyini soruşdu. Tələbə Taqımının komandiri: – Biz! – deyə əzmlə əlini yuxarı qaldırdı.

– Əminsinizmi? – Nəcməddin Sadıqov yaxınlaşıb, Tələbə Taqımının komandiriylə üzbəüz dayandı.

– Elədir ki, var, cənab polkovnik! Biz bu tapşırığı yerinə yetirməyə tam hazırıq! – Rövşən inamla təsdiq etdi.

– Baxın, – Sadıqov əvvəlcə Rövşənın üzünə, sonra isə çiyinlərinə nəzər saldı. Çiynində ulduzlarını görməyincə, ona rütbəsiylə deyil, sadəcə vəzifəsiylə müraciət etdi: – Komandir, bu asan tapşırıq olmayacaq. Bildiyimə görə, sizin döyüş təcrübəniz azdır. Belə bir məsul tapşırığı sizə həvalə etmək məsuliyyətini öz üzərimə götürə bilmərəm.

– Biz bura döyüşməyə, vətəni müdafiə eləməyə gəlmişik, cənab polkovnik! İstənilən tapşırığı yerinə yetirməyə özümüzü tam hazır hesab edirik!

Sadıqov bir söz demədən addım-addım tələbə döyüşçülərin qarşısında gəzinməyə başladı. Üz-üzə dayanıb, bir-bir onların məsum sifətinə, döyüş əzmi, intiqam alovuyla yanan gözlərinə nəzər yetirdi. Onların gözlərində parlayan vətən sevgisini duyunca: – Olsun, – deyə tərəddüdlərinə son verdi. Üzünü tələbə döyüşçülərə tutub, yarı rus, yarı azərbaycanca döyüş tapşırığını incələdi. Tələbə Taqımının qarşısında düşmənə qəfil zərbə vurmaqla mühasirəyə düşmüş Yerli Özünümüdafiə Batalyonunun əsgərlərini mühasirədən çıxarmaq kimi mühüm bir tapşırıq qoyuldu.

Könüllülər başda komandir Rövşən olmaqla Tərtərdən Marquşavan kəndinə qədər altı kilometrdən artıq

məsafəni qaçaraq qısa vaxtda qət etdilər. Kəndin girəcəyində yerləşən qəbristanlığın yaxınlığında dayanıb, ətrafı müşahidə etməyə başladılar. Diqqəti kəndin qırağıyla uzununa qazılmış kanal cəlb edirdi. Kanalın qarşısında ətrafdan təxminən yarım metr hündürlükdə olan asfalt yol uzanırdı. Yol qurtarar-qurtarmaz irəliyə doğru uzunluğu təxminən on-on beş metr olan səngər qazılmışdı. Asfalt yol tələbə döyüşçülər üçün səngər rolu oynaya bilərdi. Komandir ətrafı diqqətlə araşdırdıqdan sonra uzağıgörmə cihazını ğözündən aralayıb, üzünü döyüşçülərinə tərəf çevirdi. Baş barmağını qarşıdakı asfalt yola sarı uzadıb, pıçıltıyla söylədi: – Baxın, biz bu yolun sol tərəfiylə irəliləyəcəyik. Başınızı yuxarı qaldırmadan sürünəcəksiz. Düşmənin harada gizləndiyi barədə hələlik məlumat yoxdur. Yolun qurtaracağında ehtiyatla, tək-tək, cəld sıçrayıb, qarşıdakı səngərə atılacaqsız. – Üzünü Xudaverənə tutdu: – Sən axırda gələcəksən. – Bir daha uzağıgörmə cihazını gözünə yaxınlaşdırıb, ətrafı müşahidə etdi: – Ardimca bir-bir irəli! – deyə əyilə-əyilə asfalt yola tərəf qaçdı. Çatar-çatmaz hər iki yandan yarım metr hündürlükdə çəkilmiş asfalt yolun sol tərəfində özünü yerə atdı. Çiyni üstdən qanrılıb, ardınca gələn yoldaşlarına boylandı. Tələbə döyüşçülər lap arxada Xudaverən olmaqla komandirlərinin ardınca əzmlə irəli sürünürdülər. Hamı özünü qarşıdakı səngərə atdı, sonra komandirin işarəsiylə səngərin dibinə çöküb, əmr gözləməyə başladı. Rövşən ehtiyatla başını qaldırıb, ətrafa boylandı. Sakitlik idi. Hərəkət istiqamətini müəyyənləşdirib – ardımca – deyə səngərin kənd istiqamətindəki qurtaracağından çıx-

dı. Ehtiyatla, ətrafı ciddi şəkildə müşahidə altında saxlamaqla kəndə doğru irəliləməyə başladılar.

Kəndin girəcəyinə çatanda qəfil atəş açıldı. Hamı dərhal yerə uzanıb, özünü gülədən qorumağa çalışdı. Sanki düşmən gizli şəkildə uzaqdan onları güdür, açıqlığa çıxacaqlarnı gözləyirmiş. Rövşən diyirlənərək özünü yaxınlıqdakı kolun arxasına atdı, ehtiyatla ətrafa boylanıb, atəşin haradan açıldığını öyrənməyə çalışdı. Tələbə taqımı arxadan və sağ tərəfdən atəşə tutulur, düşmən pulemyotu susmaq bilmədən gurlayirdı. Tələbələr başlarını belə qaldırmağa çətinlik çəkirdilər. Arxasında gizləndiyi tikanlı kolun arasından ehtiyatla boylanan Rövşən pulemyotun atəş açdığı nöqtəni müəyyən edə bildi. Su kanalının qurtardığı, kol-kosun başladığı yamacdan, su anbarı deyilən yerdən uçurdu güllələr. Anbarın iki addımlığında, su kanalının sonluğundakı yamacda ətrafı ustalıqla maskalanmış blindaj diqqətini cəlb etdi. Avtomatlardan açılan güllələr müxtəlif istiqamətlərdən tələbə döyüşçülərə tuşlanmışdı.

Tələbələr kənd istiqamətində sürünməyə başladılar. Onlar hündür otların arasıyla kəndin girəcəyinə qədər uzanan qəbirstanlığın başlanğıcına qədər sürünə bildilər. Qaça-qaça qəbir daşlarının arasından keçib, kəndə girdilər. Atəş xəttindən çıxdıqlarını düşünür, artıq üçüncü sovxoz deyilən yerə yaxınlaşırdılar. Qarşıda onları mühasrəyə düşmüş döyüş yoldaşları gözləyirdi. Kəndin içərisiylə ehtiyatla irəliləyir, hər an onları gözləyə biləcək pusqudan özlərini qorumaq üçün ətrafı tam nəzarətdə saxlamağa çalışırdılar. Birinci döngəni təhlükəsiz keçsələr

də, qəfil qarşılarına çıxan erməni tankı onları yerə uzanmağa məcbur etdi. Tankın üstündəki düşmən əsgərləri də dərhal yerə atılıb, zəncirvari şəkildə tələbə döyüşçülərə doğru irəliləməyə başladılar. Onların bəziləri dizləri üstə yerə çöküb, ardıcıl atəş açır, digərləri isə cəld irəli qaçaraq özlərinə daha qabaqda mövqe tutmağa çalışırdılar. Amma artıq yerə uzanıb özlərinə mövqe tutmuş tələbə döyüşçülərin ardıcıl atəşləri qarşısında tab gətirmədilər. Əvvəlcə yerə uzanıb, otların arasında gizlənmək üçün özlərinə yer aradılar, sonra isə fürsət tapdıqca tədricən geri çəkilməyə başladılar. Düşmən tankına doğru qranatamyotlardan eyni anda iki atəş açıldı. Amma güllələrdən heç biri zirehli maşına dəymədi, – mərmilərdən biri tankın qarşısında, digəri isə xeyli aralıda partladı. Tank qəfil dayandı, yerindəcə fırlanıb, geriyə istiqamət götürdü. Ətrafındakı piyadalar da ardınca, tank qarşıdakı aşırımı aşıb gözdən itdi. Tələbə taqımı ayağa qalxıb, onların getdiyi istiqamətdə ehtiyatla hərəkət etməyə başladı. Amma düşmənin qarşıdakı aşırımda gizlənib, onlara pusqu quracağından ehtiyatlanıb, komandirin əmriylə dayandı. Komandir ətrafı diqqətlə müşahidə edib, üzünü yoldaşlarına tərəf çevirdi:

– Yanılmamışıq... Düşmən bizi qarşıdakı aşırımda gözləyir. – Əlinin hərəkətiylə hamının yerə uzanıb, gözləməsini əmr etdi. Özü isə otların arasıyla irəli sürünməyə başladı. Bir qədər irəlilədikdən sonra dayanıb, uzağıgörmə cihazını gözlərinə dayadı. Yerində azacıq dikəlib, əlinin hərəkətiylə: – Ardımca! – deyə yoldaşlarını yanına çağırdı. Tələbə döyüşçülər komandirin da-

lınca sürünməyə başladılar, amma Rövşənin uzandığı yerə çatmamış qəfil atəşə tutuldular. Güllələr müxtəlif istiqamətlərdən döyüşçü tələbələrə doğru od kimi yağdı. Rovşən geriyə, yoldaşlarının yanına süründü: – Arxa tərəfdən özünüzü gözləyin! – deyə dörd bir yandan müdafiə oluna bilmələri üçün tələbə döyüşçülərin dairəvi şəkildə mövqe tutmalarını əmr etdi. Yalnız indi məlum oldu ki, düşmən onları tələyə salmaq üçün bilərəkdən geri çəkilib, amma tələbələrin qarşıdakı aşırıma çatmamış yerə uzandıqlarını görəndə mühasirəni vaxtından qabaq qapamağa başlayib. Tələbə döyüşçülər dörd bir istiqamətdən qırıq-qırıq atəşə tutuldular.

– Geri çəkilək, komandir! İrəliyə yolumuz bağlıdır!!! – Xudaverən Rövşənin yanına sürünüb, həyəcanını gizləmədən söylədi.

– Geriyə də yol yoxdur artıq. – komandir əliylə arxa tərəfdəki atəş nöqtələrini göstərdi: – Həm də qarşıda bizi mühasirəyə düşmüş döyüş yoldaşlarımız gözləyir.

– Amma biz harada oldugumuzu belə bilmirik, komandir! Kəndin içində nələr baş verir, xəbərimiz yox. – Firdovsi* söhbətə qoşuldu.

– Təklifiniz nədir? – Rövşən soruşdu.

– Deyirəm ki, elə burada qalıb, döyüşü davam etdirək. – Firdovsi bir daha dörd bir yanına ani nəzər yetirib, fikrini izah eləməyə çalışdı: – Bu vəziyyətdə geri qayıtmağımız həm mümkün olmayacaq, həm də düz deyil. Biz bura tapşırıqla gəlmişik. Burada qalıb döyüşü davam etdirsək, həm mühasirəyə düşmüş döyüş yoldaşlarımıza kömək edər, həm də imkan düşəndə geri çəkilə bilərik.

---

* Piriyev Firdovsi, BDU-nun Tarix fakültəsinin tələbəsi

Mühasirədəkilər də kömək gəldiyini görüb, müqaviməti gücləndirərlər...

Tələbə taqımıyla mühasirədəkilər arasında təxminən iki yüz metr məsafə qalmışdı. Bunu görən komandir döyüş yoldaşının təklifiylə razılaşdı: – Doğrudur. – uzandığı yerdən azacıq qalxıb, Yerli Özünümüdafiə Batalyonuyla Tələbə taqımı arasındakı məsafədə mövqe tutmuş düşmən tərəfə boylandı: – Yəqin ki, düşmən də ikitərəfli atəş altında qalmaq istəməyəcək – deyə əlavə etdi. Aydın görünürdü ki, düşmən irəliləmək, fəal hücum etmək niyyətində deyildi. O nəinki buna azacıq da olsa cəhd göstərmir, əksinə, tələbə döyüşçülərin irəliləmələrinə şərait yaradıb, onları öz mövqelərinə doğru çəkməyə çalışırdı. Əminydi ki, arxa tərəfdən atəşə tutulan tələbə döyüşçülər yalnız onların mövqe tutduğu aşırıma tərəf sürünəcəklər.

Tələbə taqımının komandiri Rövşən düşmənin hiyləsini dərhal anlamışdı. O bir neçə tələbə döyüşçüyə uzandıqları yerlərində qalıb, düşmənin arxa tərəfdəki atəş nöqtələrini nişan almağı tapşırdı. Digərlərinə isə öz ardınca qabaqdakı aşırıma doğru sürünməyi əmr etdi. Düşmən tələbələrin onlara döğru hərəkət etdiklərini görür, amma arabir, qırıq-qırıq atəş açmaqla onların diqqətini arxa tərəfdən açılan atəşlərə yönəltməyə çalışır, daha da irəli sürünmələrinə şərait yaradırdı. O elə bilirdi ki, tələbələrin onun hiyləsindən xəbəri yoxdur. Ermənilər elə zənn edirdi ki, arxa tərəfdən yolları bağlı olduğu üçün tələbələr nəyin bahasına olursa-olsun, aşırımı aşmağa çalışacaqlar...

Rövşən səbrlə aşırıma doğru sürünür, yoldaşlarının da müxtəlif məsafələrdə onun ardınca irəliləmələrini tələb edirdi. Artıq onlar kifayət qədər irəliləmişdilər. Rövşən hamının eyni anda düşmənin aşırımdakı mövqeyini ardıcıl atəşə tutmasını əmr etdi. Məqsəd mühasirəyə düşmüş Yerli Özünümüdafiə Batalyonunu kömək gəlməsindən xəbərdar etmək idi. Çox keçmədi ki, mühasirədəkilər tələbə döyüşçülərin işarəsini aldı. Aşırımdakı düşmən mövqeyi arxadan – mühasirədəkilər tərəfindən atəşə tutuldu. Bunu gözləməyən düşmən indi iki istiqamətdə döyüş aparmaq məcburiyyətində qalmışdı. Bundan istifadə edən tələbələr aşırımın əlli-altmış metrliyinə qədər sürünüb, özlərinə müvəqqəti istehkam yarada bildilər. Amma yalnız otlardan və kol-kosdan ibarət olan bu yalançı istehkamın arxasında onlar bir saatdan artıq tab gətirə bilməzdilər.

Düşmən tələbə döyüşçülərin niyyətini anlamışdı. Erməni yaraqlıları İki istiqamətdə döyüş aparsalar da, tələbələr istiqamətində atəşi gücləndirmiş, əsas güclərini onlara doğru yönəltmişdi. Mühasirədəkilərin manevr etmək imkanı olmadığını, bütün yolların bağlı olduğunu bilən düşmən onların xilas ola bilməyəcəyini güman edir, tələbələrin qüvvələrini sarsıtmağa çalışırdı. Mühasirə və ölüm çəmbəri anbaan daralırdı. Belə durumda döyüşü davam etdirmək tələbələr üçün çox təhlükəliydi.

– Geri çəkilirik! – deyə Rövşən əmr etdi və tələbələr gəldikləri istiqamətdə də geri döndülər. Amma arxa tərəf tam düşmən nəzarəti altındaydı.

– Arxa tərəf səndə, Fərhad, uşaqlar səngərə sürünənə qədər onları qoruyacaqsan. – Rövşən gözünü düşmən

mövqeyindən ayırmadan tapşırıq verdi: – Səngərə tərəf sürünün. Çalışın ki, özünüzü səngərə çatdıra biləsiniz. Yolun qalanını ziq-zaq şəklində, bir-bir qaçaraq özünüzü asfalt yolun arxa tərəfinə ataçaqsız. Üzüm plantasiyasının qarşısında görüşürük! Getdik! – Rövşən ön tərəfdən düşmən hücumunun qarşısını almağı öz üzərinə götürdü.

– Özünüzü qoruyun, komandir! – deyə tələbə döyüşçülər keçib gəldikləri Marquşavan kəndi istiqamətindəki səngərə doğru sürünməyə başladılar. Rovşən onların geri çəkildiyini düşmən bilməsin deyə tez-tez yerini dəyişməklə dayanmadan atəş açmağa başladı. Yerli Özünümüdafiə Batalyonunun əsgərləri də artıq fəal şəkildə döyüşə girmişdilər. Rovşən fürsət tapıb uzağıgörmə cihazıyla onların döyüş apardıqları ərazini nəzərdən keçirə bildi. Mühasirə yarılmaq üzrəydi. Düşmən ikitərəfli döyüş aparmaq məcburiyyətində qaldığı üçün onların mühasirədən çıxmaq cəhdlərinin qarşısını ala bilmədi. Yerli Özünümüdafiə Batalyonu mühasırəni yarıb, Tərtər istiqamətində geri çəkilməyə başladı. Rovşən düşmənin arxa tərəfdəki atəş nöqtələrini nəzarətdə saxlayan Fərhadın yanına süründü:

– Vaxtdır, səngərə doğru ardımca... – Qranatamyotunu çiyninə keçirib, avtomata qurşanan Fərhad son güllələrini düşmən mövqeyi istiqamətində gurladıb, komandirin ardınca irəlilədi. Onlar otların, kolların arasından sivişib, hələ də səngərə çatmayan döyüş yoldaşlarına yetişdilər. Tələbələr artıq tamamilə düşmən nəzarəti altındaydılar. Onlar üç tərəfdən atəşə tutulmuş, hərəkət istiqamətləri hər tərəfdən qapanmışdı. Yalnız bir çıxış yolları qalmışdı: təxminən yüz-yüz əlli metr irəlidə uzanan təbii səngərə

sarı sürünüb, özlərini kanala atmaq; kanalı keçib, asfalt yolun yaxınlığındakı səngərə atılmaq; səngərlə asfalt yol arasındakı açıq sahəni, bir-birlərini qorumaq şərtiylə ziqzaq şəklində tək-tək qaçaraq yolun arxasına keçmək.

Kanalın axırındakı su anbarının yanında düşmən blindaj qazmış, pulemyot yerləşdirmişdi. Blindaj üçün elə bir yer seçilmişdi ki, orda oturan pulemyotçu tələbə taqımının hərəkət etdiyi bütün ərazini nəzarətdə saxlaya bilirdi. Tələbə döyüşçülər kanala sarı getmək üçün hökmən blindajın qarşısından keçməliydilər.

Tələbələrin təbii səngərə doğru sürünmək cəhdləri baş tutmadı. Düşmən Yerli Özünümüdafiə Batalyonunu mühasirədən çıxarmaq istəyən tələbə döyüşçülərin özlərini hər tərəfdən tam əhatəyə almışdı. Ermənilər tələbələrin köməkliyi ilə mühasirəni yarmış batalyonun acığını tələbələrdən çıxmaq istəyirdi. Onlar bütün qüvvələrini tələbə döyüşçülər istiqamətində cəmləmişdi. Rövşən tələbələrin müxtəlif istiqamətlərdə mövqe tutmalarını əmr etdi: – Mənim əmrimlə hamımız blindajı, bütün atəş nöqtələrini atəşə tuturuq. Atəşi dayandırmadan iki-iki qaçıb, özünüzü kanala atın. Blindaj məndə! – öz avtomatını tələbə yoldaşının ustünə ataraq pulemyotu onun əlindən aldı. Arxası üstə torpağa düşmüş pişik cəldliyi ilə diyirlənib, blindajı nişan götürmək üçün özünə müvafiq yer seçdi: – Hazır oluuun! – ani bir hərəkətlə yerindən sıçrayıb, dizini dirsəyinə dayaq verdi, yarıoturmuş vəziyyətdə pulemyotu sinəsinə sıxdı: – Aaaatəş!..

Avtomatlar gurladı, pulemyot od püskürdü! Tələbələr bütün qəzəblərini silahlarının tətiklərinə tökdülər. İki döyüşçü fürasətdən istifadə edib, özlərini yaxınlıqda-

kı təbii səngərə çatdırdı, dərhal mövqe seçib, düşməni hədəfə aldı. Daha iki tələbə kanala sarı sürünüb, özlərini səngərdəki yoldaşlarına yetirdi, qalan yoldaşlarının da səngərə gəlməsi üçün düşmənin atəş nöqtələrini susdurmağa çalışdı.

Ermənilər tələbələrin belə aqressiv əks-hücumunu gözləmirdi. Amma narahat da deyildilər – səbr nümayiş etdirir, fürsət gözləyərək aramla atəş açırdılar. Yəqin ki, düşmən tələbə döyüşçülərin düşdükləri tələdən çıxa bilməyəcəyini zənn edirdi. Tələbələr bunu başa düşmüş, döyüş yollarının şəhadətə getdiyini bütün dərinliyi ilə anlamışdılar. Güllələri də, fiziki gücləri də bitmək üzrəydi. Ümidləri isə tükənməziydi! Qurtulacaqlarına yox, qurtaracaqlarına ümid edirdilər! Özlərini yox, yoldaşlarını qurtaracaqlarına, vətəni qurtaracaqlarına, torpağı qurtaracaqlarına, öləcəklərinə yox, şəhadətə qovuşacaqlarına ümid edirdilər!

– Cəld olun,.. cəəəld!!! – komandirin pulemyotu kimi dili də heç susmurdu. O tez-tez ani sıçrayışla yerindən qopub, mövqeyini dəyişir, bunula da düşmənin bütün diqqətini özünə çəkir, tabeliyində olanların təklükəsiz yerə çəkilmələri üçün yorulmadan çarpışırdı. Düşmən artıq Rövşəni hədəfə almışdı. Onun hərəkət etdiyi bütün nöqtələr, atdığı bütün addımlar atəşə tutulurdu. Sanki Rövşən boş səhrada bir çobanaldadan quşuna dönmüşdü – cəld, sürətlı yerdəyişmələri, sıçrayışlarıyla düşməni azdırır, ələ salır, təhlükəli bir oyun oynayırdı. Düşmənin Rövşəni hədəfə aldığını hiss edən Fərhad onu addim-addim izləyir, qorumağa çalışırdı.

Rövşən tələbə döyüşçülərin böyük bir hissəsinin hələ də səngərə girə bilmədiyini görüb: – Bacardıqca ətrafa yayılın, bir-birinizlə məsafə saxlayin, müxtəlif istiqamətlərdən səngərə doğru sürünün! – deyə bağırdı. Özü isə ayağa qalxıb, atəş aça-aça düşmənə doğru irəliləməyə başladı. Onu tək buraxmayan Fərhad sıçrayışla yerindən qalxdı, qranatamyotu çiyninə keçirib, avtomatın qundağını sinəsinə dayadı, komandirlə yan-yana düşmənin üstünə yeridi. Əfqanıstanda kifayət qədər döyüş təcrübəsi qazanmış Ümidvar uzandığı yerdən qalxıb, dizi üstə çökdü – "Bir güllə, bir düşmən!" – deyə tək-tək atəş aça-aça, yerdəyişmə manevriylə yoldaşlarını qorumağa çalışdı. Xudaverən ayaq üstə düşmənə doğru yeridi... Sanki gözlərini qan tutmuş, bir anın içində vəhşi qurda dönmüşdülər. Onlar qarşıdan gələn düşmənin iki gün qabaq Şuşanı tutduğunu, iki ay qabaq Xocalıda uşaqları, qadınları vəhşicəsinə qətlə yetirdiyini xatırlayırdılar. Gözləri önünə vəhşicəsinə döyülən, işgəncələrlə öldürülən körpələr, alçaldılan, zorlanan qadınlar gəlirdi. Bapbalaca əllərini uzadıb, yardım diləyən körpələrin göz yaşları zəhərli xəncər kimi ürəklərinə sancılırdı...

Cəmil* yerindən sıçradı, özünü yetirib, yoldaşlarıyla çiyin-çiyinə düşmənin üstünə yeriməyə başladı. Bayaqdan səngərə can atan İsgəndər də yoldaşlarının düşmənlə göz-gözə getdiyini görüb, geri döndü, tələbə yoldaşlarıyla bir cərgədə döyüşə atıldı. Sağ-solunda yoldaşlarının da onunla bərabər addımladığını görən Rövşən

---

* Məhəddinov Cəmil, BDU-nun kitabxanacılıq-informatika fakültəsinin tələbəsi

sanki arxasında böyük bir ordunun irəlilədiyini hiss etdi. Onlar manevr etmədən irəliləyir, düşmənə ölümdən qorxmadıqlarını, doğma torpaq uğrunda ölməyin də, qan tökməyin də şərafətini sübut etmək istəyirdilər...

Qarşıdakı kolluqlar qəfil yellənib titrədi. Nərildəyərək kol-kosu tapdayan, qabağına çıxan hər şeyi əzib keçən düşmən tankı yerin altından çıxıbmış kimi gözlənilmədən peyda oldu. Və görünməyiylə də altı nəfərdən ibarət tələbə döyüşçünün üstünə şığıması bir oldu. Tankın arxasınca zəncirvari şəkildə düzülərək irəliləyən düşmən taqımı gəlirdi

– Tankı vur, Fərhad! – komandir gözünü düşməndən ayırmadan üzünü döyüş yoldaşına tərəf çevirdi. Fərhad avtomatını yerə atdı, fırlayıb qranatamyotu kürəyindən çıxardı, çiyninə qoyub, elə ayaq üstdəcə tankı nışan aldı.

Zirehli maşın çox irəliləmişdı – tankla tələbələr arasında əlli-altmış addım ola, ya olmayaydı. Düşmən maşını tələbələri hədəfə almaq üçün tələb olunan məsafə həddini arxada qoymuşdu. İndi o tələbə döyüşçülərin başı üstündən Tərtər şəhərini, bu istiqamətdə geri çəkilən döyüşçüləri atəşə tuta bilərdi. Fərhad cox həyəcanlıydı. O, yoldaşlarının taleyinin ondan asılı olduğunu yaxşı başa düşürdü. Əlləri titrədiyindən atəş zamanı qeyri-ixtiyari olaraq qolları yuxarı dartındı. Mərmi tankın üstündən arxaya uçdu, Fərhadın özü isə qranatamyotun atəşinin zərbindən bir neçə addım geri atıldı. Qranatamyotla üz-üzə qaldığını və nişan almaq imkanını itirdiyini görən tankın sürücüsü əyləci basıb, tankı geriyə verdi. Tank ağacların arasında tez-tələsik gözdən itdı...

Fərhad sonuncü mərmini artıq atmışdı, daha qranatamyot ona lazım deyildi. Amma silahı əlindən yerə qoymadı, qranatamyot çiynindəcə irəli addımladı. Və... başından tutmuş sinəsinəcən vücudunu parçalyıb keçən pulemyot gülləsinin hədəfinə gəldi. Bayaqdan onu izləyən düşmən pulemyotçusu daraqda olan bütün güllələri onun bədəninə boşaltmışdı. Fərhad geri addımladı, amma irəli yıxıldı...

– Fərhadı vurdular!!!

Cəmil də, İsgəndər* də eyni anda bağırdı. Rövşən Fərhada sarı çevrildi. Sanki son dəfə döyüş yoldaşını görmək, onunla vidalaşmaq istəyirdi. Fərhadın əli silahlarından üzülmüş, avtomatı bir neçə addım qabaqda, qranatamyotu arxada yerə düşmüş, özü isə sanki iki hissəyə parçalanmışdı...

– Geri cəkilirik, geri!!! – Rövşən bağırdı.

Artıq tələbə döyüşçülər xeyli geri çəkilmişdilər. Bəziləri özlərini təbii səngərə – kanala çatdıra bilmişdi, bəziləri isə çataçatda idi. Fərhad vurulandan sonra Rövşənlə bərabər güllələri qurtarmaq üzrə olan yalnız beş əsgər – Ümidvar, Xudaverən, Cəmil və İsgəndər qalmışdı.

– Geri çəkilirik, geri! – Rövşən bir daha bağırdı. Düşmən tankı gözə dəyməsə də, tələbə döyüşçülər manevrlə irəliləyən düşmən taqımından və onlarla görünməyən nöqtədən yağan atəş altında yalnız qalmışdılar.

– Geri çəkilirik, geriiii!!! – Rövşən yenə də bağırdı. Artıq Fərhadın meyitinə yaxınlaşmağa nə vaxt, nə də im-

* İsrafilov İsgəndər, BDU-nun mexanika-riyaziyyat fakültəsinin tələbəsi

kan qalmışdı. Komandirin təkrar-təkrar əmrindən bunu anlayan döyüşçülər geri çəkilməyə başladılar.

Rövşən isə hələ də tələsmirdi. O yalnız son döyüşçünün də təhlükəsiz yerə çəkildiyinə əmin olandan sonra öz xilası haqda düşünməyə qərar vermişdi. Düşmən taqımı isə dayanmadan irəliləyir, ara-sıra manevr edib, özlərini qorumaqla hücumu davam etdirirdi. Meşəlikdə, kolluqlarda, ağacların arasında gizlənən düşmən yaraqlıları dayanmadan güllə yağdırırdı. Rövşən yerə çöküb, güllələrini yoxladı. Yalnız bir neçə pulemyot gülləsi, tapançasında isə son güllə qalmılşdı. O, bu gülləni əsir düşməmək üçün özünə vurmağa saxlamışdı.

Manevrlə yerini dəyişdi. Pulemyotundakı güllələr yoldaşlarının təhlükəsiz yerə çəkilmələrinə qədər düşmənin qarşısını saxlamağa bəlkə də bəs eləyərdi. Ayağa qalxması ilə pulemyotunun gurlaması bir oldu. Hücumda olan düşmən taqımı gizlənmək üçün tez-tələsik özünə yer aramağa başladı. Rövşən irəli daha bir addım atdı, pulemyotun xofundan başını qaldıra bilməyən düşmənə doğru yeridi. Və kolluqların arasından qəfil bir güllə açıldı! Bayaqdan komandiri addımbaaddım izləyən, nişangahda saxlayan düşmən snayperi Rövşənin sinəsini nişan almışdı. Güllənin zərbindən Rövşən bir addım geri çəkildi, pulemyotun lüləsini yerə basaraq özünə dayaq verdi, üzünü çevirib, geri çəkilən döyüş yoldaşlarına boylandı. Cəmillə İsgəndər artıq özlərini su kanalına çatdıra bilmiş, Ümidvarla Xudaverən isə manevrlə təbii səngərə doğru geri çəkilirdilər. Arxayınlaşdı. Sönməkdə olan gözlərində qaliblik ifadə edən bir təbəssüm parlayıb, tozdan sezilməyən çöhrəsində alışdı. Irəli dartın-

dı. Sanki düşmənin tətikdə olan ikinci gülləsinə sinə gərmək, düşməni öz iradəsiylə susdurmaq, mənəvi qələbəsini nümayiş etdirmək istəyirdi. Daha bir güllə açıldı. Komandirin əlləri boşaldı, pulemyot sürüşüb yerə düşdü. O, gözlərinə dolmuş isti qanın dalınca səmadan üstünə axan nuru aydınca gördü...

Snayper gülləsi alnının düz ortasından tutmuş, başının arxasından yekə bir oyuq açaraq çıxmışdı. – Rovşəəəəən!!! – Cəmil bağırdı. İsgəndər sıçrayıb, səngərdən çıxdı. Rovşən üzü üstə torpağa düşdü. İsgəndər vurulduğuna hələ də inana bilmədiyi komandirinə tərəf qaçmaq istəsə də, aldığı güllənin zərbindən geri sıçradı. Cəmil dartıb onu su kanalına – təbii səngərə saldı. İsgəndər sol çiynindən yüngül yara alsa da, hələ heç bir ağrı hiss etmir, vurulduğunun fərqinə belə varmırdı. O dartınıb Cəmilin əlindən çıxmaq, döyüş yoldaşının cansız cəsədinə tərəf qaçmaq istəyirdi.

– İsgəndər,.. İsgəndər, özünə gəl, İsgəndər!!! – Cəmil döyüş yoldaşının sakitləşmədiyini görüb bağırdı: – O artıq şəhid oldu, İsgəndər, çıxsan, səni də vüracaqlar,.. getmə,.. dayan!!! – Qucaqlayıb çətinliklə olsa da, onu kanalın dibinə yıxdı.

Güllələr başları üzərindən uçur, səngərin qırağındakı otları biçib üstlərinə tökür, torpağı ətrafa səpirdi. İsgəndərlə Cəmil bir-birinə sarılıb, acı-acı ağlayırdı... Xudaverən Rövşənin də, Fərhadın da vurulduğunu görmüşdü. Amma hələ də onların öldüyünə inanmır, manevr etmək üçün yerə uzandıqlarını zənn edir, yenidən ayağa qalxacaqlarını, düşmənin üstünə yeriyəcəklərini, başlarına od yağdıracaqlarını düşünürdü. Güllələr dayanmadan

yağır, amma Xudaverən qulağının dibindən vıyıltıyla uçan mərmilərin səsinə məhəl qoymurdu. O, ətrafında baş verənlərin təsirindən, nə Ümidvarın dayanmadan – "Xudu, özünü qoru, Xudu, əyil!" – deyə bağırtılarına məhəl qoyur, nə Rövşənin meydanda köməksiz qalan cəsədinə, nə də Fərhadın az qala ikiyə parçalanmış nəşinə diqqət yetirirdi. Gözləri yalnız düşməni görür, yalnız necə qisas alacağını, düşmənə necə zərbə vura biləcəyini düşünürdü. Düşmən isə dayanmadan yaxınlaşırdı!

Xudaverən hər an düşmən gülləsinə hədəf ola biləcəyini, hər an şəhadətə qovuşacağını bilsə də, özünü qorumaq haqda düşünmürdü. Hər tətiyi çəkəndə Xocalıda baş verən hadisələr gözləri önündə canlanır, hər atəş açanda Şuşanın qəlbinə sancılan namərd xəncərinin heyfini çıxdığını düşünürdü. Ayaq üstə geri çəkilir, avtomatının nişangahıyla ətrafı müşahidə edir, ara-sira atəş açır və hər gülləsiylə bir düşməni məhv etməyə, bircə gülləsinin belə boş getməməsinə çalışırdı. Açıq meydanda tək qalmışdılar: Ümidvar və Xudaverən! Digər tələbə döyüşçülər özlərini su kanalına çatdıra bilmiş, mövqe seçib, irəliləməkdə olan düşmən taqımını hədəfə götürmüşdülər. Xudaverən nifrət və qəzəbini avtomatının tətiyinə tökür, nişan almadan tətiyi çəkmirdi.

– Uzan yerə Xudu, uzan yerə!.. – Ümidvar ehtiyatla geri çəkilir, həm özünü, həm də tələbə yoldaşını düşmən gülləsindən qorumağa çalışırdı. Amma Xudaverən onun səsini eşitmir, sanki açıq sinəsi, açıq başıyla düşmənə meydan oxuyur, üstünə yağan güllələrdən qorunmağı ağlına belə gətirmirdi. O artıq özünü unutmuşdu, cismani varlığından artıq xəbəri yoxuydu. Onun üçün indi yal-

nız düşmən vardı! Xalqını təcavüzə məruz qoyan, körpə balaları qanına qəltan edən, qadınlara təcavüz edən, torpaqlarını işğal edən düşmən! Mənfur, qaniçən, riyakar düşmən! Namərd düşmən!..

Güllə ayağından dəydi. Səntirləyib geri çəkilsə də, irəli yıxıldı, amma tez də ayağa qalxdı. Avtomatına söykənib, qamətini düzəltdi. Sol əliylə dizinə dayaqlanıb, sağ əliylə avtomatını qaldırdı, amma atəş açmağa vaxtı çatmadı. Qarın və ayaq nahiyəsindən aldığı ardıcıl güllələrin zərbindən arxaya səntirləyib, üzüüstə yıxıldı. Ümidvar yüyürüb, özünü tələbə yoldaşına çatdırdı, onu arxası üstə çevirib, qulağını sinəsinə qoydu. Öz ürəyinin döyüntüsündən başqa heç bir səs eşitmədi. Sanki qəlbində təlatüm baş qaldırmışdı. Məcrasından çıxan ürəyi həyəcandan elə şiddətlə döyünürdü ki, elə bil indicə yerindən qopacaqdı. Əlini döyüş yoldaşının boynunda gəzdirdi – hələ isti idi. Biləyini, nəbzini yoxlamaq istədi, amma tez də fikrindən daşındı. Xudaverən gözlərini qapamışdı. Arxası ustə uzandıqları haldaca əlini Xudaverənin qolunun altından keçirib, onu özünə sarı şəkdi. O biri əliylə avtomatını sinəsinə sıxıb, düşmən pulemyotçusu istiqamətində atəş açа-aça geriyə – yaxınlıqdakı çuxura sarı dartındı. Çətinliklə olsa da, tələbə yoldaşını o qədər də dərin olmayan çuxura saldı.

Düşmən taqımı dayanmadan irəliləyir, erməni pulemyotçusu durmadan atəş açırdı. Umidvar çuxurdan boylanıb, irəliləməkdə olan düşmən taqımına atəş açdı. Kanala sığınmış tələbə döyüşçülər Ümidvarın geri çəkilməsi üçün şərait yaratmağa çalışdı...

## “Güllələ məni, vermə düşmənə”

– Xudu,.. Xudu,.. Xudu!.. – Ümidvar ehtiyatla döyüş yoldaşının sifətinə toxundu. Sanki onu tərpətməkdən, ona toxunmaqdan qorxur, ona əziyyət verəcəyindən ehtiyat edirdi.

– Xudu!,. Xudu!,. Xudu!!! – onun sifətini ovucları arasına alıb, diqqətlə baxdı. Döyüş yoldaşının sifətində həyat əlamətləri axtardı.

Döyüntüsünü duyacağına inanmasa da, onun ürəyinə qulaq asmaq istədi. Amma qulağını deyil, alnını Xudaverənin sinəsinə dayadı: – Xudu!,. Xudu!!! – hönkürdü,.. çiyinləri tir-tir titrədi. – Ümiiiid... Get burdan! Ümiiid!!! Get! – Xudaverənin xırıltılı səsi eşidildi. Bu səs boğazı deyil, sanki onun ürəyindən gəlirdi.

Ümidvarın hönkürtüsü ani kəsildi, göz yaşları yanağında dondu. İnanmadı, başını qaldırmağa belə cəsarət etmədi. Başını qaldırıb, Xudaverənin deyil, xəyalının səsini eşidəcəyindən qorxdu. – Get burdan, Ümid!.. Tez get!.. Ümiiid! – göz qapaqlarını qaldırmadan pıçıldadı Xudaverən. Taqətini itirməkdə olan qolunu qaldırıb, titrək barmaqlarını döyüş yoldaşının tərdən, toz-torpaqdan bir-birinə yapışmış saçları arasında gəzdirdi. Bu təmasdan diksindı Umid. – Get burdan, Ümid!.. Get!,. Tez get!!! Məni güllələ, məni öldür get, Ümid, vermə məni düşmənə!.. Məni sağ qoyma burda, məni sağ saxlama düşmənə!.. Get! – Xudaverən kəsik-kəsik, amma dayanmadan danışır, son sözlərini bitirə bilməyəcəyindən qorxur, fikrini tamamlamağa çalışırdı.

– Susss!,. susss!!! – Ümidvar başını qaldırdı. Ovcunun içiylə dostunun toz-torpaqdan rəngi bilinməyən alnının, sir-sifətinin tərini sildi. – Bir yerdə çıxacağıq, Xudu, bir yerdə!,. Bir yerdə!!! – səsinin titrəyişini, hıçqırıqlarını döyüş yoldaşından gizləməyə çalışdı, onu ehmalca çəkib, kürəyinə aşırdı. Özününküylə birgə Xudaverənin də avtomatını qoluna keçirib, asta-asta kanala sarı sürünməyə başladı. Xudaverən zarıyır, dayanmadan sayıqlayırdı. Onun qanı durmadan axır, gücü anbaan zəifləyirdi. Güllələr də bir yandan başları üstündən uçur, ətraflarında torpağa sancılıb, toz-torpaq qaldırır, qulaqlarının dibində vıyıldayırdı.

Ümidvarın artıq gücü tükənmişdi. Xudaverənin dayanmadan axan qanından kürəyi islanmış, paltarı bədəninə yapışmışdı. Dayandı. Ehmalca sivişib, döyüş yoldaşının altından çıxdı. Onu arxası üstə çevirib, əlini yarasının üstünə qoydu, sıxıb qanını kəsmək istədi. Qanaxmadan öləcəyindən qorxurdu. Amma yarası bir deyil, iki deyildi. Göz yaşlarında boğulsa da, səsini çıxarmamağa, ağladığını doyüş yoldaşından gizləməyə çalışırdı. Ovcunun içiylə sifətinin tərini silmək, gözünə dolmuş toz-torpağı təmizləmək istədi. Xudaverənin qanıyla üz-başını boyadı. Dartındı, irəli, su kanalına, doyuş yoldaşlarının səbrsizliklə onları gözlədiyi təbii səngərə doğru dartındı. Xudaverəni də böyrü üstə öz yanıyla sürüdü. Bədəninə batan kol-kosdan, daş-kəsəkdən, tikandan, yaralarının sızıltısından Xudaverənin ürəyi qovruldu. Sızladı: – Burax məni, Ümid, burax məni! – Xudaverən yalvardı.

– Az qalıb, Xudu, lap az qalıb, çatırıq, bax budur, burdadır, bircə addım qalıb, döz, Xudu, səbr et, qardaşım!!!

– deyə Ümidvar da yalvardı. – “Ölmə!” – deyə yalvardı. “Dayan!” – deyə yalvardı. Göz yaşlarını gizlətməyə çalışaraq, ağladığını duydurmamağa çalışaraq yalvardı...

– Dur dedim, Ümid, dur, bəsdir, Ümid!.. – Xudaverən sızladı: – Elə burda, burda, burda güllələ məni, Ümid, düşmən gəlir, düşmən yaxınlaşır, düşmən artıq bizə çatır. Çıxa bilməyəcəyik burdan, Ümid! Öldür məni, özün cıx, öldür məni, Ümid, güllələ məni, tez!..

Düşmən artıq yaxınlaşmışdı. Bir neçə dəqiqə də keçsə, ermənilər gəlib çatacaq, onların hər ikisini ya əsir götürəcək, ya da öldürəcəkdi. Hər ikisinin avtomatında yalnız bir neçə güllə qalmışdı. Bütün bunları bir anlıq ağlından keçirən Ümidvar göz qapaqlarını sıxıb, dərindən qapadı. Başqa bir yol görmədiyi üçün Xudaverənin xahişini yerinə yetirməyə sanki özündə cəsarət axtarır, birdəfəlik bu zülmdən, bu işgəncədən qurtulmağa güc toplamaq istəyirdi...

Güllə yağışı dayanmadan yağırdı. Amma o, bu güllə yağışından deyil, bir addımlığında eşitdiyi düşmənin təslimə çağırışından, əsir düşəcəklərindən, düşmən qarşısında alçaldılacaqlarından qorxurdu. Güllə yağışı dayanmadan yağırdı. Amma o, cismən deyil, mənən öldürüləcəklərindən qorxurdu. Güllə yağışı dayanmadan yağırdı... Qəfil qalxıb avtomatının qundağını sinəsinə dayadı. Amma lüləsini düşmənə deyil, bir neçə dəqiqədən sonra düşmənə əsir düşəcək döyüş yoldaşının alnına tuşladı. Xudaverən gözlərini qapadı. Sanki bununla da Ümidvarın, nəhayət ki, düzgün qərar verə bildiyini təsdiqləmək üçün dostuna işarə etdi. Sanki tətiyi çəkərkən baxışlarından çəkinməsin, əli titrəməsin deyə dostuna dəstək verdi. Sanki xahişini

yerinə yetirməyə özündə cəsarət tapdığı üçün Ümidvara təşəkkürünü bildirirdi...

Düşmənin səsi artıq lap yaxından eşidilirdi: – Ey, tyurki, sdavaytes, svoloçi, sdavaytes... Ümidvarın göz yaşları giləlƏndi. Öldürməsə, öldürəcəkdilər. Öldürməsə, işgəncə verəcəkdilər. Öldürməsə, alçaldacaqdılar. Öldürməsə, hər şey edəcəkdilər. Xilas yolu bu idi yalnız! Öldürmək! Öldürmək və xilas etmək! Öldürmək və xilas olmaq!

– Ey, tyurki, sdavaytes, svoloçi, sdavaytes...

Sifəti işiqlandı Xudaverənin. Sifətinə bir nur qondu sanki. Bayaqdan ağrıdan qovrulan simasına təbəssüm qondu anidən. Sifətinin əzab ifadə edən cizgiləri təbəssümlə parladı bir anda. Sanki onu qarşılamağa gəlmişdilər. Sanki onun pişvazına çıxmışdılar. Pışvazına çıxanlar dünyanın ən müqəddəs varlıqlarıydı sanki. Həyata istehza ifadə edən bir təbəssüm belə nur saça bilərdi yalnız. Sanki ölüm ayağında deyil, xilas məqamındaydı əsgər. Ətrafında baş verənlərdən qətiyyən xəbəri yoxuydu sanki. Ümidvarın əzablarını görmürdü sanki. Ümidvarın əzablarından xəbəri yoxuydu sanki.

*Hava yaman soyuqlaşıb,*
*Yəqin yenə qar yağacaq.*
*Yağacaq keçənilki tək,*
*Topa-topa, narın-narın.*
*Üzündə qar əriyəcək,*
*Yanağından damcı-damcı süzüləcək,*
*Süzüləcək göz yaşı tək...*

Xudaverən yazmışdı.

Universitet qəzetində dərc olunmuşdu ötən il. Sevdiyi qıza həsr etmişdi bu şerini. Amma indi bir damcı belə gözündən yaş gəlmirdi. Amma indi gözünün suyu qurumuşdu sanki. Sevdiyi qız üçün göz yaşı tökən əsgər indi – şəhadətin bir addımlığında təəssüflənmirdi qətiyyən.

*Yadındamı keçən günlər,*  
*Çəkilərək bir kənara,*  
*Qar topu oynadıq onda,*  
*Qorxa-qorxa, əsə əsə.*

Sevdiyinin bircə baxışından qorxub çəkinən, utanan oğlan düşmən gülləsindən qorxmurdi indi. Sevdiyinə bir kəlməni belə əsə-əsə deyən oğlan indi – "Öldür məni, güllələ məni, özün xilas ol" – deyə tələb edirdi. Təki vətən sağ olsun, təki düşmən qarşısında alçalmasın deyə ölümü seçirdi.

*Bəlkə bir az utanırdıq,*  
*Bəlkə bir az çəkinirdik.*  
*Gözlərinə baxdım bir an,*  
*Ürəyinin sirrin duyam.*  
*Baxışın yaman odluymuş,*  
*Əlimin qarı əridi.*

– Gözlərini yummuşdu Xudaverən. Bəlkə də, qəlbindəki sirri verəcəyindən qorxurdu o anda! Bəlkə də, dostunun onun gözlərini görüb, mərhəmət edəcəyindən qorxurdu! Bəlkə də, alnına dostunun silah tuşladığını

görmək istəmirdi o anda! Bəlkə də, alnına dostunun silah tuşladığına inanmırdı! Gözlərini yummuşdu Xudaverən.. Gözlərini yummuşdu ki, Ümidvar tətiyi utanmadan, rahat çəksin. Gizləmişdi ki, alnına gülləni sıxanın dostu, tələbə yoldaşı, döyüş yoldaşı – Ümidvar olduğunu görməsin...

*Heç bilmirəm bu oyundan*
*Niyə belə tez yorulduq?*
*Əridi o qışın qarı,*
*Əridi lal sevgimiz tək.*
*O qış bir xəyala dönüb,*
*O qışdan donub yaddaşım.*
*O qış ömrümə yazılıb,*
*O qışdan don geyib başım.*

– Bağışla Xudu!.. Bağışla!.. Bağışla!.. – Ümidvarın gözləri qapandı, sifəti göz yaşlarından diksindi. Damlalar səksəkədən codlaşmış tüklərinin üstündən diyirlənib, üzüaşağı axdı, qəlbindəki təlatümdən titrəyən sinəsinə sıxdığı avtomatının qundağını islatdı.

– Ey, tyürki, sdavaytes! Svoloçi, sdavaytes!..

Qulaqlarında əks-səda verən bu bağırtıdan diksindi. Uzandığı yerdəncə qəfil onları təslimə çağıran düşmən döyüşçüsünə tərəf çevrildi. Atəş açıldı... və bir addımlığındakı erməni döyüşçüsü arxası üstə torpağa düşdü. Əsir götürmək sevinci əzablı bir agrıya qarışıb, onun sifətində dondu. Bayaqdan hər ikisini yaralı bilən və əsir götürməyə çalışan düşmən əsgərləri öldürülmüş yoldaşlarının ətrafında yerə uzandılar. Ümidvargilin sığındığı çuxur ardıcıl atəşə tutulsa da, o artıq yaxınlaşmış düşmən

əsgərlərinə məhəl qoymadı. Kanalda mövqe tutmuş tələbə döyüşçülər onları başlarını gizlətməyə məcbur etdi.

– Bağışla Xudu... bacarmayacam!.. Sənə əl qaldırmağı bacarmayacam! Sənə əl qaldıra bilmərəm, Xudu! Buna cəsarətim çatmaz!.. Buna gücüm çatmaz!.. Burada qalıb səninlə bərabər ölmək daha asandı, Xudu! – Ümidvar döyüş yoldaşının sınəsinə qısıldı: – Bacarmadığım işə məni məcbur etmə, Allahım!.. Daşıya bilmədiyim yükü mənə yükləmə, Allahım!.. Çəkə bilmədiyim dərdlə məni sınama, Allahım!..

Xudaverənin kirpikləri kəpənək qanadları kimi titrəyib aralandı. Səmaya baxdı. Deyəsən, Umidvarın yalvarışlarını eşitmişdi. Qalxmağa çalışdı, bacarmadı. Ümidvara yardım etmək arzusu gözlərində parladı və bəbəkləri çevrildi. Boynu boşaldı, başı sağ çiyni üstə yanına düşdü...

– Xudu!.. Xudu!.. Xudu!.. – Ümidvar pıçıldadı – Xudu!!! – Sifətini ovucları arasına alıb, barmaqlarıyla göz qapaqlarını araladı. Bəbəklərindəki həyat eşqi hələ də sönməmişdi Xudaverənin. Hələ də parlayırdı, hələ də sevgi saçırdı: – Bilirəm!.. Xudu!.. bilirəm!.. bilirəm!.. məni yaşatmaq üçün öldün!.. Bilirəm!.. məni xilas etmək üçün öldün, Xudu!!! Bilirəm!!! məni qurtarmaq üçün öldün, Xudu!.. Bilirəm!.. – onun qanlı əllərini ovucları arasına aldı. Döyüş yoldaşının böyründə arxası üstə uzanıb, gözlərini səmaya çevirdi. Dostunun əlini sıxdı, sıxdı... Sanki bununla həm ona öz təşəkkürünü bildirir, həm də qəzəbini göstərirdi. Həm öldüyü üçün, onu tək-tənha, yarıyolda qoyduğu üçün Xudaverənə qəzəblənir, həm də gözünə baxa-baxa öz dost-doğmaca yoldaşına güllə

sıxmaq əzabından qurtardığı üçün ona təşəkkür edirdi: – Sağ ol!.. Xudu!.. Sağ ol!.. əziz qardaşım! – gözlərindən qanmı gəldiyini, yaşmı gəldiyini bilmədi...

Düşmən sürünə-sürünə yaxınlaşır, ara-sıra ehtiyatla qalxıb, ətrafı müşahidə edir, Xudaverənlə Ümidvarın sığındığı çuxura atəş açırdı. Ümıdvar uzandığı yerdən qalxmaq istəmir, döyüş yoldaşından ayrıla bilmirdi. Güllələr başı üstündən uçuşur, qığılcımlar saçırdı. Ümidvar bütün bunları görmür, dostunun möhkəm-möhkəm sıxdığı əlini buraxmırdı. – Ümid, qaçın, Ümid, bura gəlin! Ümid, ermənilər sizə yaxınlaşır! – kanala sığınmış döyüş yoldaşlarının çağırışlarını eşitmirdi Umidvar. Gözlərini qapayib, xəyallarında döyüş yoldaşıyla vidalaşır, onu uzaq bir səfərə yola salırdı. Xəyallarında Xudaverəni universitetdə, auditoriyada, lap axırıncı partada oturub, sevdiyi qıza şerlər yazan görürdü...

Düşmən yaxınlaşır, güllələr uçuşurdu. Pulemyotlar gurlayir, döyüş yoldaşları onları yanlarına səsləyirdı. Ümidvar bunların heç birini duymur, vecinə almırdı. Lap Xudaverənin özü kimi duymurdu... Düşmən asta-asta onlara doğru sürünür, Ümidvar xəyallarıyla çarpışır, dostunu qoruya bilmədiyi üçün qəlbində özünü qınayırdı. Düşmən asta-asta onlara yaxınlaşırdı. Artıq xəbərdarlıq etmədən, təslimə çağırmadan sürünür, ara-sıra atəş açır, Ümidvarın xilası üçün heç bir çıxış yolu qoymadan irəliləyirdi.

– Ümid, qaçın, Ümid, bura gəlin! Ümid, ermənilər sizə çatır, tez olun!.. Ümidvarın isə tələsmək heç ağlından da keçmirdi. Bir neçə dəqiqə bundan qabaq qucağındaca gözlərini yuman dostunu burada, düşmənlə tək-tənha

qoyub getməyi, öz canını qurtarmağı qüruruna sığışdıra bilmirdi.

Düşmən anbaan yaxınlaşır, yaxınlaşırdı. İndi onların yalnız bir neçə gülləsi və bircə canı qalmışdı. Düşmən yaxınlaşır, yaxınlaşırdı, onlarınsa tükənmiş gücləri və yalnız tükənməz nifrəti qalmışdı. Qisası qiyamətə qoymaqmı? Yaşamaqmı? Qisas almadan ölməkmi? Savaşmaqmı? Ölümmü? Həyatmı?! Qalxıb dostunun sinəsinə qısıldı, onun qana, toz-torpağa bulaşmış alnından öpdü, avtomatını astaca sinəsinə qoydu, hələ də ovcundan buraxmadığı, barıt iyi, qan qoxusu verən əlini dodaqlarına yapışdırdı: – Əlvida, Xudu, əlvida, qardaşım!.. – Ehmalca onun əlini silahının üstündə rahladı, gözünü döyüş yoldaşından ayırmadan arxası üstə geri çəkilməyə başladı. Qulağının dibində vıyıldayan güllələr ətrafında toz-torpaq qopardı. Qəfil qalxıb manevrlə kanala, döyüş yoldaşlarının sığınacaq tapdığı təbii səngərə doğru götürüldü...

Ermənilər tələbələrin kanalda gizləndiklərini bilirdi. Onlar Rövşənin, Fərhadın və Xudaverənin cəsədlərini nəzarətdə saxlayır, onları götürmək istəyənləri vurmaq üçün fürsət gözləyirdi. Bir qədər əvvəl tələbə taqımının cavab atəşi qarşısında yerə çökən düşmən taqımı indi ayağa qalxmış, manevrlə Tərtər istiqamətində hücuma kecmişdi.

Tələbələrin bir qismi kanalın qurtaracağında qısılıb qalmışdı. Onlar kanaldan çıxıb qarşıdakı asfalt yolun arxasına – təhlükəsiz yerə qaçmaq üçün imkan gözləyirdilər. Kanalla asfalt yolun arası tam kol-kossuz, açıq bir sahə idi və ora onlarla düşmən gülləsi tuşlanmışdı...

Cəmil qalxıb, komandirin uğrunda şəhid olduğu torpağı sinəsinə basmış cəsədinə boylandı. Gözlərini tutmuş yaşdan düşmənin artıq Rövşənin cəsədini adlayaraq, irəli keçdiyini güclə sezdi. Komandirin cəsədini götürmək ümidini itirdi. Kanalın o biri başında ilişib qalmış döyüş yoldaşları düşmənin hücumuna yalnız tək-tük atəşlə cavab verir, bir-birinin ardınca manevr edib, asfalt yolun altından keçən su borusuna soxulurdular. Nə vaxtsa su axını üçün nəzərdə tutulan bu boru indi tələbələrin asfalt yola çıxmadan, hədəfə çevrilmədən maneənin arxasına, daha təhlükəsiz yerə keçmələri üçün yeganə xilas yoluna, həyat yoluna çevrilmişdi. Borunun içindən keçməklə tələbələr ətrafdan təxminən yarım metr hündür olan asfalt yolun arxasına keçib, düşmən gülləsindən gizlənə bilərdilər.

– Qalx, gedirik, qalx... – Cəmil hələ də göz yaşları içində boğulan İsgəndərin hərbi formasının boyunduruğundan yapışdı: – Qalx, ermənilər gəlir, qalx... İsgəndər başını kanaldan azacıq qaldırıb, irəliləməkdə olan düşmən taqımına və onlardan artıq xeyli arxada qalmış tələbə yoldaşlarının cəsədlərinə boylandı, avtomatını nizamlayıb, atəşə hazırladı. Tətiyin səsi qulaqlarında əks-səda verdi. Deməк, gülləsi tükənmişdi. Dərinliyi təxminən yarım metr olan kanalın içiylə, əyilə-əyilə, bir-birinin ardınca asfalt yola sarı götürüldülər. Döyüş yoldaşlarının bir neçəsi hələ də kanaldan çıxa bilməmişdi. Onlar kanalla yol arasındakı açıq sahədən qaçıb kecmək üçün növbə gözləyirdilər.

– Onlar şəhid oldular, onları vurdular!.. – Çatar-çatmaz Cəmil də, İsgəndər də bir ağızdan səsləndi: – Rövşəni

də vurdular, Fərhadı da!.. – Tələbələrin həyəcanı sükutla qarşılandı. Ümidvar "Xudaverəni də vurdular, qucağımdaca can verdi, şəhadətə qovuşdu!" – deyə bağırmaq istədi, amma dili gəlmədi. Hələ də Xudaverənin öldüyünə inanmırdı. Hələ də gedib onu elə qoyduğu yerdəcə sağ-salamat tapacağına ümidini itirməmişdi... Hələ də dostunun, döyüş yoldaşının onun yolunu gözlədiyini düşünürdü...

## Can verdiyi yerə qədər

Sanki tələbə döyüşçülər bu xəbəri gözləyir, elə belə də olacağını bilirdilər. Amma yenə də onu eşitmək istəmirdilər. Bir cümlə belə demədən sinələrini səngərin divarlarına, avtomatlarını isə sinələrinə sıxdılar. Bircə gözlərindən sızan yaşı gizlədə bilmədilər. Düşmən taqımı irəliləyir, görünməz nöqtələrdən üstlərinə saysız-hesabsiz güllələr yağır, tələbə döyüşçülər isə hələ də geri çəkilmək barədə düşünmür, son gülləlləriylə müqavimət göstərir, tək-tək atəş açmaqla acılarını soyutmaq istəyirdilər. Düşmən manevrlə yaxınlaşır, amma heç kim dillənmir, "Bir güllə-bir düşmən!" deyə komandirlərinin son tapşırığını yerinə yetirməyi özlərinə borc bilirdilər.

Özünə irəliləməkdə olan düşmənə daha yaxın yerdə mövqe seçən Ümidvar üzünü yoldaşlarına çevirib: – Bəsdir daha, geri çəkilirsiz! – deyə bağırdı: – Mən "avtomatiçeskiyə" keçirəm. Tez özünüzü asfalt yolun arxasına çatdırın! – hələ də dostunun öldüyünə inana bilməyən Ümidvar Xudaverənin, heç olmasa, cəsədini xilas edəcəyi ümidiylə bacardıqca döyüşü uzatmaq, tutduğu mövqedə

yubanmaq, imkan tapıb özünü dostuna yetirmək qərarına gəlmişdi.

Düşmən dayanmadan yaxınlaşır, atəş dayanmadan yağır, güllələr fasiləsiz olaraq başları üzərindən uçurdu. Ümidvar avtomatını ardıcıl atəşə qoymuşdu. Ani olaraq irəliləməkdə olan düşmən taqımına, ardınca da su anbarının yaxınlığındakı blindajda yerləşmiş pulemyotçuya güllə yağdırdı. Sonra cəld yerini dəyişdirib, bir qədər geri – döyüş yoldaşlarının arxasına doğrü çəkildi. Qəfil ayağa qalxıb, avtomatını gurlatdı. Düşmən taqımı müdafiə olunmaq üçün yer axtaran vaxt blindajdakı pulemyotçu Ümidvarı hədəfə aldı. Arif kanaldan çıxıb, asfaltın altındakı boruya doğru yüyürdü, amma yarıyoldaca səntirləyib yerə yıxıldı. Güllə ayağından, bud nahiyəsindən tutmuşdu. Elçin qaçıb, Arıfin yaxınlığında yerə uzandı, sürünüb özünü döyüş yoldaşına çatdırdı. Arif həm ayağından aldığı yaranın ağrısından, həm də yıxılanda başından aldığı zərbənin gücündən huşunu itirmişdi. Elçin silkələyib, onun salamat olduğunu yoxlamaq istədi – Arifdən səs çıxmadı. Arxası üstə çevirib, qulağını sinəsinə dayadı, ətrafdakı gurultudan başqa heç nə eşitmədi. Elçinin Arıfi dartıb atəş nöqtəsindən çıxarmaq cəhdi də baş tutmadı, – artıq buna gücü qalmamışdı. Bədəncə ucaboy, qədd-qamətli, igid cüssəli Arıfi heç yerindən belə tərpədə bilmədi. Uzandığı yerdəcə avtomatını düşmənə tuşladı, amma atəş açılmadı, – gülləlşri qurtarmışdı. Avtomatını yerə atıb, artıq ölü bildiyi Arifin avtomatını qamarladı. Düşmənlərə tərəf pərakəndə şəkildə bir neçə güllə yağdırıb, özünü asfalt yolun altındakı xilas borusuna çatdırdı. Bayaqdan onların hərəkətlərini nəzarətdə saxlayan

düşmən Arıfi ölmüş zənn edib, onu deyil, qəfil görünüb, dərhal da su borusunun içində gözdən itən Elçinin getdiyi yolu atəşə tutdu.

Bir neçə dəqiqədən sonra Arif gözlərini açdı. Yerindən qalxmadan ətrafına nəzər yetirdi, yanında heç kəsi görmədi. Qulaqları tutulmuşdu, eşitmirdi. Ayağında yüngülcə ağri hiss etdi, əlini yara aldığı budunun üstünə astaca sürüşdürdü, isti qanı əlində duyunca yaralandığını anladı. Ayağını hərəkət etdirməyə çalışdı, yarası hələ isti olduğundan çətinlik çəkmədi. Üzü üstə çevrilib, avtomatını axtardı. Tapmadı. Asta-asta asfalta sarı sürünməyə başladı. Bir az irəlilədikdən sonra qəfil qalxıb, qaçmağa çalışsa da, bir neçə addım atmamış başından aldığı güllə yarasından üzü üstə torpağa düşdü. Bayaqdan onu nəzarətdə saxlayan düşmən pulemyotçusu düz gicgahını nişan almışdı, amma güllə Arifin baş sümüyünü zədələmədən, gözünün böyrünü siyirib keçmişdı...

Huşsuz halda nə qədər qaldığını bilmədi. Özünə gələndə ətraf artıq qapqara qaranlığıydı. Əvvəlcə öldüyünü, əllərini tərpədə bildiyini anlayanda kor olduğunu düşündü. Əlini sifətində gəzdirib, yaralı gözünün üstünə sürüşdürdü. Laxtalanmış qapqara qan əlinə yapışıb, göz çuxurundan qopdu. Ətrafın işıqlandığını anladı... Qolandağ döyüşündə tələbə yoldaşı Məcidin də başından yara aldığını xatırladı. Məcid də başından yanpörtü güllə yarası almış, amma ciddi hesab etməyib əhəmiyyət verməmişdi. Bir-neçə gündən sonra hələ də balaca cızıq hesab etdikləri yaranın sağalmadığını görüb sıxanda içərisindən irinli qan sıçramışdı...

Asta-asta əllərini bədənində gəzdirdi – sağıydı və hərəkət edə bilərdi. Böyrü üstə çevrilib, ətrafı nəzərdən keçirdi. Heç nə eşidə bilməsə də, hələ tələbə döyüşçülərin bir qisminin kanaldan çıxa bilmədiklərini, direniş göstərdiklərini anladı. Güllələrin kanala yağış kimi axdığını, kanaldan əks istiqamətdə isə tək-tük, ara-sıra atəş açıldığını gördü. Arxası ustə uzanıb, bir qədər gözləmək, fürsət tapan kimi sürüşüb atəş xəttindən çıxmağı düşündü. Arxası üstə çevriləndə yanında bir cəsədin uzandığını gördü. Azərbaycan əsgəri idi. Görünür, o artıq çoxdan vurulmuş, bir qədər irəli – asfalt yola doğru sürünmüş, taqətini itirib, elə oradaca can vermişdi. Bunu süründüyü yol boyu axan qan izlərindən aydınca bilmək olurdu. Naməlum əsgər son nəfəsinə qədər ümidini itirməmiş, xilas üçün çabalamışdı. Vürüldüğu yerdən can verdiyi yerə qədər olan məsafə boyu sanki torpağı qanı ilə sulamış, sanki qanımla suvarılan torpaq işğal altında qala bilməz, düşmənə baş əyməz deyə dastan yazmışdı... Naməlum əsgərin bədəni bumbuz, sinəsi dəlim-deşik idi. Yəqin ki, pulemyot atəşiylə şəhadətə yetmişdi...

Hərəkət edəndə özünün hələ də güclü olduğunu hiss etdi, naməlum əsgərin avtomatını götürdü. Sanki naməlum əsgər ona ölməməyi əmr etmiş, qanıyla yazdığı dastanı bitirməyincə can verməməyi tapşırmışdı...

Uzandığı yerdən sürünüb, yerini dəyişdirdi. Avtomatını atəşə hazırlayıb, qəfil ayağa qalxdı, su anbarının yanındakı blindajı ardıcıl atəşə tutdu. Düşmən pulemyotçusu ani olaraq susunca, səntirləyə-səntirləyə qaçıb özünü asfalt yolun altındakı su borusunun içinə atdı, sürüşüb yolun arxa tərəfinə keçdi. Ayağa qalxsa da, bir-iki ad-

dımdan sonra yeriyə bilməyəcəyini başa düşdü. Qabaqda bir neçə Azərbaycan əsgəri görüb, qurtulduğunu anladı. Əliylə onları yardıma çağırsa da, əsgərlər özlərini ona yetirənə qədər dürüş gətirə bilmədi, huşunu itirib yerə yıxıldı...

## Nə qədər ki, qanı axıb qurtarmayıb

Düşmən artıq Xudaverəni də adlayıb irəli keçmişdi. Aramla, manevrlə irəliləyir, addim-addım su kanalına, Ümidvarın mövqe tutduğu təbii səngərə yaxınlaşırdi. Güllələr dayanmadan yağır, Ümidvar tez-tez yerini dəyişməklə ara-sıra cavab atəşi aça bilirdi. Amma inad göstərir, bacardıqca mövqeni tərk etməməyə çalışırdı. O tutduğu mövqedə çox yubana bilməyəcəyini anlayırdı.

Şüalarını gizlətməyə başlayan günəş qüruba sarı gedirdi. Bir azdan hava qaralacaq, düşmənin arxasında köməksiz, tənha qalmış şəhidlər görünməz olacaqdı. Bir azdan sonuncu mövqedə tək qalmış Ümidvarın son gülləleri də bitəcək, nə hələ də öldüyünə inana bilmədiyi Xudaverəni döyüş meydanından çıxara biləcək, nə də şəhadətə qovuşmuş Rovşənlə Fərhadın cəsədlərini götürə biləcəkdi. Artıq hər şey bitmişdi...

Sonuncu dəfə ehtiyatla başını səngərdən çıxarıb, uzaqdan yalnız qaraltıları görünən doyüş yoldaşlarının cəsədlərinə boylandı. Elə arxayın uzanmışdılar ki, sanki dostlarının qayıdacağına, uğrunda can verdikləri torpağı da, onların cəsədini də qurtaracağına inanırdılar. Ayaqlarını sürüyə-sürüyə səngərdən çıxdı, qaçıb özünü asfalt yolun altındakı su borusuna atdı.

Ümidvar uzaqlaşandan bir neçə dəqiqə sonra ermənilər tələbələrin sonuncu mövqelərini – kanalı ələ keçirsə də, çox duruş gətirə bilmədi. Tələbə döyüşçülərin köməyinə gələn Yerli Özünümüdafiə Batalyonunun əsgərləri artilleriya atəşiylə onları geri – əvvəlki mövqelərinə çəkilməyə məcbur etdi. Amma özləri də irəliləyə bilmədi, asfalt yolun arxasında, Tərtər rayonunun üç kilometrliyində movqe tutub, növbəti döyüş üçün hazırlığa başladılar. Şəhidlərimizin cəsədləri neytral zonada, düşmənin atəş nöqtəsində qaldı...

...Qulağına anlaşılmaz səslər gəldi. İnsanmı, heyvanmı, yoxsa təbiətinmi səsi olduğunu anlamadı. Sonra səs tədricən aydınlaşdı, anladı – insan səsiydi. Amma hansı dildə danışdıqlarını kəsdirə bilmədi, – nəsə anlaşılmaz bir dildə, həm də pıçıltıyla, qorxa-qorxa danışırdılar. Bir qədər sonra səs yaxınlaşdı, lap yaxında, başının üstündə, qulağının dibində danışırdılar sanki. Sonra səslər uzaqlaşdı və itdi. Amma gedəndə sağ qolunu da özləriylə apardılar elə bil. Gözlərini açıb – Ey, qolumu hara aparırsız? Qaytarın – deyə bağırmaq istəsə də, nə gözlərini aça, nə də bağıra bildi. Sadəcə, əlini yuxarı qaldırıb, qolunu aparanların arxasınca uzatdı. Gözlərini açanda havaya qaldırdığı əlində cəmi iki barmağının qaldığını gördü. Üç barmağı kəsilmişdi, yerlərindən qanı damırdı. Əlini gözlərinə yaxınlaşdırdı, – baş və şəhadət barmaqları salamatıydı. Kəsik barmaqlarından sifətinə, gözlərinə qan damcıladı. Diksindi, gözlərinə damcılayan qan damlalarının acısından kipriklərini qapadı və acı-acı sıxdı. Gözlərinin göynərtisi çəkilincə, titrək kiprikləri ağir-ağır aralandı. Gözləri önündə ulduzlar sayrışırdı.

Uzaq qaranlıqlardan süzülüb, gözlərinə dolan şüanın gücünə tab gətirə bilmədi – gözlərini yumdu. Hələ işığa öyrəşməmişdi. Amma qolunu kimlərinsə apardığını xatırlayınca, tez sol qolunu sağ çiyninə yaxınlaşdırdı. Ürpəndi. Sağ qolu həqiqətən də yoxuymuş kimi ürpəndı. Qeyri-ixtiyarı gözlərini açdı. Sağ qolu yerindəydi! Ona elə gəldi ki, zənni onu aldadır. Onun üçün bu dəqiqə normal sağ qolunun həqiqətən də kəsilmiş olması idi sanki. Asta-asta qolunu tərpətməyə çalışdı. Sağ qolunu rahatca yerindən qaldıra bildi. Barmaqlarının kəsilmış yerinə baxmaq istədi. Qolunu titrəyə-titrəyə gözlərinə yaxınlaşdıranda barmaqlarının da yerində olduğunu gördü. Yalnız avtomatı üstündə yoxuydu. Təəccübləndi. Gözlərini qapayıb, beyninin dərinliklərinəcən endi. Nə isə xatırlamağa, nə isə bir ipucu tapmağa çalışır, amma avtomatından axırıncı dəfə nə vaxt atəş açdığını xatırlaya bilmirdi. Yalnız avtomatı yanıyla sürüdüyü, axırda isə Ümidvarın silahı sinəsinə qoyduğu yadındaydı, özü də uzaq illərin o üzündə qalmış xatirə kimi...

Yenidən gözlərini açdı. Yenə də ilk gördüyü uzaq səmada sayrışan saysız-hesabsız ulduzlar oldu. Ətraf tam sakitlik idi. Uzaqlardan ara-sıra çaqqalların vaqqıltısı, hərdən də avtomat gurultusu eşidilirdi. Amma bu səslər təbiətin əbədi ahəngində tez də yox olub gedir, ətrafa sükút çökürdü. Ölmədiyinə tam əmin olmaq üçün başını tərpətdi. Ətrafa boylandı, – tam qaranlığıydı. Beyni, düşüncələri yenə qarışdı. Harada olduğunu xatırlaya, dəqiqləşdirə bilmirdi. Bura hara idi? Nə gəzirdi o burada? Gözlərini qapadı, düşünmək, xatırlamaq, bura necə gəlib düşdüyünü yadına salmaq istədi...

Əvvəlcə uşaqlıq illəri, doğma kəndləri, həyətləri, məktəbləri, məktəb yolları, anası, qardaşları yadına düşdü. Amma buralar heç də o yerlərə oxşamırdı. Niyə burada idi?.. Niyə burada yıxılıb qalmışdı? Kəsdirə bilmədi ki, bilmədi. Tərpənmək, yerindən qalxmaq istədi, qarnında, qıçlarında küt bir ağrı hiss etdi. Əllərini qarnının üstünə sürüşdürdü. Əllərində soyüq, yapışqan kimi bir təmas hiss etdi. Tez əlini gözlərinə yaxınlaşdırdı. Qanıydı, qaranlıq da olsa, qanın qoxusu, rəngini dəqiq tanıdı. Və yalnız indi xatırladı. Ayağından, qarnından güllə yaraları aldığı yadına düşdü. Demək ölməmiş, düşmən gülləsi axırına çıxa bilməmışdı. Bir qədər əvvəl ağrıdan qovrulduğunu, Ümidvarın onu sürüdüyünü, məni öldür deyə Ümidvara yalvardığını xatırladı. Amma Ümidvar onu öldürmək üçün özündə cəsarət tapdımı, bunu xatırlaya bilmədi. Bəs, indi hardadır Ümidvar? Bəs, dost hanı, düşmən hardadı, anlaya bilmədi. Dirsəklərinə dayaqlanıb, azacıq qalxmaq istədi. Qarnında və ayaqlarındakı ağrı yenidən güclənsə də, buna məhəl qoymadı. Qalxdı, yanı üstə oturub, ətrafı nəzərdən keçirdi. Hər tərəf qapqara qaranlığıydı, elə bil böyür-başına qara bir pərdə çəkilmişdi. Amma olub bitənləri anlaya bilmişdi. Demək, döyüş bitmişdi. Demək, tələbə taqımı geri çəkilmiş, onu özləriylə götürə bilməmişdilər. Demək, Ümidvar onu güllələməmişdi. Güllələsəydi, daha bir güllə yarası olardı, həm də başında. Qeyri-ixtiyari əlini başına apardı, barmaqlarını saçlarının arasında gəzdirdi. Güllə yarası tapmadı. Yalnız səmaya baxanda işıq üzü görə bilirdi, amma ulduzlar da ona harada olduğunu, hansı tərəfdə dost, hansı tərəfdə düşmənin yerləşdiyini bildirməkdə aciziydi.

Qəfil texnika səsı eşidildi. Xudaverənin uzandığı yerdən təxminən bir kilometr aralıda bir maşın sürətlə irəli şütüdü. Maşın fənərlərini yandırmasa da, düşmən onun hərəkət istiqamətini dərhal aydınlaşdırmışdı. Maşın ardıcıl atəşə tutuldu. Odsaçan güllələr maşının yaxınlığına qədər uçuşub yox oldular. Güllələrin işığından maşının "Jiquli" olduğu aydınca sezilirdi. "Jiquli" təxminən yüz metr irəlilədikdən sonra dayandı və dərhal da dönüb, gəldiyi istiqamətdə geri şütüdü. Xudaverən gəldiyi və gedəcəyi istiqaməti aydınlaşdıra bildi. "Jiquli" onların səhər saatlarında gəldikləri asfalt yolla irəliləmişdi. Yəqin ki, maşın ya şəhidlərin ardınca gəlmək istəmiş, ya da onları neytral zonadan çıxarmaq üçün kəşfiyyat xarakterli bir gediş etmışdi...

Onu qarşıda uzun bir yol gözləyirdi. O bu yolu sürünərək getməliydi. Tərtərdən Marquşavana gedən asfalt yola sarı sürünməyə çalışdı. Bir azdan hava işıqlaşacaq, düşmənin uzağıgörmə cihazları onun bütün hərəkətlərini izləyəcək, erməni avtomatlarının nişangahlarından asanlıqla hədəfə götürüləcəkdi. Tələsməliydi! Amma nə fiziki gücü, nə yaralarının getdikcə şiddətlənən ağrıları, nə də əlverişsiz yol onun tez bir zamanda bu tikanlı, kol-koslu, daş-kəsəkli çöllükdən asanlıqla keçməsinə imkan verirdi. Elə ilk cəhdindəcə yaraları qanamağa başladı. Amma indi o, yaralarının qayğısına qalmaq hayında deyildi. Bacardıqca özünü irəli atmağa, atəş xəttindən uzaqlaşmağa çalışırdı. Yolunu kanalın içindən sala bilməzdi, çünki kanal topuğa qədər suyla doluydu. Yaraları ona ayağa qalxmağa imkan vermədiyindən, yalnız sürünərək getmək məcburiyyətindəydi. Kanala düşməyib, onun qı-

rağıyla hərəkət etsə, gullələrin işığında düşmən onu asanlıqla görüb, hədəfə ala bilərdı. O, uzaq da olsa, kanaldan təxminən on-on beş metr aralıdakı asfalt yol istiqamətində hərəkətə başladı. Hərəkət etdikcə qanı dayanmadan axır, gücü getdikcə tükənir, anbaan taqətdən düşürdü. Amma həyat eşqi onu dayanmamağa, sürünməyə, heç nəyə məhəl qoymadan irəliləməyə məcbur edirdi. Sifəti cızıq-cızıq olmuş, sürünməkdən dirsəklərinin, dizlərinin dərisi getmişdi. Artıq gücü tükənmişdi, qolları onu torpaqdan qaldırmaq iqtidarında deyildi.

Yolu dəyişdiyinə görə məsafə xeyli uzanmışdı. Özünü kanalın sağ tərəfindəki üzüm tənəklərinin arasına çatdıra bildi. Üzüm sahəsinə girməklə yolu xeyli uzatsa da, düşmənin hədəfindən yayındığı üçün təhlükəsizlikdə idi. Bu yolla o, bir neçə yüz metr irəliləyib, açıq sahəyə çıxmalı, açiq sahədən qaçaraq özünü asfalt yolun arxasına atmalıydı. Bunu bacaracaqdımı? Bilmirdi! Dayandı, bir qədər dincini almaq, qüvvə toplamaq üçün arxası üstə çevrilib, gözlərini qapadı, əlini dayanmadan qanı axan yaralarının üstündə gəzdirdi. Ağrıdan sıxdığı dişlərinin şaqqıltısı beynini titrətdi...

Tərtər tərəfdən texnika səsi eşidildi. Sürünməkdən dərisi getmiş dirsəklərinə dayaqlanıb, səs gələn istiqamətdə boylandı. Azərbaycan tankıydı! Asfalt yolla bir neçə saat bundan qabaq ağır döyüşlər getmiş Marquşavan kəndi istiqamətində irəliləyirdi. Fənərlərini yandırmasa da, qaraltısı uzaqdan aydınca görünürdü. Tankın döyüş getmiş sahəyə yalnız girməsi onun hücumdan deyil, şəhidləri meydandan götürmək məqsədindən xəbər verir-

di. Yaralı əsgərə güc gəldi, ağrılarına, canının sızlamasına, qanının dayanmadan axmasına məhəl qoymadan asfalt yola sarı daha əzmlə sürünməyə başladı. Nə qədər ki, tankı ermənilər nişan almayıb, nə qədər ki, hava tam işıqlanmayıb, nə qədər ki, hələ qüvvəsi var, özünü tanka çatdırmalıydı! Üzüm sahəsində nə vaxtsa şumlanmış, indi palçığa dönmüş torpaqla, tənəklərlə, ot-ələflə, kol-kosla, tikanla çarpışmağa başladı...

Hava artıq işıqlanmağa başlamışdı, tank uzaqdan aydınca görünürdü. Amma nədənsə düşmən susur, tankı nişan almağa tələsmirdi. Tank inamla irəliləyirdi. Xudaverən tankın hərəkət etdiyi istiqamətdə süründüyündən zirehli maşının hərəkətini müşahidə edə bilmir, yalnız özünü onun hərəkət etdiyi asfalt yola vaxtında çatdırmaq üçün var gücüylə sürünürdü. Qəfil partlayış səsi eşidildi. Xudaverənin əlləri boşaldı. Torpağı qucaqlayıb yerindəcə qaldı. Qalxıb səs gələn tərəfə boylanmağa, nə hadisə baş verdiyini aydınlaşdırmağa cəsarət etmirdi. Tankın vurulduğunu düşünürdü. Zirehli maşının gurultusu isə hələ də kəsilməmişdi. Bu gurultu bir az da davam edib səngidi. Xudaverən ehtiyatla başını qaldırıb, asfalt yola sarı boylandı. Tankın ətrafında toz-torpağın qalxdığı aydınca görünür, zirehli maşın aşağı sürətlə hərəkət etməkdə davam edirdi.

Maşın elə gedə-gedə onun üst qapısı açıldı. Ekipaj tələsik özünü yerə atıb, tankın arxasına keçdi. Düşmən onları nişan almağa macal tapmamış asfalt yolun arxasında görünməz oldular. Zirehli maşın bir qədər də irəliləyib dayandı. Tankın sağ tərəfindəki tırtılları qırılmış, amma özünə heç nə olmamışdı. Yanğın-filan da müşahidə

olunmurdu. Tankı vurmamışdılar, o, asfalt yolda minaya düşmüşdü. Düşmən minanı asfalt yolda asfaltın altını böyür tərəfdən eşərək yerləşdirmişdi. Asfalt yolun üstündə heç bir iz, heç bir zədə müşahidə olunmadığına görə tankın ekipajı düşmənin bu hiyləgər taktikasını ağlına belə gətirməmişdi. Həm də həmin yolla bir neçə saat qabaq yüngül texnika hərəkət etdiyi, lakin partlayış baş vermədiyi üçün, tankın ekipajı şübhələnmədən hərəkəti davam etdirmişdi. Lakin tankın ekipajı həmin minaların yüngül texnika üçün deyil, ağır texnika üçün nəzərdə tutulduğunu, yüngül maşınların həmin minalar üzərindən asanlıqla keçə bildiklərini düşünməmişdi...

İndi Xudaverənin ümidi yalnız Allaha və öz gücünə qalırdı. Hava işıqlanmamış bu bitib-tükənməyən ölüm vadisindən çıxmalı, həyatını xilas etməliydi! Artıq qaranlıq çəkilməkdəydi! Artıq Xudaverən də bütün ağrılarını unutmuşdu...

Üzüm sahəsini keçib, açıq sahəyə çıxdı. Çevik hərəkətlə qaçıb, asfalta çıxmalı, eyni çevikliklə də özünü yolun arxasına atmalıydı. Açıq sahə də, tankın minaya düşdüyü asfalt yol da düşmən mövqelərindən aydınca görünürdü. Ermənilər bu yolda hərəkət edə biləcək bütün canlı qüvvə və texnikanı məhv etmək üçün tətikdə dayanmışdı. Nisbətən yoğun bir üzüm tənəyini sındırıb özünə çəlik düzəltdi. Çəliyə dayaqlanıb, ehtiyatla ayağa qalxdı, sürətlə maşın yoluna tərəf yeriməyə başladı.

Açıq sahəni maneəsiz keçdi. Sanki ermənilər də uzun və üzücü gecənin yorgunluğunu indi hiss etmiş, səhərin alatoranlığı onların gözünə hopmuşdu. Amma asfalt yola çatar-çatmaz ani gələn yuxu sərin səhər mehi kimi ani də

yox oldu. Düşmən asfalt yolun üstünə çıxmağa çalışan bir Azərbaycan əsgərini görmüşdü. Güllə açıldı! Xudaverən asfalt yolun ortasındaca səntirləyib yerə yıxıldı. Güllə ona dəyməmişdi, o qəfil açılan güllə səsinin xofundan səntirləmişdi. Dərhal Yerli Özünümüdafiə əsgərlərinin cavab atəşi eşidildi. Xudaverən qeyri-iradi özünü asfalt yolun arxasına çatdıra bildi. Diyirlənib yıxılsa da, çəliyinə dayaqlanıb, ayağa qalxmaq istədi. Uzaqdan onu görən iki Azərbaycan əsgəri kömək üçün Xudaverənə sarı yüyürdü. Lakin əsgərlər özlərini yetirənə qədər o, duruş gətirə bilmədi. Sanki torpaq yerindən qopub səmaya qalxdı, agaclar, dağlar səmadan üzüaşağı sallandı. Gözləri qaraldı, huşunu itirib torpağa düşdü...

## Epiloq əvəzi

Universitetə Rövşənin, Fərhadın və Xudaverənin şəhadət xəbəri gəlmişdi. Universitet şəhid tələbələrinin cənazəsini qarşılamağa hazırlaşanda daha bir xəbər alındı. Düşmənin nəzarəti altında olan torpaqdan sürünərək cıxa bilən yaralı Xudaverən xəstəxanaya yerləşdirilmiş, onun həyatı xilas edilmişdi. Rövşənin cəsədi düşməndən alındı və doğulub boya-başa catdığı yerdə torpağa tapşırıldı. Şuşa həsrətiylə yanan, Şuşa sevgisiylə qovrulan Fərhadın isə ruhu kimi, cəsədi də düşmənin işğal etdiyi torpaqlarda qaldı. Qaldı ki, torpaqlarımızı azad edəcək əsgərlərimizi qarşılasın...

*05.2017 – 04. 2018*

## FƏRİDƏ NƏNƏGİLİN PƏNCƏRƏLƏRİ

povest

Fəridə nənə nə qədər eləsə də, yenə bütün gecəni çimir eləməmiş, kirpik-kirpiyə vurmamışdı. Elə yenicə yuxuya getmək istəyirdi ki, ağartı satan qadının səsi beyninə işlədi: – Qatıq var! Qatıııq!!! Təzə süd var! Təzə süüüd!!!

Arvad gözlərini acmamış ağzını açdı:

– Səsin batsın, səs yiyəsi! – yorğanını kənara tullayıb, yerinin içindəcə oturdu: – Elə bil, boğazını gavahınla deşiblər batmışın! – gərnəşib tez-tələsik özünü pəncərəyə catdırdı:

– Ağəz, nolub, nöş bağırırsan səhər-səhərinə? Qoysana gözümüzün acısını alaq!

– Fəridə nənə, qaymaq kimi qatığım, yaxşı südüm var. Kənddən indicə gətirmişəm. Qaldırım yuxarı?

– Ağəz, südün də, qatığın da gözünə girsin elə. Kənddən qatıq satmağa gəlmisən, yoxsa camaatı dəli eləməyə?

Qatıqcı ona məhəl qoymadan ücüncü mərtəbədəki mənzilinin pəncərəsindən başını cıxaran gəlinə üz tutub, onun sualını cavabladı:

– Hə, hə, göndər gəlib aparsın. Banka da göndər.

Gəlin uşağı qatıq dalınca həyətə göndərmək üçün pəncərədən çəkildi. Fəridə nənə: – Gəl aaz, gəl, bunlara baş qoşsan, gərək bunların tayı olasan! – deyə otaqda özündən başqa guya kimsə varmış kimi şikayətləndi, pəncərəni əsəbi hərəkətlə örtüb, otağa döndü. Amma qapıya catmamış pəncərənin öz çərçivəsinə dəyib, yenidən açıldığını gördüyündən qatıqçı yadından çıxdı:

– Topal olasan səni, ağəz, ehmal örtsənə! – deyə geri qayıtdı.

Televizoru yandırıb, mətbəxə keçdi, çaydanı qazın üstünə qoydu. Səhər yeməyini hazırlayanacan çaydan qaynadı. Çayın dəm almasını gözləməyə səbri nə gəzirdi – iki stəkan çay süzüb, otağa gayıtdı. Televizorun qabağında oturub, harasa tələsirmiş kimi qaynar cayı üfləyə-üfləyə içməyə başladı:

– İç, iç, indicə yeməyimiz də hazır olar. – Stəkanı şaqqıltıyla nəlbəkiyə qoydu. Qalxıb mətbəxə keçdi. Tavadakı yağ zəif qazın üstündə artıq ərimişdi. Iki yumurtanı tavaya çırpıb, çalmağa başladı:

– Ay qız, bu bizə bəs eləyəcək? – öz sualına özü də cavab verdi: – Bəsimizdir, əlbəttə, bəsimizdir, at deyilik, dəvə deyilik. Bəs elər, hələ desən, artıq da qalar...

Qapı döyüldü. Dilbəriydi, qonşusu:

– Çörəyə gedirəm, sənə də alım?

Suala cavab vermədən geri qayıtdı, televizorun üstündən pulqabını götürüb, yenidən giriş qapısına tərəf addımladı:

– Alanda bax ha, qara-qurasını alıb gətirmə!

Min yeddi yüz əlli manat ayırıb Dilbərə verdi. Dilbər pulu götürsə də, qapıdan çəkilməyib, sual dolu gözlərini Fəridə nənəyə dikmişdi. Arvad qonşunun nə istədiyini dərhal anladı:

– Hə, zəng eləmişdi, qurban olduğum. Axşam saat on ikidə. Elə təzəcə yatmışdıq ki, zəng gəldi. Amma gecikdik. Biz telefona catanacan zəng kəsildi. – Fəridə nənə uydurdu: – Orda, axı, bizdən bir saat soora axşam olur. Elə həmişə o vaxtlar zəng edir qurban olduğum.

Dilbər qonşusunun sözlərinə inanmadı. Bayaqdan əlində saxladığı pulu çantasına qoyub, bir söz demədən pillələri düşməyə başladı. Fəridə nənə qonşusunun ona inanmadığını başa düşdü, aşağıdakı mərtəbədə gözdən itənə qədər yerindən tərpənməyib, onun ardınca baxdı. Bir yandan inamsızlığına görə Dilbərdən inciyir, o biri yandan da qonşunu inandıra bilmədiyinə görə özünü qınayırdı. Axı, axşam saat on ikidə, doğrudan da, zəng gəlmişdi. Amma bu da var ki, zəng edənin Nazim olub-olmadığını bilmirdi. Yadındaydı, bir neçə il qabaq da Nazim ona elə təxminən həmin vaxt zəng eləmişdi – gecə saat on ikidə. İndiki kimi yadındaydı, elə bil indicə danışmışdılar, səsi hələ də qulaqlarından getmirdi. Oğlunun uzaqdan gələn xırıltılı səsi sanki indicə qırılacaqmış kimi telefon telinin içindən üzülərək gəlirdi. Nazim anasına orada evləndiyini deyir, işlərinin yaxşı getdiyindən, yaxşı dolandığından danışırdı. Fəridə nənəni isə daha çox oğlunun can sağlığı və təzə gəlini maraqlandırırdı. Nazimin çox danışmağa imkanı olmasa da, anasının butun suallarına cavab vermişdi. Fəridə nənə öyrənmişdi ki, gəlininin adı Tatyanadır, amma oğlu onu Tanya çağırır. Özü də çox gözəldir, onun düşündüyü kimi – sarışın, göygöz yox, ağbəniz, qaraqaş-qaragöz, qarasaçdır...

...Sonra oğlunun səsi kəsildi. Özü də elə vaxtda kəsildi ki, yazıq arvad Nazimə öz halından, əhvalından danışır, vəziyyətinin yaxşı olduğunu, təqaüdünün ona bəsdi deyincən çatdığını, heç nədən korluq çəkmədiyini, təkcə oğul xiffəti elədiyini deyirdi... Xətt kəsildiyindən Nazim anasının sözlərini eşitmirdi, amma Fəridə nənə bunun fərqində deyildi, danışırdı. Ona elə gəlirdi ki, oğlu anası-

nın hər sözü, hər kəlməsini yanğıyla, hava kimi, su kimi ciyərlərinə çəkir. O hətta fürsət tapıb, qonşularıyla mehriban dolandığından, qonşuların hər gün Nazimi azı əlli dəfə xəbər aldıqlarından da danışırdı...

Nazimin son zəngindən bir neçə ay sonra Fəridə nənə oğlundan məktub aldı. Məktub da elə eyni məzmundaydı, bircə ata olması təzə xəbərdi. Nazim Tanyayla, qızı Fəridəylə çəkdirdiyi şəkli də anasına göndərmişdi. Bir də əlli dollar pul...

...Yanıq qoxusu arvadı xəyaldan ayırsa da, mətbəxə tələsmədi. Əslində, buna mətbəx demək düz deyildi. İyirmi il qabaq rəhmətə getmiş əri mətbəxi yataq otağı, yataq otağını qonaq otağı eləmiş, mətbəxi isə birotaqlı mənzilin balkonuna keçirmişdi...

Stola düzdüyü stəkanları – öz stəkanını da, dolu qalmış o biri stəkanı da götürüb, asta addımlarla qaz peçini söndürməyə getdi. Mətbəxin tavanı tüstüdən görünmürdü. Pəncərəni açdı ki, evin havası bəlkə bir az dəyişsin. Özünü unutduğundan stəkandakı çayı pəncərədən həyətə necə atmasından xəbəri olmadı. Pəncərinin altlığına dayaqlandı. Tüstü çəkilənəcən gözləmək, sonra təzədən qayğanaq bişirmək istəyirdi ki, aşağı mərtəbədə yaşayan Nisənin səsini eşitdi:

– Çayı niyə uşağın başına tökürsən, ay kaftar?!

Nə dediyini anlamadı:

– Nə deyirsən, ay qız? – deyə sanki qulağını Nisənin dodaqlarına yaxınlaşdırırmış kimi aşağı dartındı.

– Deyirəm korsan, çayı niyə uşağın başına tökürsən?! – Nisə daha da coşdu. Fəridə nənə çaşdığını, çayı əlüzyuyana yox, həyətə atdığını indi anladı. Amma özünü sındırmadı:

– Aaz, yeri, aaz, yeri o yana! Ordan bura bağırmaqdansa, yeri uşağın başını qurula! Görüm elə başın batsın! – Qonşunun səsini eşitməsin deyə pəncərədən çəkildi: – Gəl az, gəl, gəl bəri, bu da adam olub! Ağrım ürəyinə! Qarğa da özünü quş bilir!.. – Qayğanaq bişirməyi də unudub, qonaq otağına keçdi. Şaqqıltıyla televizorun kanalını dəyişdi. Amma oturmağa macal tapmamış qapı döyüldü.

– Gedək, görək Dilbər bizə necə çörək gətirib.

Gələn poçtalyonuydu. Fəridə nənə bir söz deməyib, düz onun gözlərinin içinə baxır, nə deyəcəyini gözləyirdi. Artıq bir neçə iliydi ki, yazıq arvad poçtalyondan heç nə soruşmur, həmişəki cavabı eşidəcəyindən qorxurdu. Bu elə poçtalyonun da ürəyincəydi. “Yoxdur” deyib qan qaraltmaqdansa, susmaq yaxşıydı. Küçədə rastlaşanda da bir-birinin yanından yad adamlar kimi sivişib ötür, çalışırdılar ki, baxışları toqquşmasın. Amma bu onlara elə də asan başa gəlmirdi. Sual dolu nəzərlər altında başını aşağı salıb keçmək poçtalyon üçün nə qədər ağırıydısa, onu belə məzlum görmək də Fəridə nənəyə çətin gəlirdi.

Amma poçtalyon ötüb keçəndən sonra Fəridə nənə ayaq saxlayıb, onun ardınca baxmaqdan, köks ötürməkdən özünü saxlaya bilmirdi. Poçtalyon isə qarının nəzərlərini ağır yük kimi kürəyində hiss etdiyindən xeyli uzaqlaşandan sonra belə geri boylanmağa cəsarət etmirdi…

…Gözlərini ev sahibəsinin nəzərlərindən yayındırmaqda sükut ona bəhanə oldu. Üzünü Dilbərgilin qapısına tərəf çevirib soruşdu:

– Bunlar evdə yoxdular?

Fəridə nənə özündə deyildi, sanki ruhu cismindən qopub, göylərdə pərvaz edirdi. Poçtalyonun nə dediyini belə eşitməmişdi. Bu neçə ildə birinci dəfəydi ki, poçtalyon onun qapısını döyürdü. Həyəcandan bütün bədəni tir-tir əsir, ürəyi az qala yerindən qopacaqmış kimi uçum-uçum uçunurdu. Poçtalyon onun qapısını döydüyünə peşman olmuşdu. Özünü itirdiyindən nə edəcəyini, vəziyyətdən necə çıxacağını bilmirdi.

Aşağı mərtəbədən ayaq səsləri eşidildi və bir an keçmədi ki, Dilbər dördüncü mərtəbənin pillələrini buruldu. Onun bu gözlənilməz gəlişi hər ikisini çıxılmaz vəziyyətdən qurtardı. Poçtalyon sevincək Dilbərin qarşısına yüyürdü:

– Dilbər xala, sizə İcra Hakimiyyətindən məktub var! – deyə əlini çantasına atdı. Dilbər məktubu alar-almaz poçtalyonun ayaq səsləri artıq birinci mərtəbədən gəlirdi...

– Canın yansın sənin, canın! – Fəridə nənə Dilbəri gözləmədən, qapını da açıq qoyub, otağa qayıtdı. Dilbər də onu narahat eləmədi.

– Çörəyi dolabçanın üstünə qoydum – dedi: – Yaxşısını seçmişəm, arxayın ol.

Qonşu qapını astaca arxasınca çəkib getdi. Fəridə nənə kreslodan qalxıb, ayağını çəkə-çəkə yenidən televizora yaxınlaşdı. Televizorda nə getdiyinin fərqinə varmadığı kimi hansı kanala çevirdiyinin də fərqində deyildi. Təki evdən səs gəlsin. Oğlu, gəlini və nəvəsinin birgə şəklini televizorun üstündəki saata dayamışdı. Şəkli götürüb, yerinə qayıtdı, amma yerində qərar tutmadı. Qalxıb servanta yaxınlaşdı, siyirməni çəkdi, axtarıb-axtarıb, oğ-

lunun bir neçə il bundan qabaq göndərdiyi məktubu tapdı. Zərfi açа-аçа gəlib, kresloya əyləşdi.

"Salam ana, biz yaxşıyıq" – ilk dəfə məktubun bu ilk cümləsini oxuyanda "Biz" nədir, ə? – deyə təəccüblənmişdi. Amma dərhal da yadına düşmüşdü ki, bu barədə hələ məktubu oxumamış xəbər tutub – oğlunun bir neçə ay qabaqkı zəngindən, bir də məktubu açan kimi gördüyü şəkildən. Əvvəllər oğlu ona şəkil göndərməzdi. Məktubunda da ancaq "mən" yazar, yalnız öz adından danışardı. İndi artıq "biz"ə keçmişdi.

"İstəyirəm ki, sən də yaxşı olasan".

– Yaxşıyam, qurban olum, mən də yaxşıyam!

"Anacan, gec məktub yazdığıma görə məni bağışla. Axı, mən hərbçiyəm. İxtiyarım öz əlimdə deyil".

– Allah bağışlasın, bala! Təki sağ-salamat ol, elə bu mənə bəsdir.

"Anacan, bu şəkildə gördüyün Tanyadır. Əsil adı Tatyanadır. Amma Tanya deyirik". Oxumağa aram verib, digər əlində tutduğu şəklə baxdı:

– Elə bil heç xaxol deyil bu Tanya. Gözündən, qaşından, sifətindən gör necə də bizimkilərə oxşayır.

"Anacan, Tanya komandirimin qızıdır. Onlar da mənim kimi gəlmədirlər. Ukraynadan gəliblər. Onun da atası hərbi məktəbi qurtarandan sonra burada qalıb. Elə burada da evlənib".

Yenidən oxumağa ara verdi. Əlindəki şəkli gözündən xeyli aralı tutub, diqqətlə baxmağa başladı. Arvad yaxından yaxşı görmürdü. Ona görə məktubu elə beləcə uzaq tutub, oxumağa davam elədi. Amma kağıza baxmadan –

məktubda yazılanları o qədər oxumuşdu ki, artıq əzbər bilirdi:

"Bu gördüyün qızcığaz isə balaca Fəridədir. Mən onu "Anam" deyə çağırıram".

– Anam deyən dilinə qurban!

"Anacan, balaca Fəridə, doğrudan da, sənə oxşayır. İndidən bilinir ki, böyüyəndə də sənin kimi boylu-buxunlu, gözəl olacaq".

– Boooy, düz deyir, az, az, vallah, gör mənə necə oxşayır eee. Bax, bax – kiməsə göstərirmiş kimi şəkli yana cevirdi. – Gözlərinə bax, burnuna, qaşına, sifətinə bax hələ, sən Allah! Saçları da elə uşaqlığımda olduğu kimi qıvrım-qıvrımdır. Eynən mənəm, eynən,.. yaradanına qurban!..

Telefon zəng çaldı. Rəfiqəsi ona iş tapdığını deyirdi. Fəridə nənə darıxmasın, başı qarışsın deyə rəfiqəsi Xanımdan ona iş tapmasını xahiş eləmişdi. Xanım xala da Politologiya institutunun yataqxanasında ona iş tapmışdı. Girişdə oturub gəlib-gedənləri qeydə alacaq, açarları otaq yiyələrinə verəcək, yataqxanadakı nizam-intizama nəzarət edəcəkdi.

Şəkli televizorun üstünə, zərfi də qaytarıb öz yerinə qoydu. Tələsdiyinə görə yox, məktubu oxuyub bitirmək istəmədiyinə görə. Məktubu oxumaqdan aldığı zövqün bitməsini istəmir, gündə bir neçə dəfə əlinə götürsə də, heç vaxt axıra qədər oxumurdu. Qəfil zəng də bir bəhanə oldu...

***

İlk iş günü çox darıxdırıcı keçdi. Əvvəlcə komendantla tanış oldu, sonra Rəhim kişi, sonra yataqxana,

daha sonra da tələbələrlə. Əslində, yataqxanada təkcə tələbələr qalmırdılar. Burda yurd-yuvalarından didərgin düşən qaçqınlar da, evi olmayan institut məzunları və aspirantlar da, hətta hansı yollarla gəlib çıxdığı məlum olmayan alverçilər də varıydı. Bir sözlə, aləm bir-birinə qarışmışdı, it yiyiəsini tanımırdı. Fəridə nənəyə təəccüblü gələn qızların da yataqxanada yaşamalarıydı...

Arvad Rəhim kişiyə tez bələd oldu. Növbəni təhvil götürəndə bir saat, təhvil verəndə isə onca dəqiqə bir yerdə olmaları arvada kifayət elədi ki, Rəhim kişini əməlli-başlı tanısın: "Zalım oğlu elə bil zəhər tuluğudur, gətirib burda qoyublar ki, gələn– gedənin kefinə soğan doğrasın".

Növbəni təhvil götürəndə onun köməyinə ehtiyacı olduğu üçün bir saat qanının qaralmasına məcburuydusa, təhvil verəndə belə köməyə ehtiyacı yoxuydu. Ona görə də Rəhim kişi yataqxananın qapısından içəri girən kimi yığışdı. Elə bil evdə doğma adamını baxımsız qoyub gəlmişdi. Amma Rəhim kişi onun yataqxananı belə tez tərk etməsinə razı olmadı. Açarlardan tutmuş süpürgələrə, koridordakı stol-stuldan tutmuş hamam otağındakı avadanlıqlara qədər hər şeyi bir-bir yoxlayıb təhvil aldı. Sonra da özünün tərtib elədiyi jurnalı qollayıb, arvaddan əl çəkdi. Yataqxanadan çıxanda Fəridə nənənin çiynindən elə bil ağır yük götürülmüşdü. Yeyin addımlarla dünəndən tənha qoyduğu evinə, mənzilində tək buraxdığı xəyali rəfiqəsinin yanına tələsdi. Dünəndən ürəyi onların yanında qalmışdı. Hətta gecə uzunu kimsəsiz mənzilinə bir neçə dəfə zəng edib, cavabsız siqnalların üzüntülü səsinə qulaq asmışdı. Sanki uzun-uzadı düyüldəyən bu siqnal-

lardan mənzilinin nəfəsini duymuş, xəyali rəfiqəsindən xəbər tutmuşdu...

– Salam, aaz – çiyin çantasını elə girişdəcə dolabın üstünə qoyub, içəri keçdi. Qonaq otağında, yataq otağında, mətbəxdə xeyli dolaşandan sonra təzədən dəhlizə qayıtdı. Aralı saxladığı qapını bağlayıb, içəridən kilidlədi. Paltosunu çıxarıb, asılqana keçirdi.

– Gəl, gəl, yeməyimizi hazırlayaq – mətbəxə addadı. Qazı yandırmazdan qabaq pəncərəni açıb, həyəti nəzərdən keçirdi. Uşaqlar çantalarını sürüyə-sürüyə məktəbə gedirdilər. Universitetdə rus dilindən dərs deyən Tahir müəllim həyətdə durub, pəncərədən boylanan həyat yoldaşına nəsə tapşırıqlar verir, ev dəllalı işləyən Xanlar cib dəftərçəsini varaqlaya-varaqlaya həyətdə var-gəl eləyirdi...

...İki stəkan çay süzüb, elə mətbəxdəcə divara söykədiyi ensiz stolun üstünə qoydu. Pəncərənin şüşəsini həm bayır, həm də içəri tərəfdən silib təmizlədi. Kətili altına çəkib, pəncərənin qarşısında oturdu. Bir gözü həyətdə çayını nəlbəkiyə süzüb, üfləyə-üfləyə içdi.

– Bax aa, bazarlıq eləmək yadımdan çıxıb! – qalxıb deyinə-deyinə soyuducuya yaxınlaşdı.

– Yumurtamız qalıbmı?

Soyuducunun gözündə iki yumurta qalmışdı. O, adətən iki nəfərlik bazarlıq elədiyi kimi yumurtanı da həmişə cüt alırdı.

– Bəsimizdir. – yumurtaları qoyduğu alüminium qazançaya krantdan su alıb, qazı yandırdı, qazançanı qazın üstünə qoydu. Stəkanları yaxalayıb, yenidən pəncərənin

qabağında oturdu. Axşamı yatmadığından yeməyini yeyib, yataq otağına kecəcəkdi. Amma nədənsə tələsmirdi. Yumurtalar hazır olandan sonra bir xeyli qazanda qaldı. Handan-hana özünə gəlib, yumurtalardan birini qabağındakı boşqaba qoydu. Bir gözü həyətdə uzun-uzadı stolun üstünə döyəcləyərək əzdi.

– Gəlmədi, yox, yəqin bir işi çıxıb. – Fəridə nənə qatıqsatan qadının gəlişini gözləyirdi. Saat doqquzu keçmişdi. Adəti üzrə o, doqquza işləmiş artıq məhəllədə olardı. Arvad onun səsinə öyrəşmişdi. Əslində qatıqsatanın səsi gəlməmiş Fəridə nənə oyanar, amma o, "qatıq vaaar, təzə qatıııq!" – deyə məhəlləyə səs salmayınca, yatağından qalxmazdı.

Yumurtanı bol-bol duzlayıb, çörəksiz yedi. Stolun üstündəki yumurta qabıqlarını yığışdıranda yeyilməmiş ikinci yumurtanı da qabıqlarla birlikdə götürüb, zibil vedrəsinə atdı. Saat artıq ona qalırdı.

– Gedək, aaz, gedək yataq, bu gələnə oxşamır. – qatıqsatanın daha gəlməyəcəyinə əmin olunca yataq otağına keçdi...

***

Qapıdan içəri girən kimi Rəhim kişi saatına baxdı – doqquza üç dəqiqə işləyirdi. Fəridə nənə düz üç dəqiqə gecikmişdi. Rəhim kişi növbə yoldaşının təzə olduğunu nəzərə almadı:

– Gecikirsən aaa,.. arvad, gecikirsən! Çalış, işə vaxtında gəl!

Fəridə nənə elə bilirdi ki, çox gecikib. Çünki evdən çıxmamış pəncərənin qabağında bir xeyli durub, həyəti seyr etmiş, sonra da həyətdə ləngimişdi. Nə sirriydisə,

qatıqsatanı görməmiş məhəllədən çıxa bilmirdi. Özü də yaxşı bilə-bilə ki, onun gəlişinə hələ azından onbeş-iyirmi dəqiqə var...

Fəridə nənə dəqiq adamıydı, saat-zad gəzdirməyi sevməz, vaxtı saatsız da bilər, hətta yuxudan istədiyi vaxt durmağı belə bacarardı. Dünən axşamacan arın-arxayın yatmış, axşamçağı isə düz saat altıda yatağından qalxıb, qonşusu Dilbərə baş çəkmişdi. Qapının kandarındaca söhbətləşmişdilər. Fəridə nənə uzaq səfərdən qayıdıbmış kimi evdə olmadığı bir gün ərzində həyətdə nə yeniliklər olduğuyla maraqlanmış, məhəllədəki bütün tanıdıqlarını bir-bir soruşmuşdu. Dilbər də hesabat verirmiş kimi qonşusunun bütün suallarına tələsmədən cavab vermiş, sonra isə Fəridə nənənin işiylə bağlı özü suallara keçmişdi. Fəridə nənə əvvəl-əvvəl könlünə yatmadığı şeylərdən başlamış, Rəhim kişidən danışmış, dünən təzə tanış olduğu dəqiqələrdə Rəhim kişi haqqında ürəyindən nələri keçirmişdisə, hamısını olduğu kimi dilinə gətimişdi.

...Oğlunun məktubunu oxumağa dünən qaldığı yerdən davam etdi.

“Anam” sözünün mənasını Tanyaya da başa salmışam. O uşağa öz dillərinə uyğyn “Anna” deyir.

– Anam, Anam... Anna, – deyə Fəridə nənə yenidən sol əlindəki şəkli sifətindən xeyli uzaqlaşdırıb, gah elə, gah da belə tutaraq, iynə saplayırmış kimi diqqətlə baxmağa başladı.

– Anna, Anna... eləcə Nazimin uşaqlığıdı ki durub. – Qalxıb servantın gözündən ailə albomunu götürdü, axtarıb Nazimin bir neçə uşaqlıq şəklini tapdı. Annanın şəklini ortada qoydu, Nazimin şəkillərini onun ətrafına düzdü.

– Bax, bax, aazz, eynən Nazimdir, eynən! – deyə kreslonun bir küncünə qısıldı. Sanki kimsə çiyniylə ona toxunub, özünün baxması üçün bir qədər kənara çəkilməsini xahiş edirdi.

– Oxşayır? – soruşdu.

– Oxşayır da sözdür – cavab da verdi. – Elə bil lap bir almadır, yarı bölüblər – pıçıldadı. Gözlərini şəkillərdən ayırmadan məktubu oxumağa davam elədi: "Qaynatam da, dostlarım da Fəridəni Anna çağırırlar. Amma hərdən "Farda" da deyirlər. "Anam" sözünün mənasını bildiyindən qaynatamın ona "mamıçka" deməkdən də xoşu gəlir"...

...Fəridə nənə Rəhim kişinin az qala onun gözünə soxduğu saatının əqrəblərinin səkkizi cəmi üç dəqiqə keçdiyini görəndə özünü saxlaya bilmədi:

– Gecikirsən, gecikirsən, altıaylıq-zadsan bəyəm?! Üç dəqiqə gec getsən, xəncərinin qaşı düşməz ki!

Rəhim kişi özünə bab adama rast gəldiyini görəndə söhbəti uzatmaq istəmədi:

– Yaxşı, yaxşı, ay arvad, söz güləşdirmə, mənim səninlə çənə döyməyə vaxtım yoxdur. Gəl, növbəni təhvil götür. – deyə dizlərinə dayaqlanıb, ayağa durdu. Dünən təhvil götürüb, qol çəkdiyi kimi, bu gün də hər şeyi bircə-bircə təhvil verib, jurnalı Fəridə nənənin qabağına itələdi. Stolun üstündəki kitabı siyirmədən çıxardığı komandir portfelinə, portfeli də yemək gətirdiyi əl çantasına qoydu.

– Diqqətli ol! – deyə son tapşırıqlarını verib, yataqxanadan çıxdı. Fəridə nənənin diqqətini onun komandir çantası cəlb eləmişdi. Nazim hərbi məktəbdə oxuyandan bəri hərbçilərə hörmətlə yanaşır, bütün hərbi verilişlərə

maraqla baxırdı. Hərbçi çantasını görəndən sonra Rəhim kişiyə də marağı yarandı. Komendant gələn kimi onu Rəhim kişi barədə sorğu-suala tutdu. Məlum oldu ki, Rəhim kişi doğrudan da hərbçi olub, ömrünün otuz ilini rus ordusunda xidmət edib, polkovnik rütbəsinə qədər yüksəlib, təqaüdə çıxandan sonra vətənə qayıdıb, darıxmasın deyə yataqxanada növbətçi düzəlib. Komendantın dediyinə görə, işə düzəldiyi elə ilk gündən yataqxanada hərbi qayda-qanun, səliqə-səhman yaratmağa çalışıb. Buna görə də təbiətcə sərt və son dərəcə ciddi olan bu adamı ilk vaxtlar heç kəs sevməyib, amma sonralar halınaxasiyyətinə bələd olduqca, daxilən nəcib, ürəyiyumşaq, sadə və ən başlıcası da mərdanə olduğunu bildikcə hamı ona qəlbən bağlanıb. Komendantın dediyinə görə, o, məhz Rəhim kişinin sayəsində yataqxanada qayda-qanun yarada bilib.

...Fəridə nənəyə elə gəldi ki, növbə yoldaşı gecikir, amma Rəhim kişi vaxtında gəldi. Arvad bu gün nədənsə evə getməyə heç tələsmirdi. Komendantın dünənki söhbətindən sonra növbə yoldaşıyla daha çox ünsiyyətdə olmaq, daha çox söhbət eləmək istəyirdi. Bir növ onda oğlunu görür, oğlunun qocalığını Rəhim kişinin simasında təsəvvür edirdi. Amma Rəhim kişi ona söhbət üçün şərait yaratmadı. Sanki bu kişiylə bağlı hər şey müəyyən bir plan çərçivəsində gedirdi: proseduraya uyğun olaraq avadanlıq, səliqə-səhman təhvil verilib, təhvil götürüldü; jurnala qol çəkildi; Fəridə nənə çantasını da götürüb, qapını bayır tərəfdən bağladı; Rəhim kişinin yaratdığı təəssürat altında yataqxanadan uzaqlaşdı. Sıxıntıdan qurtulsun deyə iş yoldaşını unutmaq istəyirdi ki, qatıqsa-

tan yadına düşdü. Dilbər onun dünən də görünmədiyini demişdi. Evə tələsdi ki, bəlkə, bu gün qatıqsatandan bir xəbər tuta.

Payız çoxdan qurtarmış, qışdan da xeyli keçmişdi. Amma nədənsə hələ də qışın gəldiyi hiss olunmur, havalar yazda olduğu kimi günəşli, isti keçirdi. Fəridə nənə günəşi həmişə pəncərələrində görməyə öyrəşmişdi. Hətta onunla qısaca söhbəti də olurdu.

– Hə, gəlmisən?! Sabahın xeyir, sabahı gətirdiyin yerdə. – sonra da gileyə keçərdi:

– Noolardı ki, bir gün mənimkiləri də gətirəsən. – pəncərələri açıb, kimisə içəri buraxırmış kimi xoşgəldin edərdi:

– Gəl görüm, gəl, xoş gəldin!..

Bu gün bozumtul bir bulud Günəşi arxasında gizlətsə də, əl-ayağını yığa bilməmişdi. Amma şimaldan bir-birinin ardınca axan buludlar günəşin səmada bərq vuran saçaqlarını da Bakıya çox görürdü. Günəşsə arayıb-axtarıb azacıq da olsa özünə bir çıxış yeri tapır, qızıl rəngli şölələrini Xəzərə, Bakının qədimi binalarının üstünə yayırdı...

Fəridə nənə qış, yaz deməz, istiyə, soyuğa baxmaz, yataqdan qalxan kimi hər gün mətbəxin həyətə baxan pəncərələrini açar, otaqların balkona tərəf olan qapılarını aralı qoyub, evin havasını dəyişərdi. Sonra da aynabənddə oturub, saatlarla həyəti seyr edər, öz xəyali rəfiqəsiylə söhbət edərdi. Əslinə qalsa, nənənin xəyalının məhsulu olan rəfiqəsi elə onun özü, bəlkə də, qaraçuxası idi. Amma hər kim olur-olsun, Fəridə nənə özünü onsuz təsəvvür edə bilmirdi. Bütün məsələlərdə onunla

məsləhətləşər, hər işində onu nəzərə alar, hətta bazarlıq edəndə də aldığını bəyənib-bəyənmədiyini soruşar, onunla hesablaşardı. Aldığı şeyi qaytaranda da – yox, yox, xoşumuza gəlmədi. Bu, bizə uyğun deyil – deyə iki nəfərin adından danışardı. Bəzən də ona hirslənər, qarğış edər, bir müddət onunla danışmaz, küsü saxlar, amma bu çox da uzun çəkməzdi. Elə həmin o qəzəbli dəqiqələrdə belə barışmağa bəhanə axtarar, fürsət tapan kimi bütün günahları onun üstünə yıxıb, axırda da, – yaxşı, gəl barışaq!, – deyə sülh elan edərdi...

...Evə girən kimi pəncərələri açmış, amma onu həyətdə görməmişdi. O, Fəridə nənə televizoru yandırınca gəlib çıxmışdı. Amma nədənsə adəti üzrə çağırıb məhəlləni oyatmır, müştərilərini səsləmirdi, elə bil fağırın səsi batmışdı. Çantasındakı süd, qatıq dolu bankaları səkinin qırağına düzüb, əlini alnına qoyub, yuxarı mərtəbələrə baxırdı.

– Aazz, səsi batmış, noolub, səsin niyə çıxmır? – Fəridə nənə təəccübünü gizləmədi. Arvadın sualına qatıqsatan cavab vermədi.

– Fəridə nənə, bir şey lazımdır, gətirim? – deyə suala sualla cavab verdi. Arvad qatıqsatanın əhvalındakı dəyişikliyi dərhal hiss etdi, – xırıltılı səsi güclə eşidilirdi. Sualına cavab almaqda inad göstərdi:

– Aazz, nəyindir? Gözümə bir təhər dəyirsən?

– Heç, Fəridə nənə, soyuqlamışam bir az.

Müştəriləri qatıqsatana yaxınlaşdılar. Onlar öz alverlərini edib qurtarınca Fəridə nənə pəncərədən çəkilmədi. Qatıqsatan yerdə qalan bankaları çantasına qoyub, üzünü yuxarı tutdu:

– Yaxşı, Fəridə nənə, gedim görüm qalanlarını da o biri məhəllədə sata bilirəm. – deyə dolu çantalarını qaldırdı. Amma bir-iki addım atmamış başı gicəlləndi, çantasını yerə qoyub, dizlərinə dayaqlandı və elə əyili vəziyyətdəcə qaldı. Nəfəsi çatmırmış kimi acgözlüklə nəfəs almağa başladı. Süd alacağı Fəridə nənənin sanki indi yadına düşdü:

– Aazz, hara tələsirsən? Bəs, mən süd alacaqdım axı. – deyə ucadan səsləndi. Qatıqsatan yerə çöküb, üzünü çəpinə yuxarı tutdu:

– Neçə kiloluq istəyirsən? – soruşdu. Fəridə nənə həftədə bir, ya da iki dəfə ağartı alardı. Onda da qatıqsatan çantasını həyətdəcə qoyub, bankaları özü dördüncü mərtəbəyə, müştərisinin mənzilinə qaldırardı. Bu gün onun ağartı almaq niyyəti yoxuydu, sadəcə, qatıqsatana acıdığından onun vəziyyətini yüngülləşdirmək istəyirdi:

– Dayan, dayan, özüm düşərəm. Onsuz da çörəyə düşəcəkdim. – arvad gənc qız çevikliyi ilə aşağı yüyürdü. Qatıqsatan çantasının yanında yerə çöküb gözləyirdi. Fəridə nənə düz onun gözlərinin içinə baxdı. Yazığın gözlərindən sanki alov çıxırdı. – qıpqırmızı qızarmışdı. Arvad onunla üzbəüz cöməltmə oturub, əlinin arxasını qatıqsatanın alnında gəzdirdi:

– Sənə nə oldu, ay qız? Qızdırma səni aparır ki! – əlini qatıqsatanın çiyinlərindən sürüşdürüb, onun əllərini ovuclarına aldı:

– Nə olub sənə, bu halınla kücələrə düşmüsən? Evində otursana!

Qatıqsatan özünü sındırmadı:

– Eh, Fəridə nənə, evdə oturanda daha da ağırlaşıram. Mən qripi elə ayaq üstə keçirirəm.

– Dur, dur, qız, gedək evə, zoğal mürəbbəsiylə bir stəkan çay içib gedərsən.

Qatıqsatan hələ malını xırıd eləməmişdi deyə etiraz etsə də, Fəridə nənə əl çəkmədi, qolundan tutub, təkidlə yuxarı qaldırdı. İçəri girən kimi hələ ayaqqabılarını soyunmamış:

– Sənin adın nədir, qız? – deyə soruşdu.

– Tahirə – deyə qatıqsatan paltosunu soyunmadan ev sahibəsinin ardınca içəri keçdi. Fəridə nənə ona oturmaq üçün yer göstərib, mətbəxə keçdi:

– Ay qız, Sahirə, elə buna görə iki günüydü ki, görünmürdün? – mətbəxdən Fəridə nənənin səsi eşidildi. Bir dəqiqə keçmədi ki, bir əlində çayla dolu stəkan, o bir əlində mürəbbəqabı otağa qayıtdı. Tahirə onun sualına cavab verməmiş ev sahibəsinin səhvini düzəltdi:

– Sahirə yox, Fəridə nənə, Tahirə.

– Nə.. Sahirə?.. Hə, hə, elə Sahirə deyirəm də...

Tahirə onu başa sala bilməyəcəyini, buna hövsələsinin çatmayacağını görüb, sualın cavabına adladı:

– Yox, ay Fəridə nənə, yox. Təki elə xəstə olduğum üçün gəlməyəydim.

– Aazz, nə olub bə sənə? – ev sahibəsi ona daha da yaxın oturdu.

– Ermənilər,.. ermənilər qardaşımı öldürüblər, Fəridə nənə! – elə bil göz yaşları ovcunun içindəydi.

– Nəə, qardaşını öldürüblər?!

Tahirə anlatdı ki, ermənilər tez-tez Qarabağın kəndləri, rayonlarına silahlı hücumlar edir, əhaliyə divan tutur, var-yoxlarını əllərindən alıb aparırlar. Onlara qarşı əliyalın, təsadüfi halda ov tüfəngiylə çıxan azərbaycanlıları isə

rus hərbçilərinin köməkliyi ilə qanına qəltan edirlər. Bir dəfə, iki dəfə, axırı Tahirənin qardaşının səbri tükənir, kənd cavanlarından kiçik bir dəstə düzəldir ki, kəndlərini erməni quldurlarından qorusunlar...

Tahirə sakitləşmək bilmirdi. Ermənilərin törətdiyi cinayətlərdən danışdıqca daha da coşur, gözünün yaşını sel kimi tökürdü. Ev sahibəsi ağlayıb yüngülləşsin deyə qonağı sakitləşdirməyə cəhd göstərmir, onun dediklərinə heyrət içində qulaq asırdı. Inana bilmirdi ki, bu gün oğlunun da xidmət etdiyi, Rəhim kişinin ömrünü qoyduğu rus ordusu ermənilərlə birləşib, azərbaycanlılara qarşı belə ədalətsizliyə yol verə bilər..

Tahirə çayını içmədən ayağa durdu, sanki bura dərdini deməyə gəlmişdi. Fəridə nənə də onu saxlamadı, amma süd-qatığın hamısını götürəcəyini dedi. Dərhal da əl çantasından pul çıxarıb, Tahirənin etirazına baxmayaraq, aldıqlarının haqqını ödədi. İş günlərini Tahirəyə bildirib, bundan sonra qalan malını yataqxanaya gətirməsini təklif etdi. Özü satıb, pulunu ertəsi gün verəcəkdi...

Yuxusu qaçmışdı, yemək istəmirdi. Dünəndən stolun üstündə qalan şəkilləri götürüb, kart paylayırmış kimi bölməyə başladı. Nazimin hələ tələbə olanda hərbi formada çəkdirdiyi şəkilləri yanaşı düzdü. Oğlunun şəkli tək, oğlunun şəkli bir neçə dostuyla birlikdə, bir də oğlunun da sırada durduğu alay, oğlu rus əsgərləriylə birlikdə... Bakının küçələrində yüzlərlə günahsız insanı qanına qəltan edən "humanist" sovet ordusu! Qarabağda ermənilərin törətdikləri saysız-hesabsız cinayətlərə kömək edən, erməni dəyirmanına su tökən sovet ordusu...

Nazim hələ lap uşaqlıqdan əsgər olacağını deyir, böyüdükcə komandir, sonralar isə general olmağı arzulayırdı. Onun bu arzusuna atası da, Fəridə nənə də sevinirdilər. Ən çox ona görə ki, o, hərbə vətəni qorumaq məqsədiylə maraq göstərirdi. Amma onun inandığı, bütün gəncliyini, bacarığını həsr etdiyi ordu indi erməni quldurlarına kömək edir, vətənini düşmənə satırdı...

"Anacan, özümə gəlincə, mən də yaxşıyam. İşlərim də lap əla gedir. İndi artıq rota komandiriyəm, rütbəm də kapitandır".

– Kaş nə komandir olaydın, nə də kapitan. Əsgər olaydın, oğlum, sıravi əsgər. Amma vətəndə, Azərbaycanda olaydın...

"Anacan, mənə burada çox qayğı göstərirlər. Yaxşı bir hərbçi, savadlı mütəxəssis kimi həmişə hörmət edirlər".

– Hansı hörmətdən danışırsan, ay oğul, ay sənə qurban olum?! Elə sənin ordunun əliylə Bakının küçələrini qana boyamadılarmı?!

"Komandirlərim də mənim gələcəyimə inanırlar. İnşallah, tezliklə qarşında gənc bir general görəcəksən".

– Kaş, general yox, əsgər görəydim, oğul, adi, sıravi əsgər. Amma ləyaqətli, vətəninin qeyrətini çəkməyi bacaran, yeri gələndə onun uğrunda ölməyə layiq olan, buna cəsarəti çatan mərd bir əsgər! – gözlərinin yaşını sildi.

"Anacan, yaxın günlərdə xaricə ezamiyyətə gedəcəm. Əsgərlərimizi xarici ölkələrdən köçürməliyik".

– Kaş, sən özün də öz vətəninə qayıdaydın...

"Ola bilsin ki, bir müddət səninlə əlaqə saxlaya bilməyim. Darıxma, Allah qoysa, qayıdan kimi zəng edəcəm".

– Allah qoysun, can bala, Allah qoysun. Amma qurban olduğum nədənsə hələ də məsləhət bilmir, bizi sınağa çəkir…

Qapı döyüldü. Gələn Dilbəriydi. Fəridə nənə gecəni işdə olduğundan yatmasa da, bütün günü yatmaq fikri yoxuydu. Əvvəl qonşusuyla, sonra xəyali rəfiqəsiylə söhbət elədi. Heç vaxt şikayətlənmədiyi taleyindən, heç vədə gileylənmədiyi oğlundan narazılığını bildirdi. Ağladı. Yetmiş illik həyatında heç kəsin görmədiyi göz yaşları axıtdı…

***

Rəhim kişiylə artıq dostlaşmışdılar. Keçmiş hərbçi daha Fəridə nənə işə gələn kimi növbəni təhvil verib evə tələsmir, oturub azı yarım saat söhbət eləyir, öz həyatından, keçmişdən-keçəcəkdən danışırdı. Fəridə nənə də özü haqqında, oğlu barədə Rəhim kişinin bütün suallarına həvəslə cavab verir, Nazimin tez-tez zəng elədiyindən, məktubu məktuba caladığından, hər ayın başında ona pul göndərməsindən danışırdı. Söhbətlərinin başı-ayağı zəmanənin dönüklüyündən şikayətiydi. Rəhim kişi sovet ordusunun ermənilərlə birgə Qarabağda törətdiklərinə heç cür inana bilmir, 20 Yanvarda Bakıda baş verən hadisələri anlaşılmazlıq adlandırırdı. Etiraf etməyə cəsarəti çatmasa da, həyatını rus ordusuna verdiyi üçün qəlbinin dərinliklərində baş qaldırmış təəssüf hissi gözlərindən aydınca oxunurdu.

Son günlər daha səliqəli geyinir, sanki acıq verirmiş kimi hərbi xidmətdə aldığı medalların bütün simvollarını döşünə taxırdı. Getdikcə daha da qaraqabaqlaşır, tez-tez

ürəyini tuturdu. Amma heç vaxt heç nədən şikayətlənmir, ürəyinin ağrıdığını boynuna almırdı.

...Rəhim kişi Fəridə nənəyə çox ayıq yatdığını demiş, amma gözüaçıq yatdığını deməmişdi. İndi onu belə görəndə, arvad Rəhim kişinin o vaxt elə beləcə, gözüaçıq yatmasını nəzərdə tutduğunu düşündü. Amma təəccüb etdi. Adəti üzrə Fəridə nənə gələnə qədər Rəhim kişi tam hazır olar, foyedə var-gəl edə-edə onu gözlər, növbə yoldaşını ayaq üstə qarşılayardı. Amma nədənsə indi oturduğu stulun söykənəcəyinə yüngülcə dayaqlanıb, əllərini də şagird kimi stolun üstünə qoşa qoymuş, nəzərlərini tavanda məchul bir nöqtəyə zilləyib, gözüaçıq yatmışdı.

Fəridə nənə neçə vaxtın narahatlığına, yorğunluğuna tab gətirməyib, nəhayət, kişinin elə iş başındaca yatdığını düşündüyündən, oyadıb onu narahat eləmək istəmədi. Cantasını astaca stulun ciyinliyinə kecirib, Rəhim kişinin öyrətdiyi qayda üzrə növbəni qəbul etməyə başladı. Hər şey qaydasındaydı. Səssizcə gəlib, növbə yoldaşıyla üzbəüz oturdu. "Gör necə yorğundur ki, hələm-hələm oyana bilmir" – deyə düşündü.

– Dur, dur, ay kişi, dur, gedib evdə rahatca yatarsan. – narahat olmağa başlayan Fəridə nənə pıçıltıyla səsləndi. Kişidən bir səs çıxmadığını görəndə barmaqlarının ucunda xəfifcə onun sinəsinə toxundu:

– Rəhim kişi, ay Rəhim kişi!..

Rəhim kişi sanki heykəliydi, – sinəsini azca irəli verib, başını dik tutmuş, buz kimi soyuq gözlərini tavana dikmişdi. Fəridə nənə xoflanmağa başladı:

– Rəhim, Rəhim! – deyə yerində dikəldi, irəli dartılıb, gözlərini kişinin azacıq nəmdən par-par parlayan, artıq rəngini itirməkdə olan göy gözlərinin içinə zillədi:

– Rəhim, sənnən döyüləm, Rəhim?.. Aaa.. bu kişiyə nə oldu?! – pencəyinin yaxalığından tutub silkələdi. Dayağını itiribmiş kimi Rəhim kişinin boynu arxaya axdı, qolları stolun üstündən sürüşüb, yanlarına düşdü. Fəridə nənə onun artıq çoxdan həyat nişanəsini itirmiş gözlərinin dərinliyindən bir ölü boylandığını gördü.

– Rəhim... Rəhim! – oturacağa çökdü. Əllərini ağzına basıb, lal bir hönkürtüylə ağladı... Rəhim kişi əsl hərbçi kimi ayaq üstə, iş başında, məğrurcasına ölmüşdü.

Bir azdan sonra komendant gəldi. Yataqxananın bütün sakinləri birinci mərtəbədəki foyeyə axışdılar. Təcili yardım maşını gəlib çıxdı. Kişini ehmalca stuldan qaldırıb, xərəyə uzatdılar. Fəridə nənə yaxınlaşıb, onun böyründəcə cöməltmə oturdu. Titrək əllərini xəfifcə alnından sifətinə doğru sürüşdürüb, gözlərini qapadı. Pencəyinin çiyinlərini dartıb, yerinə otuzdurdu. Gömgöy damarları çıxmış əllərini sinəsinə, yaxalığına doğru sürüşdürdü. Xidmətləri müqabilində aldığı medallarının simvollarını yerində rahladı...

Həyatını sovet ordusuna həsr etmiş, polkovnik rütbəsinə qədər yüksəlmiş Rəhim kişinin ömür yolu belə sona yetdi. Qüdrətinə və ədalətinə inandığı orduda xidmətdən qürur duyan rus əsgərinin ömrü Azərbaycan Politologiya institutunun yataqxanasında bitdi...

...Və gözlərini gözü yolda qalmış, oğlu rus ordusunda xidmət edən, onun getdiyi yolu gedən bir rus ordusu zabitinin azərbaycanlı anası qapadı...

...Tabutunu isə azərbaycanlılarla birlikdə müxtəlif respublikalardan Azərbaycana oxumağa gəlmiş tələbələr qaldırdı...

Fəridə nənə işdən çıxmaq haqqında ərizə vermişdi. O, dərdlərini unutmaq, başını qarışdırmaq məqsədiylə işə düzəlmişdi, amma əksinə oldu. Başa düşdü ki, evdə oturub özünün, xəyali rəfiqəsinin, oğlunun, qonşularının, kiçik məhəlləsinin fikrini çəkmək bütün cəmiyyətin dərdini çəkməkdən daha asandır... Komendantın ərizəni qəbul edib– etməyəcəyinə baxmayaraq, qəti fikrini bildirib, yataqxananı tərk etdi.

"Səni görmək üçün burnumun ucu göynəyir, anacan! Sənə qurban olum, özünü qoru!.."

...Qapı döyüldü. Fəridə nənə sonuncu cümlələri bitirməyib, məktubu stolun üstünə qoydu. Gələn poçtalyonuydu. Yazıq arvad qapını açdığına peşman oldu. O daha poçtalyondan heç nə gözləmir, amma hər onu görəndən sonra bir gün özünə gələ bilmirdi. Bir söz demədən qapının kandarında durub, poçtalyonun nə deyəcəyini, indi kimi soruşacağını gözləyirdi. Poçtalyonunsa sanki dili tutulmuşdu, gözləri od tutub yanır, baxışları alov saçırdı. Titrək əlindəki məktubu bir qədər irəli uzadıb:

– Fəridə nənə, Fəridə nənə, Fəridə nənə! – səsləndi. Daha bir söz deyə bilmədi. Fəridə nənə onun yaşdan dolmuş gözlərinə, əlindəki məktuba baxıb, qeyri-ixtiyari bir addım geri atdı:

– Məktub, məktub kimədir?! – xırıltılı səslə soruşdu.

– Nazimdəndir, Fəridə nənə, Nazimdən!

Yerindən tərpənmədi. Çöhrəsində çağlayan sevinc bir andaca ciddi ifadə aldı. Sanki adi, hər gün baş verən hadisə baş vermişdi.

– Sağ ol, oğul, sağ ol! – quruca dedi.

Poçtalyon məktubu Fəridə nənənin ovcuna qoydu. Uzaq səfərdən qayıdan atasının qabağına yüyürən uşaq

kimi pillələr boyu sevincək üzü aşağı yüyürdü. Fəridə nənə qapını örtməyi belə unutdu. Sanki Nazimin özünü sinəsinə basırmış kimi məktubu köksünə sıxıb, otağa qayıtdı. Özünü yetirib, divana çökdü. Çiskin havada pəncərə şüşələri boyu üzü aşağı sürünən şəffaf şeh damlaları kimi göz yaşları qapalı gözlərindən süzülüb titrəyən yanaqları boyu axırdı...

Fəridə nənə ümidini itirməmişdi. Oğlunu nə vaxtsa görəcəyinə, səsini eşidəcəyinə, nə vaxtsa onun yazdığı yeni sətirləri oxuyacağına inanır, amma həmin anları necə yaşayacağını təsəvvür belə eləmirdi. Onun fikrincə, əsl xoşbəxtliyi elə onda dadacaq, onda biləcəkdi. Və onu dadmayınca, bütün vücudunda hiss etməyincə xoşbəxtliyin nə olduğunu təsəvvürünə gətirə bilmirdi... Təsəvvür edə bilmirdi ki, xoşbəxtlik göz yaşları, az qala yerindən qopacaq ürək çırpıntıları, titrəyən dodaqlar, uçunan, çəkisiz vücudla da yaşana bilər.

– "Ana" nədir, anacan?

– Ana – insanı dünyaya gətirən, ona həyat verən, süd verən, onu böyüdən, tərbiyələndirən, onun qayğısını çəkən qadın.

– Vətən də qadındır? – Nazim ağaca çıxırmış kimi balaca əlləriylə anasının çiyinlərindən tutub, qucağına dırmaşdı.

– Yox, oğlum, vətən vətəndir. Vətən doğulub boya-başa çatdığımız ölkə, üstündə gəzdiyimiz torpaq, barından, bəhərindən yediyimiz, qanunlarına tabe olduğumuz məmləkətdir! Vətən çox şeydir, oğlum, evimiz də vətəndir, həyətimiz də vətəndir, məhəlləmiz də vətəndir, şəhərimiz də...

– Məktəbimiz də? – Nazim anasının sözünü kəsib sual verdi.

– Əlbəttə, Nazim, məktəbimiz də, hətta sinif otağımız da vətəndir.

– Bəs, müəlliməm deyir ki, vətən anadır?, – bu söhbət hələ oğlu birinci sinifdə oxuyanda olmuşdu. O zaman Nazim gördüyü hər şeyə, eşitdiyi hər sözə min bir sual qoşar, istədiyi cavabı almayınca, anasından əl çəkməzdi. Amma anasının verdiyi cavablarla kifayətlənməz, axşam atası evə gələn kimi eyni sualları ona da verərdi. Cavablar müxtəlif olduqda isə "– bəs, anam belə deyir, bəs, atam belə deyir?" – deyə hər ikisini məhşər ayağına cəkərdi...

– Bəli, oğlum, vətən də ana kimi, ana da vətən kimi müqəddəs olduğu üçün bir-birinə bənzəyirlər. Elə şeylər var ki, onu insana yalnız ana verə bilər, elə şeylər də var ki, yalnız vətən. Ana sənə həyat, döşündən süd verdiyi kimi, vətən də köksündə, sinəsində yer verir, hava verir, su verir…

Bax, vətən də, ana da buna görə müqəddəsdir, əzizdir. Amma biz onları təmənnasız sevməliyik!..

Fəridə nənə bir qədər hissiyyata qapılmışdı. Amma axşam atası Nazimə hər şeyi daha sadə yolla başa salmağa çalışdı…

"Salam, anacan!" – Fəridə nənə bu sözü bir neçə dəfə oxudu. Amma gözlərini yaş tutduğundan ardını oxuya bilmədi. Ardı Nazimin uşaqlıq simasında yenidən gözləri önündə canlandı.

– Anacan, əsgər olmaq yaxşıdır, milis?

– Hər ikisi yaxşıdır, oğlum.

– Bəs, alim?

– Alim də yaxşıdır.

– Bəs, atam deyir ki, elə hər üçü əsgərdir?

– Düzdür, Nazim, vətənə hərəsi bir cür xidmət edir. Alim də öz elmi ilə. O da elm sahəsində vətənin əsgəridir.

– Yox, ana, mən avtomatlı əsgər olmaq istəyirəm!, – deyə xəyalında canlandırdığı düşmənləri güllələyirmiş kimi oyuncaq avtomatıyla atəş aça-aça qaçıb, dostlarının yanına getdi.

"Mən yaxşıyam, anacan. Amma sənin necə olduğundan, sağmı, xəstəmi, acmı, toxmu olduğundan xəbərim yoxdur".

– Mən də yaxşıyam, qurban olum, mən də yaxşıyam. Təki, sən yaxşı olasan.

"Məni bağışla, anacan, bu məşum dəqiqələrdə yanında ola bilmədiyim üçün, vaxtında səninlə ilgilənə bilmədiyim üçün, göz yaşlarını silə bilmədiyim üçün..."

– Canım oğlum!., – Fəridə nənənin bu yaşa qədər nəinki ağladığını, hətta nədənsə gileyləndiyini belə görən olmamışdı. Çoxları onu daşürəkli qadın kimi tanıyır, kişi kimi möhkəm iradə sahibi zənn edirdi. Fəridə nənə ən kədərli anlarında belə özünü möhkəm tutar, dəmir iradə göstərərdi. İndi isə oğlunun hər cümləsini oxuduqca, bulaq kimi çağlayan gözlərinin yaşını silir, yalnız bundan sonra oxumağa davam edə bilirdi.

"Hər şeydən xəbərim var, anacan, hər şeydən. Bakının küçələrindəki qırğından, Qarabağda günahsız azərbaycanlıların ermənilər tərəfindən öldürlüməsindən, əhalinin öz yurd-yuvasından didərgin salınmasından, ermənilərin mənim də xidmət etdiyim rus ordusunun köməyi ilə vətənimə soxulmasından, vətəndə baş verən bütün hadisələrdən..."

– Bilirsən, oğlum, bilirsən. Amma, nədənsə gümanı təkcə sənə gələn bədbəxt ananın yol çəkməkdən saralmış gözlərini hələ də yollardan yığa bilmirsən. Ananın hələ də ürəyi səksəkədə, gözü yolda, qulağı səsdədi. Hər qapı döyüləndə, hər ayaq səsləri eşidiləndə, bəlkə bu gələn sənsən deyə könlü intizardadı! – hönkürdü. – Buna görəmi oxutdu səni, Nazim?! – hıçqırıqlarını boğmağa çalışdı. – Buna görəmi əsgər olmaq istəyirdin, oğlum?! – titrək barmaqlarıyla ağzını qapadı. – Dilin lal olsun, ay qız, dilin lal olsun! – Sanki kimdənsə utanırmış kimi məktubla sifətini örtdü, kimlərinsə onu gözüyaşlı görməsini istəmirmiş kimi gözlərini oğlundan aldığı kağızın arxasında gizlətdi:

– Mənim əsgər balam, dərdimi çəkər balam!.. – Hıçqırıqları kəsildi. Amma məktubu sifətindən ayırmadı.

“Mən yazı çox sevirəm, amma yaydan da xoşum gəlir. Payız da pis deyil, amma payızı sevmirəm, çünki payızdan sonra qış gəlir. Qışı isə heç sevmirəm, çünki qışda əsgərlərimizin əlləri donur. Üşüdükləri üçün vətəni yaxşı qoruya bilmirlər.” – Bu inşanı Nazim dördüncü sinifdə oxuyanda “Ən çox sevdiyim fəsil” mövzusunda yazmış, amma bu fikirlərinə görə inşadan üç almış, sonra da ağlaya-ağlaya evə gəlib, anasına şikayət eləmişdi. Anası etirazını bildirəndə müəllimәsi Nazimi mövzudan kənara çıxmaqda, bütün inşalarda mövzunu əsgərlə bağlamaqda qınamışdı…

“Buna görə də mən də, digər azərbaycanlı zabitlər də rus ordusunda xidmətdən imtina etmişik, anacan. Bizim Azərbaycana dönməyimizə mane olurlar, amma heç nəyə baxmayaraq dönəcəyik, anacan, mütləq dönəcəyik!

Tezliklə hamımız dönəcəyik. Vətəni düşməndən xilas edəcək, torpaqlarımızı azad edəcəyik!"

Göz yaşı axdıqca dərdi azalır, ağladqıca yüngülləşir, rahatlanırdı. Sevinir, fərəh hissi keçirirdi. Oğlunun onu duymasından, dərdini bilməsindən, yanına gəlmək, onu görmək, yarasına məlhəm qoymaq arzusuyla yaşamasından qürurlanırdı. Fəxr edirdi ki, Nazim kimi oğul böyüdüb. Fəxr edirdi ki, oğlu onu darda qoymayacaq.

"Salamat qal, yeganə arzum gəlib səni sağ-salamat, gümrah görməkdir, anacan! Özünü qoru! İnşallah, tezliklə görüşəcəyik. Oğlun Nazim."

Xəfif, yüngül külək hiss etdi, ardınca qapı çırpıldı və yalnız indi yadına düşdü ki, poçtalyondan məktubu alandan sonra qapını örtməyi unudub. Qapını bağlamaq üçün ayağa qalxanda, qəfil səbr gətirdi.

– Sağlam ol. – deyə yenidən kresloya çökdü.

– Sağ ol. – ikincini gətirmək məqsədiylə düyünləmiş ovcunu sinəsinə döyməyə başladı. Gətirə bilməyincə, arxalığının cibindən dəsmalını çıxarıb, üz-gözünü sildi, qalxıb qapını kilidlədi.

Otağa kecəndə hamam otağından su şırıltısı eşitdi. Nazimin uşaqlıq və gənclik illərinin böyüdülmüş şəkillərinin arasında, evin yuxarı başından asılmış divar saatına baxdı. Altı tamamıydı. Fəridə nənə evdə olanda kranı həmişə açıq qoyardı ki, su gələn kimi şırıltısını eşitsin. Qalxıb əvvəlcə qab-qaşığı, paltarları yuyar, sonra özü də yuyunardı. Hamam otağına keçdi. Çox üşüyən olmasına və adətən qaynar suyla yuyunmasına baxmayaraq, soyuq suyu açdı. Tələsmədən soyuq suyun altında yuyunub qüsul verdi. Hamamdan çıxan kimi saçlarını həmişə

fenlə qurulayar, sonra qaynar çay içərdi. Bu dəfə saçlarını dəsmalla yüngülcə qurulamaqla kifayətləndi. Çay içmək isə yadına da düşmədi. Qayçını götürüb, ayaq və əl dırnaqlarını tutdu. Yataq otağına keçib, yatağını açdı, ağları dəyişdirdi. Sonra qonaq otağına qayıdıb, ailə albomunu gətirdi və jurnal masasının üstünə qoydu.

– Bu, rəhmətlik atamdır! – kimisə ailə üzvləriylə tanış edirmiş kimi bir-bir bütün yaxınlarını təqdim etməyə başladı: – Bu isə rəhmətlik anam! – Salavat çevirib, pıçıltıyla dua oxudu: – Allah ruhlarını şad eləsin. – Allah kəlamını bitirən kimi ucadan səsləndi: – Bu da bədbəxt qardaşım! – Doluxsundu. Böyük qardaşı hələ yeniyetmə ikən dünyasını dəyişmişdi. Sonra isə Gəncədə yaşayan qardaşını və onun ailə üzvlərini təqdim etdi. Növbə qaraşın, nazik bığlı və gülərüz, ortayaşlı bir kişiyə çatanda xəfifcə gülümsəyib, başını silkələdi. Nazimin şəkilləriylə bərabər divardan asılmış həyat yoldaşının portretinə baxdı. Həmin portret indi əlində tutduğu şəkildən köçürülmüşdü. Nazim hələ tələbə olanda atası dünyasını dəyişmişdi. İldönümünə qədər Nazim onun portretini çəkdirib, divardan asmışdı. Albomu varaq-varaq çevirib, bütün yaxınlarını bir-bir tanıtdı. Vidalaşırmış kimi onlarla bircə-bircə söhbət elədi. Sonra yenə Nazimin məktublarını götürüb, hər birini bir neçə dəfə oxudu. Şəkilləri səliqəylə albomun içinə yığıb, servantın siyirməsinə, məktubları da albomun üstünə qoydu...

Saat artıq on ikini keçmiş, ömrünün bir günü də dünəndə qalmışdı. Nə edəcəyini bilmirmiş kimi otaqda, mətbəxdə bir xeyli dolaşıb, sonra yataq otağına keçdi, çarpayının başında durub, ani olaraq xəyala daldı.

– Gəl, gəl, qız, gəl – deyə giriş qapısına tərəf qayıtdı, – qapını açıq qoysaq, yaxşıdır – kimisə gözləyirmiş kimi qıfılı açdı. Amma qapını açmayıb, eləcə örtülü saxladı, qayıdıb mətbəxə keçdi. Pəncərənin qabağında durub, qaranlıq həyətə baxmağa başladı. Bu xeyli çəkdi...

– Gəlirəm, gəlirəm! – deyə kimsə onu səsləyirmiş kimi qəfil fikirdən ayıldı, alnını soyuq şüşədən aralayıb arxaya çevrildi.

– Gəlirəm, gəlirəm indi! – dönüb bir daha həyətə baxdı. Pərdələri daha geniş aralayıb, eləcə də saxladı.

– Gəlirəm... gəlirəm!.. – gözlərini pəncərədən ayırmadan arxaya bir addım atdı. Pəncərədən sifəti sapsarı saralmış, sanki dərin bir quyudan baxan, əzab və rahatlıq, qorxu və arxayınlıq, həsrət və məhəbbət ifadə edən gözləri düz gözlərinin içinə zillənmiş bir qadın boylanırdı. Ağappaq gecə köynəyi ilə seyrəlmiş dümağ saçları bərq vuran bu qadın onun pəncərədəki əksi idi...

Otağa keçdi. Nə etmək lazım olduğunu yadına salırmış kimi bir xeyli ortalıqdaca vurnuxdu. Servantın gözünü açıb, kiçik aptek qutusunu götürdü və yataq otağına qayıtdı.

“...Bircə arzum gəlib səni sağ-salamat, gümrah görməkdir, anacan”. – Oğlunun yazdığı son sətirləri dodaqaltı pıçıldadı. Əllərini Allahın dərgahına qaldırıb: – Mərhəmətini oğlumdan əsirgəmə, ya Rəbbim! Günahlarından keç! Ona oğul kimi özünü göstərməyə rüsxət ver!!! – deyə yalvardı. Nazimi qarşısında görürmüş kimi irəli bir addım atıb dayandı. Güclə eşidiləcək səslə: – Məni bağışla, oğlum! – pıçıldadı: – Bağışla ki, arzunu

yerinə yetirə bilməyəcəyəm. – Gözlərini yumub, əllərini sinəsinə sıxdı: – Bağışla ki, qıvrım, şəvə kimi qapqara saçlarını bir daha tumarlaya, məsum gözlərini bir daha öpə bilməyəcəm, mənim körpə əsgərim!..

Ustufca qalxıb, qibləyə tərəf qoyulmuş yatağının içində oturdu:

– Rəhmət qapısını üzümə aç, Ya Rəbbim! – əllərini qaldırıb, yenidən dua etdi. Axtarıb dolabın üstünə qoyduğu aptek qutusunun içindən tənzif bükməsini tapdı, ayaqlarını yaxınlaşdırıb, baş barmaqlarını möhkəm-möhkəm bir-birinə bağladı. Kürəklərini üzünü indicə dəyişdirdiyi yupyumşaq döşəyə qoydu. Gözlərini qapayan kimi kiprikləri arasından bir damla yaş süzülüb, gicgahlarından üzü aşağı diyirləndi, ağappaq balınca düşüb getdikcə böyüdü... – "Biz rus ordusunda xidmətdən imtina etmişik, anacan. Amma bizim Azərbaycana dönməyimizə mane olurlar. Heç nəyə baxmayaraq dönəcəyik, anacan, mütləq dönəcəyik. Tezliklə hamımız dönəcəyik. Vətəni düşməndən xilas edəcək, torpaqlarımızı azad edəcəyik..." – güclə eşidilə biləcək səslə pıçıldadı. Dərindən köks ötürdü. Oğlunun sözlərinə cavab verirmiş kimi:
– Üstümü ört, oğlum! – deyə xırıldayıb, yorğanı başına çəkdi. Yorğan üstündən sürüşməsin deyə əllərini örtüyün altında ehmalca aşağı sürüşdürdü. Titrək bir səs otaqda xəfif bir musiqi kimi əks-səda verdi:

– Əşhədü ənla ilahə illəllah!

Əşhədü ənnə Mühəmmədən Rəsulullah!

Əşhədü ənnə Əmir əl mümininə Əliyyən vəliyyullah!..

***

Bakıya az-az təsadüf olunan quşbaşı qar yağır, amma yerə düşən kimi də əriyirdi. Təkcə səkilərdə adda-budda qar görünürdü. Tahirə ağır çantalarını qoya-götürə, sürüşməmək üçün ehtiyatla Fəridə nənəgilin həyətinə tələsirdi…

…Nəfəsini dərmədən bankaları çıxarıb, bir-bir səkinin qırağına düzdü. Əlini alnına qoyub, üzü yuxarı, beşmərtəbəli binanın balkonlarına boylandı. Heç kəs gözə dəymirdi. Deyəsən, bugünkü qar məhəllə sakinlərinin yuxusuna da yağmışdı. Gözləməyi qərara aldı. Onsuz da hamı artıq onun gəldiyini bilirdi. İndicə bir-bir düşüb, dünən götürdükləri bankaları qaytaracaq, yenisini götürüb, mənzillərinə tələsəcəkdilər. Amma Tahirə pəncərədə hamıdan çox Fəridə nənənin görünməsini gözləyirdi. O bu gün heç nə almayacaqdı. Amma pəncərədə mütləq görünməliydi. Sonuncu müştərini yola salandan sonra – "yəqin evdə yoxdur" – deyə ürəyindən keçirdi. Boş bankaları çantasına yığıb, artıq xeyli yüngülləşmiş yükünü götürdü, avtobus dayanacağına tərəf yeridi. Amma bir neçə addım atıb dayandı. Yoxluğuna əmin olmaq məqsədiylə qanrılıb, Fəridə nənəgilin pəncərələrinə bir də boylandı. Arvad ordaydı, ağ gecə köynəyində, başıaçıq pəncərədə dayanıb, Tahirəyə baxırdı. Çantaları yerə qoyub, Fəridə nənəyə sarı çevrildi. O, boynu azca bükük, qolları qoynunda eləcə durmuşdu. Tahirə təəccüb etdi. Onun dinib-danışmadığına, pəncərəni açıb, kimisə acılamadığına inana bilmədi. Sanki bunu Fəridə nənə də hiss etdi. Sağ əlini ehmalca yuxarı qaldırdı, köynəyinin qolu sürüşüb dirsəyinə düşdü. Əlini xəfifcə havada yellədi. Tahirəyə

elə gəldi ki, Fəridə nənə onu yuxarı çağırır. Çantalarını həyətdəcə qoyub, rəfiqəsinin mənzilinə tələsdi...

***

Hava təzəcə işıqlaşırdı. Hərbi səhra formasında olan bir əsgər pillələri iki-bir, üç-bir qalxıb, Fəridə nənəgilin qapısında dayandı. Gözləri sevincdən yaşarmış əsgər əlini tələsik zəngin düyməsinə basdı, amma qapını açan olmadı. Əsgər Fəridə nənənin hələ yataqda olduğunu zənn edib, qonşuları narahat edəcəyini belə düşünmədən qapını döyməyə başladı. İçəridən nə bir səs, nə də soraq gəlirdi. Çiynində çanta peşman-peşman həyətə düşdü. Səkinin qırağında durub, dördüncü mərtəbədəki pəncərəyə boylandı. Pəncərənin şüşələri qapqaraydı, elə bil arxa tərəfdən qara pərdə asmışdılar. Günəş çıxan kimi adətən ən əvvəl həmin pəncərədə əks olunardı. Günəşin çıxmasına isə hələ vardı...

... – Nə şəkli çəkirsən, Annam?

– Bu şəklin adını "Fəridə nənəgilin pəncərələri" qoymuşam. – Qızcığaz cəkdiyi ev şəklini atasına uzatdı.

– Axı, sən heç Fəridə nənənin evini görməmisən, qızım! – deyə təəccüblə uşağın cəkdiyi şəklə baxdı.

– Görmüşəm, ata. – qız başını yırğalayaraq sifətinə dağılmış saçlarını kənar elədi. Gördüklərini bir daha xatırlayırmış kimi gözlərini qıyıb, nəzərlərini məchul nöqtədə cəmlədi: – Mən onu yatanda görmüşəm. –"Görmüşəm" sözünü uzadaraq elə dedi ki, sanki o pəncərələr indi də gözlərinin qabağındaydı.

Ata susdu. Kişi gah heyrətlə qızının hərəkətlərini izləyir, gah da onun çəkdiyi şəklə baxırdı. Uşağın çəkdiyi

şəkil eynən onların Bakıdakı evlərinin əksiydi. Qız yol çəkən nəzərlərini yığışdırıb, məsum baxışlarını atasının gözlərində cəmlədi:

– Sən mənə demədin, axı, atacan! – atasının dizlərinin üstünə cıxıb, çəkdiyi şəklə boylandı – Oxşayır?

– Oxşayır, qızım, çox oxşayır! – uşağı ehmalca dizlərinin üstündən endirdi. – Amma bu dəmir barmaqlıqlar artıqdır. – Barmağını ev şəklinin fonunda geniş planda verilmiş pəncərələrin üstündə gəzdirdi. Sanki öz doğma evini görürmüş kimi xəyala daldı.

– Bəs, bu kimdir, qızım? – əli qoynunda, pəncərədən ona incikcəsinə boylanan ağ paltarlı qadını göstərdi.

– Kim, ata, burada hec kim yoxdur – uşaq təəccüb etdi. O şəkildə ev və pəncərədən başqa heç nəyi təsvir etməmişdi.

Nəzərlərini şəkildən ayırıb, heyrətlə qızının üzünə baxdı... İndi həyətdə durub, dördüncü mərtəbədəki mənzillərinin pəncərələrinə baxdığı kimi... Dümağ gecə paltarında olan anası pəncərənin arxasında dayanıb, yol cəkən, incik gözlərini ona dikmişdi... Bu, həmin qadınıydı. Qızının "Fəridə nənəgilin pəncərələri" adlandırdığı şəkildən boylanan qadın...

*10.01. – 21.01.2005*




**BDU da Xudaverənin ölüm xəbərini aldıqdan sonra.**
**Etibar Muradxanlı tələbə yoldaşları ilə.**



**Xudaverənin yaralandıqdan sonra həyata dönüşünün bir illiyini qeyd edərkən: – Xudaverən Rəhimov və Etibar Muradxanlı tələbə yoldaşları ilə.**



**Arif, Məcid, Cəmil, Baxış- Milli Qəhrəman Rövşən Hüseynovun məzarını ziyarət edərkən.**



**Baxış, İsgəndər, Ehtiram,  Sucəddin, Məcid.**



**Milli Qəhrəman Şəhid Rövşən Hüseynov**



**Şəhid Fərhad Quliyev**



**Qazi Xudaverən Rəhimov.**



**Qazi Arif Babayev**



**Ümidvar Kəlbiyev**



**Qazi Baxiş Məmmədov**



**Sucəddin Həsənov**



**Şükürov Təbriz**



**Hümbətov Mübariz**



**Şükürov Təbriz (Soldan birinci)**



**Xudaverən, Baxış, Arif, Məcid, Sucəddin**



**Məmmədov Ənvər**



**Məhəddinov Cəmil**
**(Soldan birinci)**



**Qazi Məcid, Qazi Xudaverən, Qazi Arif, Qazi Baxış  və İsgəndər**

"УТВЕРЖДАЮ"

НАЧАЛЬНИК ГЛАВНОГО ШТАБА
МИНИСТЕРСТВО ОБОРОНЫ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
ГЕНЕРАЛ-МАЙОР Ш.МУСАЕВ
"20" 02 1992 г.

"СОГЛАСОВАНО"

РЕКТОР БАКИНСКОГО ГОСУДАРСТВЕННОГО УНИВЕРСИТЕТА им. М.Э.РЕСУЛЗАДЕ
АКАДЕМИК М.ГАСЫМОВ

С П И С О К

ЛИЧНОГО СОСТАВА ОТДЕЛЬНОГО ВЗВОДА СТУДЕНТОВ БАКИНСКОГО ГОСУДАРСТВЕННОГО УНИВЕРСИТЕТА

| № пп Должность | В/звание по штату | Ф. И. О. Факт. | Год рожд. | Оклад | Воор. |
|---|---|---|---|---|---|
| 1. Командир взвода | ст.с-нт | Гусейнов Р.Ш. | 1967 | | АК |
| 2. Командир отделения | с-нт | Калбиев У.Б. | 1969 | | АК |
| 3. Стрелок | ряд | Абдуллаев Ш.Ф. | 1967 | | АК |
| 4. Стрелок | ряд | Джафаров Э.Б. | 1967 | | АК |
| 5. Стрелок | ряд | Алмасов М.Г. | 1954 | | АК |
| 6. Стрелок | ряд | Джалилов Э.Д. | 1969 | | АК |
| 7. Командир отделения | с-нт | Байрамов Т.А. | 1969 | | АК |
| 8. Стрелок | ряд | Пириев Ф.П. | 1968 | | АК |
| 9. Стрелок | ряд | Кулиев Ф.С. | 1970 | | АК |
| 10. Стрелок | ряд | Махмудов А.А. | 1970 | | АК |
| 11. Стрелок | ряд | Ахмедов Н.А. | 1969 | | АК |
| 12. Стрелок | ряд | Велиев Г.А. | 1973 | | АК |
| 13. Стрелок | ряд | Мурсалов В.Г. | 1966 | | АК |
| 14. Стрелок | ряд | ~~Таиров М.Т.~~ | 1970 | | АК |
| 15. Стрелок | ряд | Махяддинов Д.Д. | 1971 | | АК |
| 16. Стрелок | ряд | Наджафов М.Р. | 1968 | | АК |
| 17. Командир отделения | с-нт | Бабаев А.А. | 1968 | | АК |
| 18. Стрелок | ряд | Мамедов Э.А. | 1973 | | АК |
| 19. Стрелок | ряд | Исрафилов И.Д. | 1971 | | АК |
| 20. Стрелок | ряд | Касимов Ч.А. | 1969 | | АК |
| 21. Стрелок | ряд | Зейналов А.Г. | 1969 | | АК |
| 22. Стрелок | ряд | Рагимов Х.Я. | 1967 | | АК |
| 23. Стрелок | ряд | Гасанов С.Н. | 1966 | | АК |
| 24. Стрелок | ряд | Гумбатов М.И. | 1969 | | АК |
| 25. Стрелок | ряд | Мамедов Б.З. | 1967 | | АК |

ВЫПИСКА ИЗ ПРИКАЗА
МИНИСТРА ОБОРОНЫ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

№ 042 "20" февраля I

"О формировании отдельного взвода студен ов ...инского государственного ун... ета"

...тветствии с Законом Азербайджанской Республики "О Р... ых Силах Азербайджанской Республики"

ПРИКАЗЫВАЮ

1. ...ступить к формированию отдельного взвода из студентов Бакин... государственного университета и завершить весь объем работ ... марта I992 года.

2. ...льникам Управлений и отделов Министерства обороны Республик... обеспечить формируемый взвод студентов вооружением, техникой материально-техническими средствами согласно утвержденного шта... взвода.

3. ...этственным за формирование назначить старшего сержанта Гусейне... овшана Шамиль оглы I967 года рождения.

4. ...ленный состав взвода установить 25 (двадцать пять) человек.

...ение: Список личного состава на I листе.

...ИСТРА ОБОРОНЫ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
...ал-майор Ш.МУСАЕВ

ВЕРНО: ...ТЕЛЬ НАЧАЛЬНИКА ГЛАВНОГО ШТАБА
подполковник Ш.ШИКАРОВ

# QAÇ, NƏ QƏDƏR GEC DEYİL
hekayə

O otağa girəndə səs-küydən heç kəs onun gəldiyini hiss etmədi. "Olmadı!" komandasına müstəntiq və hər iki köməkçisi kənara çəkilib, yerlərindəcə dondular. Müstəntiq köməkçilərinin əlindən buraxılan Vəsfi tappıltıyla döşəməyə sərildi.

"Aman Allah, tamamilə vəhşiləşiblər" – düşünən mayor bir xeyli müttəhimin ayağa qalxmasını gözlədi. Amma müttəhim tərpənmir, vaxtdan istifadə edib, acgözlüklə otağın ağır, kəsif havasını ciyərlərinə çəkir, azacıq da olsa dincini almaq, rahatlanmaq istəyirdi: "Necə bədbəxt, miskin görünür o, ilahi! İnsanlar hamısı belədir. Əllərində imkan olanda fironluq edir, din, iman tanımır, yalnız çətinliyə düşəndə Allah yadlarına düşür, Allahın ətəyindən yapışır, dindən, imandan danışır, dillərindən Allah, peyğəmbər düşmür..." – fikrini beynindən keçirən mayor özünün də son vaxtlar nədənsə yaman incəldiyini, müqəddəsləri tez-tez yada saldığını xatırladı. Bu onun ən zəif cəhətiydi. Ən ağır döyüşlərdə soyuqqanlılıq göstərən, ən ciddi, ən çətin əməliyyatlara cəsarətlə rəhbərlik edən Pənahlı qarşısında aciz dayanan, alçalan, rəhm diləyən adamları görəndə yumşalırdı həmişə. Onlara yazığı gəlirdi. Ona görə də yumşaq danışıq üslubundan, zahiri humanistlik "taktika"sından istifadə edir, elə bu üsulla da istədiyinə nail olurdu. Lakin bu humanistlik "taktika"sı müttəhim üçün, adətən, heç də yaxşı nəticələnmirdi.

O, bu üsulun daha əhəmiyyətli olduğunu tabeçiliyində olan istintaq işçilərinə də başa salmışdı. Lakin müs-

təntiqlər hövsələləri çatmadığından qətiyyətli tələbkarlığı üstün tutur, zor gücünə söz almağa daha çox meyl edirdilər.

– Qaldırın onu! – əmr etdi. Köməkçilərin hər üçü müttəhimin qalxıb, dəmir oturacaqda rahatlanmasına dərhal kömək etdi, tez də çəkilib, yerlərində durdular. Mayor ona baxıb, yenə düşüncələrə daldı. Bu rəzil, bədbəxt gəncin simasında indiyə qədər cinayət məsuliyyətinə cəlb olunmuş yüzlərlə adamı xatırladı. Onların içində günahkarı da, iftiraya uğrayanı da, bədbəxtliyə düçar olanı da varıydı. Birincilər Pənahlı üçün cinayət dünyasının sakinləriydi, onu daha çox digələri maraqlandırırdı. Belələrinin faciəsini düşünüb əzab çəkir, onların yerinə ağrıyırdı və bu ağrı olduqca üzücü, sıxıntılı olurdu həmişə. Bu ağrılarda günahsız insanların faciələri, kədərli yaşantıları varıydı. Onları öz şəxsi faciələri kimi yaşayan mayor əvvəllər saatlarla oturub düşünür, masa arxasına keçib, insan faciələrinin salnaməsini yaratmaq istəyirdi. Amma belə hallar keçib getdi, öyrəşdi faciələrə. Qət elədi ki, sən demə, insanın yaranması özü elə faciə imiş. Həmişə də rəhmətlik Tolstoyun "Bütün xoşbəxtlər eyni, bədbəxtlərin isə hərəsi bir cür bədbəxtdir" kəlamı yadına düşürdü. Artıq hər şey adiləşmişdi onun üçün və bunun səbəbi öz şəxsi faciələri, bu faciələrin daha uzunömürlü, daha ağır, daha üzüntülü olması, insanı laqeydləşdirməsi, başqalarına qarşı biganə etməsiydi. Deməli, insan faciələrinin salnaməsi çoxdan, lap çoxdan, hələ Allahın Adəm peyğəmbəri yaratdığı ilk gündən yazılıbmış. Daha onu heç bir söz ustası heç bir yolla yarada bilməzdi.

Müttəhim tanınmaz haldaydı, amma mayor Pənahlı onu tanıdı. Və onun belə hala düşməsinin səbəbini də anladı. Müttəhim ağır, çox ağır cinayət üstündə ittiham olunurdu. Satqınlıq!.. Vətənə xəyanət!.. Belələrini yalnız bir cəza gözləyirdi: – Ölüm!..

Keçib masanın arxasında əyləşdi. Əllərini stolun üstündə çataqlayıb, təhdidedici nəzərlərlə qarşısındakını süzməkdə davam etdi. Müttəhim başıaşağı qımıldanmadan oturmuş, yıxılmamaq üçün bir qolunu stolun küncü, o birini isə dizinə söykəmişdi.

– Məni tanıdın?!

Mayorun sualına diksindi dustaq. Başını qaldırıb, ani bir baxışla Pənahlıya baxdı:

– Yox, tanımadım! – cavab verdi. Mayor təmkinini pozmadan cibindən siqaret qutusunu çıxarıb, uzun-uzadı açdı, baxışlarını qarşısındakından ayırmadan qutunu müttəhimə uzatdı və siqaret təklif etdi. Bu, dustağı ələ alıb suallarına doğru cavab almaq istəyindən doğan xeyirxahlıq deyildi. Bu, ürəyinin yanğısını söndürmək, qarşısındakıyla bağlı xatirələrinin təsirini yüngülləşdirmək istəyindən, müttəhimin dözülməz taleyi, çirkin həyat yoluna acımasından doğan zəhərli tüstü ehtiyacıydı. Amma bu ehtiyac onsuz da ödənməyəcəkdi. Çünki onu ödəmək üçün saatlarla düşünmək, özüqarışıq kimlərisə, bəlkə də bütün cəmiyyəti ittiham etmək və son nəticədə bəlkə də bütün insanlığı ölümə məhkum etmək lazım gələrdi. Əgər insanda insana qarşı nifrət varsa, insanlıq özü bütövlükdə nifrətə, məhəbbət varsa, məhəbbətə layiq deyilmi? Bu hissləri ölçməkdən ötrü isə təəssüf ki, gerçək dünyada bir vasitə tapılmır. Mayor Pənahlı artıq bu vasitəni kəşf etmişdi, deyəsən.

– Yaxşı bax, Vəsfi, bəlkə xatırlayasan!

Gözlənilmədən adını eşidən Vəsfi son dərəcə zəifləyib əldən düşməsinə baxmayaraq, haradan qüvvə tapıb yerindən sıçradığını özü də bilmədi. Amma qeyri-iradi yaranan bu qüvvə suyu sızan səhəng kimi tədricən boşaldı və axıb getdi. Vəsfi hiss olunmadan səhəngin dibinə çökən su kimi aşağı çökdü. Şişmiş, gömgöy olmuş göz qapaqlarını hələ titrəyən əlləriylə azacıq aralayıb, mayora baxdı. Tanıdı! Və zindana dönmüş başının ağırlığını, göyərmiş sir-sifətinin ağrısını sanki indicə duydu. Bu ağırlığı saxlamağa gücü çatmadı. Lakin bu göyərmiş sir-sifətinin, zindana dönmüş başının ağırlığı deyil, göz qapaqlarına çökmüş, beyninə hopmuş xəcalət yüküydü. Bu yük heç bir çəki vahidiylə ölçülə bilməzdi. Rəis gözünü müttəhimdən ayırmadann özünü o illərin axarından birtəhər alıb, müstəntiqi səslədi.

– Kapitan, bu oğlanı beş gündən sonra özüm ittiham edəcəm. O vaxtacan hec kim ondan heç nə soruşmamalı, ona toxunmamalıdır. Kapitan gərək bir balaca ona qulluq göstərməkdən də imtina etməsin.

– Oldu, cənab mayor!

– Aparın!

Vəsfi çıxanda otağa çökmüş ağır havanı, həmin havanın otaqdakılara yüklənmiş üfunətini də sanki çəkib özüylə apardı. Amma Pənahlı bu təmizlənmədən yüngülləşmədi. Əksinə, onun ağırlaşmış çiyinlərinə əsrlərin qan qohumluğu, kəndçilik məsuliyyəti və bu məsuliyyətlə kəllə-kəlləyə dayanmış vətən borcu, vətən sevgisi yükləndi. Xəyalı keçmişlərə uçdu...

***

Desantların həyəcanını duyurmuş kimi zirehli maşın ehtiyatla hərəkət edir, meşənin sakitliyini pozmurdu. Yaxınlıqda ola biləcək düşmən kəşfiyyatçıları dəmir maşını onun özünün qaldırdığı və içində güclə göründüyü toz-torpaqdan, bir də yalnız kəşfiyyatçıların duya biləcəkləri yanacaq iyindən ayırd edə bilərdilər. Maşın ən aşağı sürətlə irəliləyirdi. Amma elə bunun özü də onun içindəki kəşfiyyatçı desantların xoflanmasına bəs eləyirdi.

Meşə dərinləşdikcə yol daralır, zirehli maşın daralan yolu kəndir kimi belinə sarıyırdı. Səssiz, hiss olunmadan irəliləyən maşın sakitcə dayandı və xeyli yerindən tərpənmədi. Başlıqdan ehtiyatla boylanan kəşfiyyat qrupunun komandiri dörd bir yanı səbrlə nəzərdən keçirdi, nəfəsini dərib, ətrafı diqqətlə dinşədi. Sürücüyə maşını yerindən tərpətməyi əmr etdi. Zirehli maşın durduğu yerdən arxaya sürünüb dayandı.

Nədir bu? Qrupun iyini almış düşmən əks-kəşfiyyatının qurğusumu? Yoxsa başısoyuq, səhlənkar əsgərin düşünülməmiş, hansısa planını həyata keçirmək üçün hazırladığı tədbirmi? Az olmurdu belə hadisələr. Hətta düşmən mövqeyinə tuşlanmış "qrad"lar bəzən səhvən dönüb, öz mövqelərimizi atəşə tutur, bununla da orduya külli miqdarda ziyan vurur, döyüş əməliyyatlarını pozur, canlı itkisinə səbəb olurdu...

Yeni, son dərəcə əhəmiyyətli bir əməliyyatın əvvəlində qarşılaşdıqları bu müəmmalı "qurğu" da xeyrə oxşamırdı. Adi bir təsadüf, kiçicik bir səhv hər şeyi alt-üst edə, itirdiklərimizdən daha ağır itkilərə səbəb ola bilərdi.

O bir kəşfiyyatçı komandir kimi müstəqil rəhbərliyə, istənilən anda planı dəyişib, yeni istiqamətdə taktiki manevrlərə hazırıydı. Amma əməliyyatın başlanğıcında gözlənilmədən, nəzərdə tutulmayan dəyişiklik əlaqələri kəsib, əməliyyatın inkişafını naməlum istiqamətdə dəyişə bilərdi. Ona görə komandir hələ də qəti qərara gələ bilmir, yerindən tərpənmədən vəziyyəti götür-qoy edir, nəsə bir çıxış yolu arayırdı.

Dar keçidin kənarında səngər qazılmış və onun üstü ağac budaqlarıyla tamam ötürülmüşdü. Səngərin içi heç bir tərəfdən görünmürdü. Gizləncdən bir qədər kənarda rus hərbi qaydasıyla düzülmüş iki dəst səhra əsgər paltarı yaxınlıqda olan döyüşçülərdən xəbər verirdi. Paltarların üstündə sanki külək atmasın deyə iki Kalaşnikov avtomatı və yanlarına içərisində bir neçə dolu patrondaş olan iki bel çantası qoyulmuşdu. – "Əgər bu düşmən əks-kəşfiyyat tədbiridirsə, deməli, izlənirik, yanından sakitcə ötüb keçsək, sadəcə olaraq, qrup bir həmləylə məhv ediləcək. Müdaxilə, lakin olduqca ehtiyatlı müdaxilə lazımdır. Hücum ən etibarlı müdafiədir. Kəşfiyyatçının bir vəzifəsi var – hansı yolla olursa-olsun tapşırığı yerinə yetirmək. Bunu isə yalnız hücumla, ən ümidsiz durumda belə güclü olduğunu sübut etməklə yerinə yetirmək olar. Güclü olduğunu düşünmək ölümün özünə meydan oxumaq deməkdir" – düşünən komandir maşından çıxdı, qüllənin üstündə durub, ətrafı bir daha süzdü, aşağı düşüb, asta-asta qurğuya doğru addımladı...

Üst-üstə qalaqlanmış ağac budaqlarının altından qəfil tufana bənzər bir uğultu qopdu. Piyadaların döyüş maşınının lüləsi üstündəki örtüyü titrədib, onun altından

peyda oldu. Lülə sürətlə fırlanıb, kəşfiyyatçıların maşınına sarı tuşlandı. Ətrafdan düşmən döyüşçüləri sıçrayıb, komandiri və döyüş maşınını dövrəyə aldılar. Komandir ani bir təkanla kəşfiyyatçıların maşınının üstünə sıçradı. Maşın tərpənib yırğalandı, amma hərəkət etməyə macal tapmayıb yerindəcə durdu. Sıraya düzülmüş düşmən döyüşçüləri əllərində olan qumbaraatan, əl qumbaraları və avtomatlarını maşına tuşlamış, asta-asta səngərdən çıxan piyadaların döyüş maşını hər an atəş açmağa hazır durmuşdu.

Kapitan Pənahlı ermənilərin əmrini işarəylə kəşfiyyat qrupuna bildirib, öz döyüş ləvazimatını büsbütün ortalığa atdı. Döyüşçülər bir-bir maşından çıxmağa və silahlarını, şəxsi əşyalarını ortalığa atıb, başçılarının yanında düzülməyə başladılar...

Kapitan səhvini başa düşsə də, artıq geciydi. Amma necə olursa-olsun, hec olmasa bir nəfəri aradan salamat çıxarmağa borcluydu. İndiki şəraitdə onun əvvəlki vəzifəsinin üstünə daha ikisi də əlavə olunurdu. İlk növbədə, lazım gələrsə, hətta qrupun bütünlüklə məhvi bahasına belə, düşmən əlinə keçmiş döyüş ləvazimatıyla birgə çantasında gəzdirdiyi yeni döyüş əməliyyat planını məhv etməliydi...

Sonuncu əsgər silahını atıb, kənara çəkilən kimi erməni komandirinin işarəsiylə iki "nayomnik" zəbt etdikləri döyüş ləvazimatına, ikisi kəşfiyyatçıların maşınına, bir neçə nəfər isə əsirlərin üstünü şəxsən yoxlamaq üçün əsgərlərə sarı addımladı. Kapitan Pənahlı ani fürsəti əldən verməyib, hələ də qumbara tutan əlini aşağı salmayan erməni döyüşçüsünün üstünə atıldı. Təpiklə vurub, qumbaranı onun əlindən kəşfiyyatçıların maşınının

üstünə saldı. Ermənilər silahlarını işə salmağa macal tapmamış partlayış qopdu! Maşın da, kəşfiyyatçıların üst-üstə yığılmış döyüş ləvazimatı da havaya sovruldu!..

Özünü qorumaq üçün hamı tələsik torpağa qısıldı. Havaya sovrulmuş dəmir, daş-kəsək hələ yerə düşməmiş erməni döyüşçüləri yerlərindən atılıb, kəşfiyyatçıların başının üstünü aldı, avtomatlarının lülələriylə vurub onları ayağa qaldırdı.

Komandir nəzərdə tutduğu hər iki vəzifəni yerinə yetirə bilmişdi. Bunu dərhal anlayan erməni zabiti tez əsas qüvvəni yoxa çıxmış kapitan Pənahlının ardınca ətrafa dağıtdı. Atəş səsləri bütün meşəni başına götürdü.

Erməni zabiti özü isə bir neçə döyüşçünün müşayiətiylə əsirləri cərgəyə düzüb, hərəkətə başladı. Onun ardınca ayaqlarını sürüyən əsgərləri arxadan bir, kənarlardan iki düşmən döyüşçüsü müşayiət edirdi. Meşədəki atəş səsləri getdikcə bütün istiqamətlərdə uzaqlaşır, nəğmə oxuyan quşların səsi aydınlaşırdı. Bu civiltilərin içində əsir düşmüş kəşfiyyat qrupunu həyəcanlandıran bir səs aydın duyulmağa başladı. Sanki uçub müxtəlif istiqamətlərdə qonan və narahatlığını səsinin incəliyi ilə bildirən bu quşun qəlbi talaya düşüb çırpınan gənc döyüşçülərin qəlbiylə bir vurur, amma təmkinini pozmadan səbrlə döyünürdü. Narahatlığını gizlədə bilməyən erməni komandiri tez-tez arxaya baxır, əsgərlərinə tapşırıqlar verir, hər tərəfi atəş üçün hazır tutduğu avtomatının gözüylə izləyərək aramla irəliləyirdi...

Qəfildən üstünə qızılquş cummuş qaranquşun çığırtısı eşidildi. Səksəkəyə düşən erməni zabiti dərhal dayanıb, qeyri-iradi ətrafı atəşə tutdu. Yenidən sakitlik çökdü, la-

kin bu sakitliyin ömrü atəşdən sonra avtomatın lüləsindən süzülən tüstünün ömründən də qısa oldu. Küləyin qabağına qatdığı tikan kolu kimi bir qaraltı onlara doğru şütüdü. Bu qaraltıdan xeyli irəli uçan avtomat süngüsü erməni zabitinin sinəsinə sancıldı. Vəziyyəti dərhal anlayan əsgərlər cəld yerə çökdülər. Top kimi başlarının üstündən uçan qaraltı arxada addımlayan ermənininin ayaqları arasından keçdi, düşmən əsgərinin özündəncə qamarladığı avtomatı arxadan onun boğazına keçirdi. Sağda, solda addımlayan ermənilər əsgərlərimizin qayçı kimi boyunlarına keçən ayaqları arasında çabalayır, boğulmamaq üçün bu məngənədən çıxmağa can atırdılar. Yaxınlıqda eşidilən atəş səslərindən ermənilərin geri qayıtdığını anlayan komandir:

– Qrup, qalx, ardımca marş! – əmr edib, özü irəli düşdü.

Kiçik kəşfiyyat qrupu işğal olunmuş doğma torpaqda yağıdan gizlənmək üçün meşənin dərinliklərinə üz tutdu.

Torpaq gum-gum gumbuldayırdı, elə bil ki, sinəsində qaçan döyüşçülərin ayaqları qaval daşına dəyirdi. Meşəni bu qorxunc səslərdən sanki əsməcə tutmuşdu, özünü itirdiyindən müdafiəsinə qalxan əsgərləri gizləməyə yer də tapa bilmirdi...

...Kəşfiyyatçı duyumuyla düşmənin artıq uzaqlarda qaldığını anlayan komandir qrupa dayanmaq əmri verdi. Bölmə komandiri öz əsgərlərini sıraya düzdü. Əsir götürdükləri üç düşmən əsgərini bir qədər aralı üzü əks istiqamətə saxlayıb, avtomatlılardan birini onların üstünə gözətçi qoydu. Bölməyə "farağat" komandası verib, üzünü qrupun rəhbərinə tutdu:

– Cənab kapitan, kəşfiyyat qrupu əmrinizlə sıraya düzülüb. Şəxsi heyətdən bir nəfər itkin düşmüş, bir nəfər bir qədər aralıda...

Köməkçisinin məlumatını sona qədər dinləməyə hövsələsi çatmayan komandir:

– Kimdir yoxa çıxan? – səbrsizliklə soruşdu:

– Vəsfi Əhmədov, cənab kapitan.

Kapitan astaca başını silkələyib, dərindən köks ötürdü. Əsgərlərin qarşısından aramla ötüb, əsirləri yanına gətirməyi əmr etdi. Diqqətlə erməni quldurlarını nəzərdən keçirib:

– Gətirdiklərimiz itirdiklərimizdən qiymətliymiş, sən demə! – deyə qəzəbini gizlədə bilməyən komandir əsirlərdən yalnız birini özləriylə götürə biləcəklərini dedi...

***

Təsadüf nəticəsində ağır işgəncələr, dözülməz taledən canını qurtaran Vəsfi tanınmaz dərəcədə dəyişmişdi. Sir-sifətinin qarası çəkilsə də, rəngi-ruhu özünə gəlsə də, simasına çəkilən kölgə çəkilməmiş, ruhunu qaraltdığı kimi gözlərinin işığını da almışdı.

Mayor Pənahlının əmriylə dustağı gətirən zabit dərhal qayıdıb getdi. İşığı sovrulmuş gözlərini döşəmədən çəkməyən Vəsfi qapının astanasındaca qaldı. Pənahlı nə qarşısındakı qalaq-qalaq kağızları görür, nə də Vəsfinin güclə eşidilən, tutula-tutula etdiyi minnətdarlığı eşidirdi. Sanki Vəsfinin əvəzinə özü utanırdı, – xəcalət yükündən ağırlaşmış başını hər iki əliylə qamarlayıb, dirsəklərini stola söykəmişdi. Vəsfi:

– Sağ ol, qardaş, Allah mənim ömrümdən kəsib, sənin ömrünə calasın, həyatım boyu bu yaxşılığı unudan deyiləm! – deyə hey danışır, üyüdüb tökürdü.

– Keç əyləş! – mayorun boğuq səsi eşidildi. Öz səsinin xırıltısından özünün əti ürpəşdi. Əhvalını büruzə verməsin deyə tez stolun üstündəki sənədləri araşdırmağa başladı. Sakitcə keçib onunla üzbəüz əyləşən Vəsfi Pənahlının nə deyəcəyini, bundan sonra taleyinin necə olacağını səbrsizliklə gözlədiyindən ümid, həyəcan və qorxuyla yanan gözlərini ondan çəkmir, nəfəsini dərmədən həmyerlisinin hərəkətlərini izləyirdi. İndiyəcən heç vaxt bu qədər xəcalət çəkməyən, həyəcanlanmayan rəis mənasız məşğuliyyətindən özü də bezdi. Başqasının əvəzində xəcalət çəkmək öz günahları üçün utanmaqdan ağır imiş, sən demə.

Nədən başlayacağını, nə deyəcəyini özü də bilməyən Pənahlı başını qürurla qaldırıb, müttəhimin düz gözlərinin içinə baxdı. Bütün məlum olanları deməkdənsə, günahlandırmaq, ittiham etməkdənsə, onu eləcə bu aydın, suçsuz baxışların tənəsində öldürməyi daha üstün bildi. Baxışlarla cəzalandırmaq, islah etmək istədi. Pənahlının bu özünəməxsus ittihamı uzun çəkdiyindən müttəhim daha da həyəcanlanır, gözlərinin alovu az qala qarşısındakını qarsalayırdı. İttiham isə qurtarmaq bilmir, hey uzanır, uzanırdı. Nə deyirdi bu baxışlar? Bu baxışların tənəsini Vəsfi duya bilirdimi?.. Simasında vicdan əzabından, xəcalət hissindən heç bir əlamət görünmürdü. İttihamçını duymaq iqtidarında deyildi Vəsfi. Onu yalnız öz taleyi düşündürür, yalnız öz gələcəyi narahat edirdi. Vəsfi od içindəydi, yanırdı. Bu yanğını öz sifətində də hiss

edən Pənahlını isə başqa şeylər düşündürürdü: Vəsfinin xəyanəti nəticəsində şəhid olmuş yüzlərlə Azərbaycan əsgərinin ruhu onun yaxasından tutub dartır, onu ittiham edirdi; sürünərkən dirsəklərinin, dizlərinin dərisi getmiş, düşmən tapdağı altında qalan torpaqlardakı ayaq izlərinə qanları sızan döyüş yoldaşlarının xəyalı üstünə hücum çəkirdi; mühasirədən çıxara bilmədikləri, ruhları hələ də sərgərdan gəzən minlərlə şəhidin qarası onu basırdı; xəyanət nəticəsində şərəfi tapdanmış neçə-neçə qadının isməti, neçə-neçə uşağın taleyi onu dara çəkirdi...

Bu işgəncələrə tab gətirə bilməyən Pənahlı canini daha ağır cəzalandırmaq, ən dözülməz məhrumiyyətlərə məhkum etmək istəyir, lakin minlərlə insanın bədbəxtliyinə bais olan, vətən hissindən, insanlıq duyğularından uzaq olan bu milli düşmənə layiq cəza növü tapa bilmirdi. Onu ədalət məhkəməsinə vermək, ədalət məhkəməsinin əliylə cəzalandırmaq istəmirdi. Məhkəmənin təyin etdiyi cəza törətdiyi cinayətlər müqabilində çox yüngül olardı Vəsfi üçün...

Vətən xaininə qarşı amansız olan Pənahlı yanına xahişə gəlmiş öz doğmaca əmisini, kəndlilərini, qohum-qardaşlarını bağışlaya bilmir, satqını himayə etdikləri üçün onları günahlandırır, amma qardaş qatili kimi damğalanmağı da özünə rəva görmürdü: – “qardaşı” satqın, vətən xaini olsa da belə. Bəlkə də, həbsdən azad edib, mənən cəzalandırmaq, lənətlənmiş bir varlıq kimi daim ictimaiyyətin nəzarəti altında saxlamaq daha ağır cəza olardı belələri üçün. Lakin Vəsfi kimiləri belə incə cəzalandırmanı duyacaq dərəcədə nəcib ola bilərdilərmi?

Vətən xaininin qəlbində belə ülvi duyğuların olmasını düşünmək əbəs deyildimi?

Bəlkə, qaçaq kimi daim qorxu, hürkü içində yaşamaq yazılmışdı bu caninin taleyinə? Bilmirdi! Bircə onu bilirdi ki, ölüm cəzası ləğv olunandan sonra bu cəmiyyətdə satqınlar, vətən xainləri üçün layiqli cəza növü müəyyənləşdirilməyib hələ...

Etdiyinin cinayət olduğunu bilsə də, niyyətindən dönmədi. Çarpaşıq düşüncələr caynağında son qərarını qətiyyətlə verdi:

– Sənin kimilər üçün ölkə qanunları çox acizdir, Vəsfi! Dur get, qoy, tale səni özü cəzalandırsın!

Sevincdən, xoşbəxtlikdən yerindən sıçradı Vəsfi:

– Necə, siz məni buraxırsınız?! Siz məni,.. siz məni azad edirsiniz?!

– Bəli, mən səni taleyin hökmünə buraxıram. Bununla da hesab edirəm ki, həm vətən, həm də qohum-qardaş qarşısında öz vəzifəmi yerinə yetirmiş oluram. – Sakitcə ayağa qaxdı, yaxınlaşıb seyfin qapısını açdı.

– Götür bu pulu, on dəqiqədən sonra sənin qaçmağınla əlaqədar nazirliyin bütün şəxsi heyəti həyəcan siqnalıyla ayağa qaldırılacaq. Bu müddətdə sən buradan uzaqlaşmalısan. Taksi dəyişdirməkdə simiclik eləmə. Onu da nəzərinə çatdırım ki, bu gün mühafizə xidmətini ən gənc, ən təcrübəsiz heyət həyata keçirir. Onların arasından asanlıqla xilas olmaq, amma eyni asanlıqla təcrübəsizliklərinin qurbanı da olmaq olar. Taleyin özündən asılıdır.

Vaxtın darlığını anlayan Vəsfi həyəcandan titrəməyə başladı. Pulu Pənahlının əlindən qapan kimi qaçmaq istədi.

– Hövsələli ol, tələsmə, heç nə olmamış kimi, sakitcə düş get, – mayorun məsləhətləri onu sakitləşdirdi.

– Sağ ol, qardaş, sağ ol, sağ ol! – həyəcanını güclə gizlətməyə çalışaraq otaqdan çıxdı.

"Qaç, nə qədər gec deyil, qaç. Çətin ki, xalqın nifrətindən, taleyin hökmündən canını qurtara biləsən" – düşünən Pənahlı pəncərənin qabağaına keçdi. Vəsfinin binadan iti, lakin sərbəst addımlarla çıxıb, şosseyə sarı sürətlə yeridiyini gördü. – Qaç, Vəsfi, qaç, amma unutma ki, xalqın nifrəti və taleyin hökmü səni addım-addım izləyir! – istehzayla başını silkələdi. Bu vaxt giriş qapısının yaxınlığında dayanmış əməliyyat müvəkkili:

– Əməliyyata başlayın! – ratsiya ilə göstəriş verdi.

Vaxt sürətlə ötürdü. Vəsfi öz xilasedici planlarını bu dar zamanın çərçivəsinə sərbəst, diqqəti cəlb etmədən, lakin tələsik yerləşdirməliydi. Qabağına çıxan ilk taksini əyləməyi ilə maşının yerindən tərpənməyi bir oldu.

– Sürəti artır, sürəti artır! – deyə yerində sakit otura bilməyən Vəsfi sürücünü bu cür tələsdirməklə şübhəyə saldığının fərqində deyildi. Sürücü əmri yerinə yetirməsinə baxmayaraq, özünü çox arxayın, sakit aparırdı:

– Narahat olma, qardaşın səni min yol polisinin içindən keçirib, dünyanın lap o biri başına salamat apara bilər. – deyə sürücü şübhəsini açıq-aşkar bildirməklə həm məzənnəni qaldırmaq, həm də müştərisini sakitləşdirmək istədi.

Yol hərəkəti qaydalarını sanki qəsdən pozan taksi yol polisinin diqqətini cəlb etdi, bununla da Vəsfinin maşını dəyişmək planını pozdu. Arxasınca düşən polis maşınının xəbərdarlığına və az qala ona çatmasına baxmayaraq,

halını pozmadan sürəti getdikcə artıran sürücü Vəsfini haldan çıxarırdı. O tez qərar qəbul etməliydi. “Bəlkə də bu mənim xeyrimədir” – düşünən cani maşından tullanmaqla diqqəti özündən yayındıracağını, təqibdən uzaqlaşacağını zənn edirdi. O, mayor Pənahlının verdiyi pullardan bir necəsini tələsik çıxarıb, saymadan sükanın qabağına atdı və:

– Onların fikrini yayındırıb, məni düşür! – deyə sürücüyə əmr etdi. Maşını isə polis artıq haqlamışdı. Sürücü istiqaməti dəyişdi. O, Yasamalın qarmaqarışıq küçələrinə girib, izi itirmək fikrindəydi. Lakin polis onları az qala qarışbaqarış izləyir, aralarındakı məsafənin böyüməsinə imkan vermirdi. Vəziyyəti yaxşı dərk edən Vəsfi qapını azca aralayıb, tullanmağa fürsət axtarırdı. Döngələrin birində sürətin azalmasından istifadə edib, tez özünü yerə atdı. Divara möhkəm dəyib əzilməsinə əhəmiyyət vermədən dərhal küçə qapılarından birindən içəri soxuldu. Cinayətkarı izləyən polis maşını dayandı. Vəsfi həyətin divarı üstündən tullanıb, ikinci həyətə atılsa da, gizlənməyə yer tapmadığından təzədən küçəyə çıxdı. Parkı arxasınca gələn polis işçilərinin ardıcıl güllələrinin müşayiəti altında keçdi. Yaxınlıqda dayanmış BMV maşınının sürücüsünü qəflətən çəkib, bayıra atdı. Zərərçəkən özünə gələnəcən BMV tükürpərdici səs şıxararaq yerindən tərpəndi. Amma cinayətkarı izləyən polis nəfərlərinin arxada qalmış maşını gəlib onu haqladı...

...Həyəcan siqnalıyla şəhərin bütün hüquq-mühafizə orqanları ayağa qaldırılmış, bütün yol polisi postlarına xüsusi axtarış tapşırığı verilmişdi. Obyektin hərəkət istiqamətinə xüsusi təyinatlı qrup göndərildi...

Ən yüksək sürətlə irəliləyən maşın tez-tez qeyri-müəyyən istiqamətdə səmtini dəyişir, yol hərəkət qaydalarını pozur, heç bir xəbərdarlığa əhəmiyyət vermədən təqibdən yaxa qurtarmağa can atırdı.

Tabe olmayan caninin idarə etdiyi maşının saxlanılmasıyla bağlı dərhal müxtəlif əməliyyat tədbirləri görüldü. Lakin cani bu maneələri nəinki peşəkarlıqla keçir, hətta təqib edənlərə zərbələr də vururdu...

Prospektə çıxan Vəsfi yan tərəfdən keçib qarşısını kəsmək istəyən polis maşınını sıradan çıxara bildi. Sonra gözlənilmədən sol tərəfdən çıxıb, yolu kəsən iki "Moskviç"dən birini qəfildən geri döndərdiyi maşının arxasıyla vurub aşırdı. Və əks istiqamətə yenidən sürət götürmək istəyəndə onu təqib edən "Volqa"nın zərbəsinə məruz qalıb, geri diyirləndi...

...Kiçicik bir təkanla böyrü üstə qalmış maşın "ayaqlarını" yerə endirdi və düz yolun ortasında çəpinə düşüb qaldı. Cani əzilmiş BMV-nin yarıaçıq qapısından sürüşüb, zərblə asfalta dəydi...

Mayor Pənahlı son ittihamını əlində tutduğu, qanlı gözlərini ona zilləmiş şəklə oxudu. Şəkildən qanı asfalt boyu axan, bayıra çıxmış dilinin üstündə bir neçə diş ağaran, gözləri bərələ qalan bir ölü boylanırdı...

*2002*

## AY ÇIXANA QƏDƏR
hekayə

...Bu ani çəkdi. Leytenant Qafarov gözlərinin onu aldatdığını, ya da işıldaquşların ötdüyünü düşündü. Amma yerindən tərpənməyib, bir az da müşahidə etməyi qərara aldı. Zastava komandiri təyin olunduğu gün qərargah rəisinin dediklərini xatırladı: "Küləkli təpə" deyilən yer çox soyuq, hətta yayın qızmar çağında belə orada küləkdən dayanmaq qeyri-mümkün olduğundan əsgərlər adətən həmin təpəyə çatan kimi bir anlıq irəli baxır, sonra tez geri qayıdırlar. Qaçaqmalçılar bunu yaxşı bildiklərindən həmişə bu zəif zolaqdan istifadə etməyə çalışırlar. Çalış həmin yeri ciddi nəzarətdə saxlayasan..."

...Leytenant sərrast ayaq səsləri eşitdi. Nəzərlərini işıq gördüyü yerdən çəkmədən diqqətini cəmlədi. Səs sərhədçilərin hərəkət etməsi üçün nəzərdə tutulmuş zolaqdan gəlirdi. Deməli, bu, xidməti borclarını yerinə yetirmək üçün zolağa çıxmış növbəti qrupun ayaq səsləriydi...

Gözlərini qırpmadan işıq gördüyü tərəfə baxan leytenant hələ tam tanış olmadığı sahəni təsəvvüründə canlandırmağa çalışdı. Onun durduğu təpədən təxminən yüz-yüz əlli addım aşağıdan sərhəd zolağı keçirdi. Zolaq təpəni aşıb, bir kilometrə qədər üzü aşağı uzanır, sonra isə qarşıdakı dağın ətəklərindən tutub, yenidən zirvəsinə doğru qalxırdı. Qərargah rəisinin dediyi yer də məhz leytenantın durduğu təpədən qarşıdakı dağın ətəklərinə qədər olan zolaq idi. Həmin yer leytenant Qafarovun zastavasına aid olan sahənin bitdiyi, digər zastavanın başlandığı yeriy-

di. İşıq isə leytenantın durduğu təpəylə paralel yerləşən təpənin zirvəsində görünmüşdü. Leytenant nişanladığı yeri yenidən tapa biləcəyinə əmin olub, əsgərləri yoxlamaq qərarına gəldi. Növbə təpəyə çatan kimi ayaq səsləri, doğrudan da, kəsildi. O, ehtiyatla əsgərlərin dayandığı yerə yaxınlaşmağa başladı. Bir qədər irəlilədikdən sonra artıq onların səslərini də aydınca eşitdi. Komandir hiss etdi ki, onlar daha irəli getmək niyyətində deyillər. Serjant sıravi Əhmədova təpədən irəli boylanıb, tez də geri qayıtmağı tapşırdı. Özü isə digər əsgərlərlə birlikdə yaxınlıqdakı daşın arxasına tərəf addımladı. Kürəyini daşa söykəyib, aramsız əsən küləkdən qorunmağa çalışdı. Cibindən siqaret çıxaranda yoldaşları tez ona sıxılıb, kibrit yandırmaq üçün küləyin qarşısını kəsdilər. Buna baxmayaraq, kibrit alışıb, dərhal da söndü. Bir neçə dəfə cəhd göstərsə də, siqaretini yandıra bilməyən serjant əsgərlərlə birlikdə yerə çökdü. Bircə andan sonra leytenant küləyin qovub gətirdiyi siqaret tüstüsünün qoxusunu hiss etdi, bunun ardınca da sıravi Əhmədovun yaxınlaşmaqda olan ayaq səslərini eşitdi.

– Salamatçılıqdı! – Əsgər təklif gözləmədən yoldaşlarının yanında yerə çökdü.

– Beş dəqiqə dincinizi alın, qayıdaq. – Serjant bir qullab da alıb, siqareti digərinə ötürdü: – Bu küləkdə iti də qovsan, bura gələn deyil! – əlavə elədi. Leytenant vaxtı itirməyin mənasız olduğunu anlayıb, yenidən bayaq durduğu yerə, təpənin zirvəsinə addımladı. O, seçdiyi yerə çatanda artıq əsgərlərin əks istiqamətdə hərəkətə başladığını hiss etdi. Başını yelləyərək yenidən diqqətlə bayaqkı tərəfə baxmağa başladı. Əgər işıq gördüyü yerdə qaçaq-

malçı varsa, daha onu həmin yerdə tapmayacağını düşünürdü. Ona görə də eyni yeri axtarmaqdansa, sərhəd zolağına baxmağa üstünlük verdi... Və yenidən məhz həmin yerdə əvvəlki qayda ilə işığın ani olaraq yanıb-söndüyünü müşahidə etdi. Bir qədər qabaq serjantın siqaretini necə çətinliklə yandırdığını xatırladı. Deməli, gözləri onu aldatmamışdı. Amma onu təəccübləndirən belə küləkli havada qaçaqmalçıların adətən əl fənərindən istifadə etdiyi halda, onun nə ücün alışqandan istifadə etməsiydi. "Amma bu, işarə yox, sadəcə, qaçaqmalçının siqaret yandırmaq cəhdi də ola bilərdi. Onun hələ də yerindən tərpənməməsi isə yəqin ki, durduğu yerin sərhədin əks tərəfini və sərhəd zolağını müşahidə üçün əlverişli olmasıdır. Həm də yəqin ki, sərhədin əks tərəfindən gələn şəxs də işarəni məhz həmin yerdən gözləyir".

Düşüncələrini yenidən həmin yerdə işığın ani olaraq yanıb-sönməsi qırdı. Amma bu dəfə gördüyünü alışqan işığına deyil, əl fənərinin işığına bənzətdi. Bir dəqiqə keçməmiş həmin yerdə əl fənəri yenidən ardıcıl olaraq yandırılıb-söndürüldü. Leytenant sərhədin əks tərəfində, – qarşıdakı dağın ətəyində də əl fənərinin məhz həmin qaydada yandırılıb-söndürüldüyünü gördü. Ardınca əvvəl müşahidə etdiyi yerdə əl fənəri yenidən yandırıldı və bir qədər yuxarı qaldırıldı. Fənər havada ani qaldıqdan sonra yuxarıdan aşağı qövsvarı xətt cızdı, ani olaraq dayandı, sonra aşağıdan yuxarı qövs cızdı. Və dərhal da söndü: Leytenant "gəldilər,.. getdilər" – deyə öz-özünə pıçıldadı. "Deməli qövsün yuxarıdan aşağı yazılışı əsgərlərin gəlmələrinə, aşağıdan yuxarı yazılışı isə getmələrinə işarədir". Elə bu an qarşıdakı tərəfdə də

fənər işıqlandı və ani olaraq havada maili bir xətt çəkib söndü. Leytenant yenidən öz-özünə pıçıldadı – bu da "gəlirəm" deməkdir. Əllərini dizlərinə söykəyib, ayağa qalxdı: "Mən də gəlirəm!" – deyə ironiya ilə düşündü. Sərhədin bəri tərəfində olan və sərhəd zolağına uzanan dərəyə tərəf addımlamağa başladı.

...Buralarda gecə təxminən saat üçə qədər zülmət qaranlıq olur, saat üçdən sonra ay bütün sərhəd zolağını, bir-birindən uca dağları bəmbəyaz işığa boyayırdı. Bunu leytenant yaxşı bilirdi. "Deməli, qaçaqmalçılar da işlərini ay çıxana qədər bitirməyə çalışırlar. Ay batandan təxminən iki saat sonra isə hava işıqlanmağa başlayır. Bu müddət qısa olduğundan qaçaqmalçıların belə dağ şəraitində hərəkəti üçün o qədər də əlverişli deyil. Buna baxmayaraq, qərargah rəisinin dediyinə görə, onlar hər məqamdan istifadə etməyə çalışırlar."

Leytenant qərargah rəisinin məsləhət və məlumatlarını xatırlaya-xatırlaya nəzərdə tutduğu yerə nə vaxt yaxınlaşdığını özü də bilmədi. Burnuna həddindən artıq siqaret çəkən adamın ağzından gələn kəskin bir qoxu dəydi. "Deməli, o, yaxud da onlar lap yaxınlıqdadırlar. Daha onlardan işarə gözləmək yersiz olar. Çünki görüş yerlərini çox yaxşı bilirlər" – leytenant düşündü. O, təxmin etdiyi yerə, – işarələr gördüyü yerin düz mərkəzində, sərhəd çəpərinin yaxınlığında olan dərəyə tərəf gedirdi. Düşünürdü ki, hər ikisinə yaxın olsun deyə çox güman ki, qaçaqmalçılar sərhədə yaxın yerdə görüşəcəklər. Həmin yer isə digər zastavanın xidmət sahəsinin başladığını bildirən dərə olmalıydı. Çünki bu yerlərdə tez-tez yağan yağışlar dərədəki sərhəd çəpərinin altını oyub, qaçaqmal-

çıların sərbəst keçməsi üçün şərait yaradırdı. Bir gün qabaq isə güclü yağışlar yağmışdı.

Amma leytenantın düşündüyü kimi olmadı. O, həmin yerdən bir qədər kənarda gizlənib, işin gedişini izləyəndə, yaxınlığından bir nəfərin keçib, işarə verilən yerə tərəf tələsdiyini gördü: "Deməli, qaçaqmalçılar daha ehtiyatlı tərpəniblər. Onlar sərhədin lap yaxınlığında deyil, qonşu dövlətin ərazisinə yaxın olan yerdə görüşməyi üstün tutublar" – leytenant qərara aldı. – "Bu, onların ələ keçmək ehtimalını xeyli azalda bilər. Deməli, onlar yaxalana biləcəkləri halda qonşu dövlətin ərazisinə qaçıb canlarını qurtarmaq haqqında düşünürlər. Bu halda onlardan biri ələ keçsə belə, digəri qaçıb aradan çıxa bilər..." – Leytenant gizlicə sərhədpozanın ardınca irəliləməyə başladı.

Son dərəcə ehtiyatla hərəkət edən sərhədpozan tez-tez dayanıb, ətrafı diqqətlə yoxlayır, sonra addım atırdı. Kolkosun dalından, daşların arxasından, tikanların arasından sivişməklə irəliləyən leytenant gizlindən onu izləyir, hər addımına göz qoyurdu. Təxminən yarım saatdan sonra sərhədpozan təpədəki qayanın altında onu gözləyən qonşu ölkənin vətəndaşına yaxınlaşdı. Pıçıltıyla qısaca danışandan sonra qoltuqlarında gətirdiklərini dəyişdilər. Qərargah rəisinin söylədiklərini xatırlayan leytenant tapançasını atəşə hazır vəziyyətə gətirib, qəfil irəli sıçradı:

– Tərpənməyin, əllər yuxarı! – var səsiylə bağırdı. Bu gözlənilməz əmrdən səksənən, vahiməyə düşən sərhədpozanlar yerlərindəcə dondular. Amma bu ani çəkdi. Bu müddətdə əvvəlcə bir-birlərinin, sonra isə leytenantın sifətinə baxan sərhədpozanlar qabaqcadan şərtləşiblərmiş kimi hər ikisi eyni anda əks istiqamətə qaçdılar. Onların

qaçmağa cəhd göstərdiklərini anlayan leytenant:

– Dayanın, atəş açacam! – deyə ardıcıl olaraq havaya iki atəş açdı. Qaçmağın mümkün olmayacağını anlayan sərhədpozanlar yerlərində durub, əllərini havaya qaldırdılar.

– Düşün qabağıma, haydı! – leytenant tapança tutduğu əliylə onlara yolu göstərdi. Sərhədpozanlar yerlərindən tərpənmədən bir-birinin üzünə baxdılar. Elə bu an heç nə olmayıbmış kimi onlardan biri hövsələylə dilləndi:

– Niyə hirslənirsən, baba, əmim oğludur, bu zəhrimar bizə görüşməyə imkan vermədiyi üçün gizli görüşmək məcburiyyətində qalmışıq! – əliylə sərhəd çəpərini göstərdi: – Axı, heç olmasa, ildə bir dəfə bir-birimizin keyf-halından xəbər tutmalıyıq, ya yox?

– Keyf-haldan xəbər tutmaq üçün indi kifayət qədər imkanlar var. Çox danışmayın, tərpənin!

Leytenantın qətiyyətli sözündən sonra digər sərhədpozan açıq-aydın hiss olunan həyəcanla söylədi:

– Qardaş, bizi tutub aparmaqla nə qazanacaqsan, axı? Niyə balalarımızı bədbəxt edirsən? Bəlkə, öz aramızda razılığa gələk?!

– Söhbət bitdi! Sonrasını qərargahda davam etdirərik! Yeriyin görüm! – Leytenant qışqırıb, yenidən tapança tutduğu əliylə yolu göstərdi. Elə bu vaxt ona yaxınlaşan sərhədpozan qəfil təpiklə vurub, tapançanı leytenantın əlindən kənara saldı. Dərhal da irəli cumub, bütün gövdəsinin ağırlığıyla leytenantın kürəyini arxadakı qayaya çırpdı. Aldığı qəfil zərbədən başının gicəllənməsinə baxmayaraq, leytenant özünü itirmədi. Sifətinə millənən yumruq zərbəsini sağ qoluyla kənarlaşdırıb, sol əliylə sərhədpozanın sinəsinə güclü bir yumruq zərbəsi endirdi. Dərhal da havaya sıçrayıb, fırlanma hərəkətiylə

üstünə cuman digər sərhədpozana təpik zərbəsi vurdu. Leytenantın silahsız olduğunu görən sərhədpozanlar fürsətdən istifadə edərək eyni anda yenidən onun üstünə cumdular. Leytenant yenidən fırlanma təpik zərbəsiylə onlardan birini özündən kənarlaşdırıb, digərini çiynindən aşırıb yerə çırpdı. Dərhal da sıçrayıb, dirsəyi ilə sinəsinə güclü bir zərbə endirdi. Yoldaşının artıq tərpənməz halda yerdə uzandığını görən ikinci sərhədpozan yerdən yekə bir daş qapıb, zərblə leytenanta tolazladı. Leytenant əyildi, vıyıltıyla başının üstündən keçən daş qayaya dəydi. Leytenant dikəlib, sərhədpozanın üstünə sıçramaq istəyəndə sifətinə cırpılan qumdan gözləri qaraldı. Sərhədpozan çevrilib, qonşu dövlətin ərazisi istiqamətində qaçmaq istədi. Toz-torpağın gözlərinə dolmasına baxmayaraq, özünü itirməyən leytenant cəld üstündə gəzdirdiyi avtomat süngüsünü çıxarıb sərhədpozanın qaçdığı istiqamətə tolazladı. Sərhədpozan ufuldayıb yerə yıxıldı. Süngü hədəfə dəymişdi.

Leytenant ovuşdurub, gözlərini təmizlədi. Artıq ay sonsuz ənginliklərdən işıq saçırdı. Leytenant buduna süngü sancılmış sərhədpozanın indi də çevrilib əks istiqamətdə, sərhədə tərəf qaçmağa can atdığını gördü. Görünür, sərhəd çəpərinin altından keçib, geri qayıtmaq istəyirdi. Leytenant özünü yetirib, boynundan qamarlayaraq onu ayağa qaldırdı, hələ də özünə gəlməyən digər sərhədpozanın yanına gətirdi.

...Bıçaq yarası almış yoldaşını çiyninə götürən sərhədpozan leytenantın qarşısına düşüb, sərhəd zolağındakı yola doğru addımlayırdı. Kürəklərindən tutmuş dabanlarına qədər yaş olduğunu yalnız indi anlayan leytenant əvvəlcə tərdən islandığını düşündü. Amma əlini belinə

vuranda bədəninin qan içində olduğunu gördü. Yalnız indi yadına düşdü ki, sərhədpozan onu qayaya çırpanda başından xəsarət alıb.

...Başının qanı dayanmaq bilmirdi. O, dəsmalını çıxarıb, yarasının üstünə basmaqla qanaxmanın qarşısını almağa çalışdı. Gözləri qaralırdı. Gecikseydi, qan onu aparar, sərhədpozanlar bundan istifadə edib, aradan çıxa bilərdilər. İndi əsas vəzifəsi sərhədpozanları "Küləkli təpə"yə qədər aparmaq idi...

Onlar artıq sərhəd çəpərinin yanıyla, əsgərlərin hərəkəti üçün nəzərdə tutulmuş yolla addımlayırdılar. "Küləkli təpə"yə isə hələ xeyli yol vardı. Yaralı yoldaşını çiyninə almış sərhədpozan hərdən dönüb geri – leytenanta baxa-baxa astaca addımlayırdı. Başından dayanmadan sızan qandan zəifləmiş, islanmış kürəkləri küləkdən donmağa başlayan leytenant qarşısındakı sərhədpozanları artıq güclə sezirdi. Buna baxmayaraq, onları duyuq salmasın deyə addımını inamla atırdı. Vaxt onun ziyanına, rəqiblərinin xeyrinə işləyirdi, – halı anbaan pisləşirdi. "Bir qədər, bir qədər də döz..." – deyə düşünən leytenant qəfil dayanıb, sərhədçilərə məxsus həssaslıqla ətrafı dinşəməyə başladı. Sərrast atılan addım səsləri eşidilirdi. Bu, zolağı yoxlamağa çıxmış növbəti sərhədçi qrupunun ayaq səsləriydi...

*05.2003*

SON